500t 250q sari vereq parlaq 60x84 240s



Mustafa Səyavuş Firudin oğlu16 yanvar 1966-cı il Naxçıvan MSSR-in Naxçıvan rayonunun (indiki Babək) Qaraxanbəyli kəndində anadan olub.

AzDBTİ də, Polis Akademiyasında və Moskvada Hüquq təhsili alıb. Tələbə vaxtlarında Sovetlərin əleyhinə gizli təşkilatın üzvü olub.

Vətən Müharibəsində torpaqların qorunmasında könüllü olaraq Batalyon Komandiri kimi iştirak edib.

Nax.Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri, Nax. Daxili İşlər Naziri və birinci müavini işləyib.

8 il müddətinə həbsdə olub.

Ailəlidir, 3 oğlu və 1 qızı var.

ELMVƏTƏHSİL
NƏŞRİYYAT-POLİQRAFİYA

*Yadıma düşənlər*

SƏYAVUŞ MUSTAFA



**SƏYAVUŞ MUSTAFA**

# YADIMA DÜŞƏNLƏR

**"Elm və təhsil"**
**Bakı – 2024**

Redaktor: **Namiq Talıblı**

Toplayan və
nəşrə hazırlayan: **Əli Şamil**

Korrektor: **Məhluqə Səyavuşqızı**

**Səyavuş Mustafa. Yadıma düşənlər.**
**Bakı, "Elm və təhsil", 2024, 260 səh.**

Kitabdakı yazıları yaxın keçmişimizin tarixindən yarpaqlar adlandıra bilərik. Onları peşəkar yazıçı, jurnalist, tarixçi yazmadığından dil üslubunda, janrında çatışmamazlıqlar və həmçinin yazılar başqa-başqa vaxtlarda yazıldığı üçün məqalələrdə təkrarlar ola bilərsə də, faktlarda təhriflər ola bilməz. İllər keçəndən sonra yazıldığından bəzi hadisələrdə detalların unudulması təbiidir. Ən ağır və gərgin günlərdə, ölümlə üzləşdikləri vaxtlarda belə zarafatlarından qalmayan, nikbinliyini qoruyub saxlamağı bacaran dostlarımızın gənclik həyatı milli düşüncəmizə işıq salmaq baxımından çox dəyərlidir. Buna görə kitabı yaxın keçmişimizin güzgüsü də adlandırmaq olar.

4702000000 qrifli nəşr
N-98-2024

© Səyavuş Mustafa, 2024

## KİTABIN İÇİNDƏKİLƏR

Milli mübarizəmizin canlı tarixi ............................................5

**ƏQİDƏ YOLDAŞLARIM**

Arif Rəhimoğlu ................................................................13
Aydin Kərimov ................................................................20
Çərkəz Cəfərov ................................................................23
Daşqın Ağalarov ..............................................................27
Elçin Abbasov...................................................................29
Əli Şamil...........................................................................37
Əli Səfa .............................................................................45
Hüseyn Cavadov ..............................................................50
İbrahim İbrahimli .............................................................53
İki şəkilin tarixi ................................................................55
İsaxan Aşurov ..................................................................58
Nəcəf Nəcəfov, Elçin Səlcuq, Fərzux Seyidbəyli..................60
Piket Həsən.......................................................................62
Səbuhi Məmmədli .............................................................69
Yaşar Türkazər Bayraqdar.................................................70
Yavər Ünsal .....................................................................73

**DÖYÜŞ DOSTLARIM**

Dəli Qulu .........................................................................76
Elşad Salayev....................................................................83
Əbdül Məmmədov .............................................................88
Gobud Vəli .......................................................................92
İbrahim Salahov................................................................95
Mirəsgər Seyidov ..............................................................100
Natiq Qasımov ..................................................................108
Oktay Baxşəliyev ..............................................................111

Pərviz Məmmədzadə ....................................................... 123
Rafiq Zülfüqarov ........................................................ 129
Rasim Məmmədov ......................................................... 132
Rövşən İsmayılxanlı ..................................................... 134
Sədərək döyüşləri ........................................................ 137
Səyavuş Həsənov ......................................................... 141
Səyyad Əhəd oğlu ........................................................ 143
Şah ləqəbli Şahmərdan ................................................... 147
Taleh Həsənov ............................................................ 149
Yetim Qəhrəman ........................................................... 151
Yusif Mirzəyev ........................................................... 154

## MƏHBUS GÜNDƏLİYİNDƏN

Axır çərşənbə ............................................................ 156
Atam vətən xaini deyil ................................................... 159
Elçibəyin ölüsündən qorxanlar ............................................ 170
Həbsxanadan Ali Baş Komandana müraciət ................................... 174
Həbsxanada bitən çiçək ................................................... 176
Xəlil Rza Ulutürk ........................................................ 178
İlk həbsim ( Meydan hadisələri ) ......................................... 180
Qapalı həbsxanada qiyam .................................................. 205
Qobustan həbsxanasındakı karsı necə
sökdürdüm ................................................................ 214
Lotu Bəxtiyar ............................................................ 230
Nazim Hikmət ............................................................. 243
Siyasi məhbusluqdan niyə imtina etdim .................................... 248
Son məhkəməmdəki son sözüm ............................................... 252
Vaqif Əhmədov ............................................................ 256

## MİLLİ MÜBARİZƏMİZİN CANLI TARİXİ

Kitabın "Məhbus gündəliyindən" bölməsinin əvvəlindəki plakat 1994-cü ildə çap edilib. Onda Səyavuş Mustafa həbs edilmişdi. Bu onun ilk həbsi deyildi. Birinci dəfə 1988-ci il dekabrın 4-dən 5-ə keçən gecə Meydanda (indiki Azadlıq meydanı) onlarla vətənsevərlə birlikdə tutulub Bayıl Istintaq Təcridxanasına aparılmışdı.Onların günahı cəsarətli olmaları, vətəni və milləti sevmələri idi.

Moskvanın gizli təhriki ilə erməni şovinistləri Dağlıq Qarabağı işğal etməyə başlayanda Azərbaycan vətənsevərləri də vətənlərini, milli heysiyyatlarını qorumaq üçün təşkilatlanmağa, nümaişlər, mitinqlər, özünü müdafiə dəstələri təşkil etməyə başladılar. Onların sırasında Azərbaycan Bədən Tərbiyəsi Institutunun "sambo və cüdo" güləşi üzrə 22 yaşlı tələbəsi Səyavuş Mustafa da vardı. O, tələbələrin yaratdığı "Yurd Birliyi"nin təşkilatçılarından olmaqla qalmadı. 1988-ci il noyabrın 17-də Bakıdakı Lenin (indiki Azadlıq) meydanında başlayan davamlı mitinqin mühafizəsini təşkil edənlərdən oldu.

Lakin dekabrın 5-də, 17 günlük dirənişdən sonra səhərə yaxın Meydan Sovet əsgəri birlikləri və xüsusi xidmət orqanları tərəfindən dağıdıldı, yüzlərlə insan həbs edildi. Meydanda son ana kimi dirəniş göstərənlər arasında Səyavuş Mustafayev də olmuşdu. Onu da Bayıl Istintaq Təcridxanasına aparmışdılar. Bayıl həbsxanasından da Sal-

yandakı Xələc Islah Əmək Düşərgəsinə köçürmüşdülər. Dekabrın 31-də onu və mübarizə yoldaşlarının bir qismini axşamın qaranlığında həbsxanadan bayıra atmışdılar.

Bədən Tərbiyəsi Institutunun tələbələrinin Səyavuş Mustafayevi müdafiə etdiklərinə və komsomol təşkilatı tərəfindən verilən "stroqiy vıqovor s zaniseniem v liçnoy kartoçki, za uçastie nesankçirovannıx mitinqax i razjiqanie mejnaçionalnıy rozni" (Qanunsuz mitinqlərdə iştirakı və millətlərarası ədavəti qızışdırdığına görə şəxsi vərəqəsinə yazılmaqla şiddətli töhmət) adlı ciddi töhmətə görə ali məktəbdən qovulmaqdan qurtulmuşdur.

1988-ci ildən sonra Səyavuş Mustafa ömrünün üçdə birini həbsdə keçirib. Əslində elə indi də həbsdədir. Son dəfə onu Bakıda 2020-ci ildə baş vermiş kütləvi yürüşə görə həbs ediblər. Onu yürüşün təşkilatçılarından olduğuna görə həbs etməyiblər. Milli Məclisin binasına girib oradakı avadanlıqları qıranları sakitləşdirdiyinə görə, bir sözlə yürüşçülərin təxribat törətməklərinin qarşısını aldığına görə həbs edərək 6 ay Kürdəxanı təcridxanasında saxladıqdan, 7 ay ayağına qandal taxaraq ev dustağı kimi Bakıdan kənara buraxmadıqdan sonra 4 il müddətinə icbari cəza ilə "mükafatlandırıblar"

Səyavuş Mustafanın mühakimə olunması 1937-ci ilin həbslərini yada salır. Moskvada KQB arxivində "Həkimlərin işi" deyilən bir istintaq materialı var. Orada Moskvada yaşayan aydınların bir qrupunun Hindistanın paytaxtı Dehliyə Moskvadan yeraltı tunel qazaraq imperialist Bö-

yük Britaniyanın nümayəndələri ilə əlaqə yaradıb Sovet hakimiyyətini devirəcəklərindən söhbət gedir.

2020-ci ildə kimlərinsə təşkil elədiyi, çılğın vətənsevərlərin də qoşulduğu yürüş haqqında hələ həqiqətlər ortaya qoyulmayıb. Yürüş iştirakçılarını təxribat törətməsin deyə Səyavuş Mustafa özünü "insan seli"nin qarşısına atıb. İstədiyinə də nail olub. Milli Məclisin binasının dağıdılmasına imkan verməyib. Istintaqda və məhkəmədə ona deyiblər: "Sən kim idin, hansı səlahiyyətin sahibi idin, kimdən göstəriş almışdın ki, yürüş iştirakçılarını Milli Məclisin binasından çıxarırdın?".

Səyavuş Mustafa isə bu sualın cavabını belə verib:"Mən bu dövlətin yaranmasında canını qoyan, torpaqları uğrunda döyüşərək bir böyrəyini itirən və qucağında 123 nəfər ən yaxın dost və silahdaşlarını şəhid verən VƏTƏNDAŞAM"

Təxribatın qarşısını aldığına görə ona verilən 4 illik icbari həbs cəzasını hələ çəkib qurtarmayıb. Həftədə bir dəfə gedib siyahıya qol çəkir. Başqa bir bəhanə tapmasalar onun cəzası 2024-cü il sentyabrın 7-də başa çatacaq.

1993-cü ildə o, uzunmüddətli həbs edilərkən məhbəsdə yazdıqlarından bəzi parçalar "Azadlıq" qəzetinin "Kəs, saxla, gərəyin olar" rubrikası altında çap olunub. Xatirə və qeydlərinin tam mətnini isə Qobustan Qapalı Həbsxanasının rəhbərliyi oğurlayaraq məhv edib.

Səyavuş Mustafa son illərdə Facebookda fəallıq edir, xatirələrini paylaşır, günün hadisələrinə münasibət bildirir, keçmişlərdən söz açır, düşüncələrini bölüşür.

Onun paylaşdığı yazılar günümüz üçün nə qədər aktual olsa da, bəziləri isə yaxın tariximizi öyrənənlər üçün dəyərli qaynaqdır. Bu yazılardan rejissorlar film çəkərkən, psixoloqlar insanın daxili aləmini açarkən, pedoqoqlar gənc nəsli tərbiyə edərkən istifadə edə bilərlər. Buna görə də Səyavuş Mustafanın yüzlərlə yazısından bir hissəsini toplayıb kitab halına saldıq.

O, nə jurnalistdir, nə yazıçı. Yazdıqlarının nə vaxtsa çap ediləcəyini heç ağlının ucundan da keçirməyib. Amma onun yazdıqlarını oxuyanlar dəfələrlə belə bir kitabın nəşrinə ehtiyac duyduqlarını bildiriblər. Mən də Səyavuş Mustafanın sosial şəbəkələrdə paylaşdıqlarının bir qismini topladım və kitab halına saldım.

1966-cı il yanvarın 16-da Naxçıvanın Qaraxanbəyli kəndində anadan olan Səyavuşun ulu babası Məhəmməd Cənubi Azərbaycandakı Məşrutə hərəkatının iştirakçılarından olub. Səttarxan Sərdarimillinin döyüşçüləri ilə birlikdə konstitusiyalı idarəetmənin həyata keçirilməsi üçün mübarizəyə atılıb. Məşrutə hərəkatı yatırıldıqdan sonra Məhəmməd kişi oğlu Mustafanı da götürüb Arazın bu tayına keçib. Lakin ailədə Məşrutə hərəkatı heç vaxt unudulmayıb. Mustafa kişi atasının silahdaşı və komandiri Səttarxan Sərdarimillinin şərəfinə oğluna Səttar (Sovet hakimiyyəti illərində adların sonuna bəy, xan sözlərini yazdırmağa icazə verilmirdi) adı verib. Əsilləri Təbriz vilayətinin Əcəbşer kəndindən olan bu ailə Qaraxanbəylidə yaşayıb. Babalarının yolunu davam etdirən Səyavuş Mus-

tafa gənc yaşlarından Turan qurmaq istəyi ilə meydana atılıb.

Səyavuş Mustafanın doğulduğu kənd sərhəd məftillərinin yanındaydı. Bağçada, məktəbdə onu sərhədçinin gənc dostu, Sovet sərhədlərini qoruyan biri kimi böyütməyə çalışıblar. Yaşıdlarının bəziləri də belə böyüyüb. O, isə böyüyüb Sovet sərhəd qurğularının sökülməsinə rəhbərlik edənlərdən olub.

Yetkinlik yaşını başa vuranda onu Sovet ordusunda xidmət etməyə apardılar. Sovet ordusunda çox istisna olan nadir hal kimi, 6 ay əsgərlik etdikdən sonra öz ərizəsi ilə kəşfiyyatçı desant briqadasına keçib. Sovetləri qoruyacaq cəsur desant kimi hazırlanıb. Verilən tapşırıqları böyük məharətlə yerinə yetirərək hətta 32 dəfə D6 (paraşüt növü) paraşütundan tullanıb. Desant olaraq aldığı təlim-məşqlər onun gələcəkdə vətəni müdafiəsində iştirak etdiyi döyüşlərdə çox dadına çatıb.

Onu uşaq baxçasında, ümumtəhsil məktəbində, ali məktəbdə Sovet vətənpərvərliyi ruhunda böyütməyə çalışıblar. O, isə Sovetləri yıxıb Azərbaycanı azadlığa qovuşduranlardan və Naxçıvan şəhərinin mərkəzi meydanında Leninin büstünü sökənlərdən olub. Büstün üstünə çıxmaqla, kranın trosunu büstün boğazına  salmaqla adamların içindəki xofu aradan qaldırmağa çalışıb.



***Naxçıvan şəhərindəki Leninin adını daşıyan meydandan Leninin büstü götürülərkən.***

***Büstün üzərindəki Səyavuş Mustafa və Bayram Əhməd kranın ilgəyini büstün boğazına keçirməyə hazırlaşır.***

Səyavuş Mustafa vətəni erməni silahlı quldurlarından qorumaq üçün özünü oda-közə vurub. Ov silahlarının belə milis tərəfindən yığıldığı vaxtlarda Sovet sərhədçilərinin gözündən yayınıb Arazın buzlu sularını keçərək Irandan, Türkiyədən silah alıb gətirib. Sovet hökuməti onu silah qaçaqmalçısı kimi tanısa da həbs edə bilməyib. Çünki, arxasında xalq dayanmışdı.

Naxçıvanda yaradılan Könüllü Müdafiə dəstəsinin rəhbərlərindən olub. Vətənin dar günündə Rus-Sovet işğalçılarına, erməni quldurlarına qarşı Qaraxanbəyli kəndinin igid oğullarından yaratdığı "Qaraxan"silahlı dəstəsi ilə birlikdə döyüşüb.

Azərbaycan müstəqilliyini əldə edəndən iki il sonra, 1993-cü ildə onu qanunsuz silahlı dəstə yaratmaqda ittiham edərək əvvəlcə 4 il həbs cəzası veriblər. Həbsxananın

rəhbərləri deyiblər ki, yuxarıdan tapşırıblar, bağışlanmaq haqqında ərizə yazsan adını əfv olunanların siyahısına salacaqlar.

Səyavuş Mustafanın cavabı isə belə olub: "Mən vətəni qorumuşam. Buna görə özümü günahkar saymıram. Günahkar deyiləmsə nədən bağışlanmaq haqqında ərizə yazmalıyam?!". Bu cavabına görə həbs müddətinin üstünə 4 il də əlavə edərək 8 il azadlıqdan məhrum ediblər.

Həbsxanada olduğu müddətdə öncə 2 il, sonra da 3 il müddətinə Qobustan Qapalı Həbsxanasına göndəriblər. Qobustan Qapalı Həbsxanasında olarkən şərləyərək həbs cəzasını daha 3,5 il də artırıblar.

Səyavuş Mustafa ömrünü təzyiq və təqiblər altında yaşayır. Övlad böyütməyin, vətən üçün vətəndaşlar tərbiyə etməyin çətin olduğunu söyləyənlərə mən həmişə Səyavuş bəyi və dayısı qızı olan həyat yoldaşı şəhid, Milli Qəhrəman Mir Əsgər Seyidovun bacısı Sevil xanımı nümunə göstərirəm.

Səyavuş Mustafa hələ Sovet hökuməti yıxılmamışdan öncə Naxçıvan Muxtar Respublikasının Bədən Tərbiyəsi və Idman Komitəsinin sədri kimi SSRI-də ən cavan komitə sədri, sonra isə Naxçıvan Muxtar Respublikası Daxili Işlər naziri və nazirin birinci müavini işləyib.Azərbaycan Dövlət Bədən Tərbiyəsi inistutunu qırmızı diplomla bitirib, Azərbaycan Polis Akademiyasında və həbsdən sonra isə Moskvada hüquq təhsili alıb.

Biz Səyavuş Mustafanın ad gününü həbsxanada da, evində "ev dustağı" olanda da qeyd etməyə alışmışıq. Ad

günün mübarək, vətən və millət üçün ömür xərcləyən cəsur insan!

Sən tarix yaratmaqla yanaşı həm də tariximizi yazırsan. Bu da olduqca vacibdir.

**Əli Şamil**
**16.01.2024**

# ƏQİDƏ YOLDAŞLARIM

## *ARİF RƏHİMOĞLU*



Arxadaşlar!

Ürəyi özündən 8 il öncə dəfn edilən adam görmüsünüzmü?

Mən görmüşəm. Bəli, həmin adam bizim Arif Rəhimoğludur!

Millətimiz, xalqımız, türklüyümüz üçün ürəyini qurban versə də, beyni və bədəniylə mücadilə aparırdı!

Ürəyi dəyişiləndən az sonra Stokholmda,DAK-ın (Dünya Azərbaycanlıları Konqresi) növbəti qurultayında görüşdük. Dedi: "Hoteldə ikimizə bir otaq götür, gecə dərdləşək". Ehtiyat edirdim ki, əməliyyatdan təzə çəxan Arif bəyin birdən vəziyyəti pisləşər. Ona görə tez-tez: "Arif bəy yat, dincəl" deyirdim. Cavabında: "Ay Səyavuş, bir də səni haradan tapacam? (Düz deyirmiş, bu bizim axırıncı görüşümüz oldu.) Narahat olma!"- deyirdi.

Səhərə kimi söhbətləşdik. Nədən danışmadıq ki?! Uyğur Türklərindən tutmuş Litvada yaşayan Karaim türklərinə kimi (Pribaltikada hərbi xidmətdə olsam da, karaimlərdən xəbərsiz idim).

Araya salıb zarafatla soruşdum: "abi "təzə" ürəyin şuluq eləmir ki?" "Yox, şuluq eləmir, amma deyəsən, ürəyi

mənə qoyulan rəhmətlik yaman vuran olub. Hərdən ürəyim pivə istəyir!"- deyib güldü.



***Şəkildə soldan: Nadir Hollenbraun, Mehrac Babayev, Arif Rəhimoğlu, Səyavuş Mustafa, Ilham Həsən.***

Ürəyinə aid çox suallar vermək istəyirdim, amma çəkinirdim. Bunu görüb "Özgə ürəyi daşıyan adam" haqqında çox maraqlı söhbət elədi.

Arxadaşlar!

Dostlarımızı bir-bir itirməyimiz nə qədər acıdır, ağırdırsa da, onların qürbətdə dünyasını dəyişməyi yüz o qədər əzablıdır!

Şahmərdan bəy, Fətulla bəy, Cavad bəy həbsxanada, Oktay abi, Ibrahim abi, Sahib abi,Irşad abi, cənublu Siyamək, Rasim, Əli, neçə-neçə hərəkat dostumuz vətəndə dünyasını dəyişdi.

Ulu Elçibəy, Tofiq bəy, Hicran bəy, Elşad bəy indi də Arif bəy vətən həsrəti ilə gözlərini əbədi yumaraq, qürbətdə can verdilər. Vətən uğrunda döyüşən, düşmənə can verməyən oğullar, qürbətə can verirlər.

Budurmu Milli Azadlıq Mübarizəsinə ömür sərf etməyin nəticəsi?

Beləmi olmalıydı vətəni canından çox sevənlərin aqibəti?

Onlar azadlıq mübarizəsinə ona görəmi qoşulmuşdular ki, cənazələri tabutda vətənə gətirilsin? Yaxud da Avropanın əl çatmayan, ün yetməyən qəbiristanlıqlarında dəfn edilsinlər?

Məmməd Əminin, Fətəli xanın, Düdənginskinin, Ağaoğlunun çəkdiklərini nədən ikinci dəfə bizimkilər də çəkməlidi? Özü də Azərbaycanı Sovet işğalından azad edənlər çəkməlidi?!

Kim nə deyir desin, mən həmişə vətənin "həbsxanasını" qürbətin "xoşbəxtliyindən" üstün tutmuşam! Amma məcbur olub mühacirətə gedənləri də qınamıram.

Hamı bilir ki, həbsdən sonra mənim Amerikadan, Kanadadan tutmuş, Avropanın istənilən ölkəsinə mühacirət etmək imkanlarım olub, hətta indi də var.

Mən qürbəti sevmirəm,çünki məcbur olub getdiyim xaraba Moskva mənim anamı əlimdən aldı.

Indi də qürbət dostlarımı bir-bir əlimdən alır.

Arif bəy haqqında keçmiş zamanda danışa bilmirəm. Naxçıvanda vağzalın yanındakı beş mərtəbələrin birində qalırdılar. Oğlanları Oğuz və Atay hər gün səhər balkonla-

rında durub mənim işə getməyimi gözləyirdilər. Mən də maşını saxlayıb onları "Boz qurd" işarəsiylə salamlayırdım.

Bəyim bacı da hərdən gileylənirdi ki, "Ay Səyavuş qardaş, sən işə gec getsən, bunlar acından öləcək. Sənə "Boz Qurd" salamı vermədən yemək yemirlər."

Elə bil dünən idi hamısı. 1992-ci ildə mənim toyumun vaxtını da Arif bəy Andranikin qulağının kəsildiyi günə – 24 aprelə təyin eləmişdi. Dedi, qoy görsünlər ki, biz həmin gün oynayırıq.

Arxadaşlar!

Bu gün yas günü olan abimiz Arif Rəhimoğlu 1989-cu ildə Naxçıvana dönüşümdə ilk tanış olduğum dostlardan birincisidir.

Lenin adına Mərkəzi Kitabxanada milli mövzuda mühazirə oxuyurdu. Biz də tələbələrin gizli təşkilatından dostlarım olan Arzu, Elçin, Kəramət və Hilalla ora, onu dinləməyə getmişdik.

Sonra görüşüb böyük bağda çay içdik və o gündən ailəvi dostluğumuz başladı.

Həmişə ən şiddətli döyüş gedəndə belə Naxçıvan Xalq Cəbhəsinin sədri olsa da yanımızda olardı.

Həyatımda çox mühüm dönüş yaradan bir hadisəni yazmaq istəyirəm.

1992-ci il idi. Bir gün dağda döyüşdə olanda, mənə dedilər ki, 1990-cı ildə şəhid olan bir igidimizin xanımını kimsə qaçırdıb (Adını çəkmirəm, Naxçıvan camaatı bu məsələni yaxşı xatırlayır).



***Şəkillərdə gördüyünüz səhnə mən Sədərək döyüşlərində komandir olduğum vaxtlardır (Fransadan gəlmiş Qırmızı Xaç cəmiyyətinin üzvləri ilə Mil təpəsində şəhid olmuş 18 igid döyüşçümüzün cənazəsinin götürülməsi barədə Arif bəyin iştirakı ilə müzakirə edirik). Arif bəy həmişəki kimi yanımızdadır.***

Bu məsələ məni dəli edəcək dərəcədə narahat elədi. Hər kəs bilir ki, şəhid məsələsi mənim ən ağrılı yerimdir. 123 nəfər Naxçıvan şəhidlərinin çoxu qucağımda və qollarımın üstündə şəhadətə ucalıb.

Heç kimə bildirmədən şəhərə qayıtdım. Məsələnin nə yerdə olduğunu öyrəndim. Oğlan Naxçıvandan deyilmiş və gəlinlə birlikdə təyyarəylə Bakıya uçublarmış.

Mən bunu ən böyük günah hesab etdiyim üçün oğlana və ola bilsin ki, hər ikisinə də "nəsə etmək" qərarı verdim və Bakıya uçmaq hazırlığı görmək üçün evə getdim. Dostlardan kimsə nə etmək istədiyimi Arif bəyə xəbər veribmiş. Yolda ratsiyayla dedilər ki, Arif bəy səni axtarır. Cavab verəcək halda deyildim. Beynimdə ancaq edəcəyim hərəkət barədə fikirləşirdim. Evə çatan kimi dedilər ki, Arif bəy neçə dəfə zəng vurub səni soruşub. Evdəkilərə də təcili Bakıya gedəcəyimdən başqa heç bir şey demədim. Çox keçmədi ki, arxamca rəhmətlik Ibrahim Ibrahimli gəldi. Mənə nəsə başa salmaq, yolumdan döndərmək istəyirdi. Mən isə heç nə eşidəcək vəziyyətdə deyildim. Hava limanına yollandım. Naxçıvan çayının köhnə körpüsünə çatanda Əbilinin UAZ-ının yanında  Arif bəyin dayandığını və mənə əl elədiyini gördüm. Maşını saxladım. Heç nə demədən yanımda oturdu.

Təkcə "sür gedək bizə"- dedi. Ağzımı açmaq istəyəndə: "Hər şeyi bilirəm, gedək evə, Bəyim bacın sənə yol tədarükü hazırlayıb. Onları da götürüb axşam uçarsan Bakıya. Onsuz da indi təyyarə yoxdu"- dedi.

Səssiz-səmirsiz bütün yolu bir kəlmə də danışmadan vağzala, "beş mərtəbə" adlanan binadakı evlərinə gəldik.

Demə, cəbhənin az qala bütün idarə heyəti onlarda yığışaraq bu məsələyə görə məni gözləyirmişlər. Indi yadımda  qalan Asif Kələntərli, Ibrahim Ibrahimi, Əli Şamilov, Kazım Teymurlu, Oktay Baxşəliyevdən başqa kimlərsə yenə var idi.

Çox söhbətlər oldu. Mənim qərarımın üstündə qəti durduğumu görən Arif bəy servantın üstündən göy parçaya bükülmüş, o vaxt çox nadir tapıntı olan Türkcə Quran kitabını gətirdi.

Indi tam hansı surə və hansı ayə olduğunu xatırlamasam da ağlımda qalan odur ki, Quranda yazılmışdı:

- Şəhidlərin dul qalmış arvadları ilə evlənin!

Arif bəyin oxuduğu bu cümlədən sonra elə bil yuxudan ayıldım və niyyətimdən əl çəkdim.

Arif bəy mühacirətə, özünün 4 övladı və dünyasını dəyişmiş qaynı və bizim dostumuz rəhmətlik Nailin iki körpə uşağıyla birlikdə getdi.

Deyirdi: "O qədər çətinlik çəkdik ki… Həmişə Tanrıya (hər vaxt Allah yox, Tanrı deyərdi) yalvarırdım ki, nə olur olsun, bizə olsun, atasız-anasız bu iki uşağa bir şey olmasın".

Nə bilim vallah. Hamımız öləcəyik.

Mənim üçün ölüm nə hərəkatda, nə müharibələrdəki döyüşdə, nə 40 dərəcə şaxtada Arazı üzüb keçəndə, nə də 8 illik həbsxana həyatımda elə də əhəmiyyət kəsb eləməyib.

Həmişə öləcəyimizi normal hal kimi qəbul eləmişəm. Amma necə ölməliyik? Bax, bu mənim üçün həmişə önəmli olub!

Allah bizə layiqli ölüm qismət eləsin!

**3 Nisan 2022-ci il**

## AYDIN KƏRİMOV



Yaş günün mübarək Aydın Məmməd oğlu Kərimov!

Doğrusu Aydın abiylə harda, necə və nə vaxt tanış olduğumu dəqiq bilmirəm, amma onu bilirəm ki, Naxçıvanda hər hansı bir narahat məsələ olan kimi, Böyük bəy onu Naxçıvana göndərirdi. Aydın bəy Naxçıvana gəlir Xalq Cəbhəsinin həyatində Əli Şamilin təşkil elədiyi lektoriyada söhbətlər edir, Rus hərbiçiləriylə görüşə gedir, Heydər Əliyevlə saatlarla nəyisə müzakirə edir sonra da qayıdıb gedirdi.

Aydın bəyi biz cəbhəçilərə sevdirən isə onun səmimiliyi idi. Biz əlayət adamları hələ Sovet vaxtından görmüşdük ki, Bakıdan gələn "böyük adamlar" ya rusca danışır, ya da ibarəli və anlaşılmaz terminlərlə dolu cümlələr qurmaqla yerlərdəkilərə yuxarıdan aşağı baxırdı.

Aydın bəy tam başqa birisiydi. Bakıdan gəlməyinə baxmayaraq cəbhəçilərlə birlikdə yetim Qəhrəmanın çayçısında vermeşil supuyla günorta naharını eləyir, lektoriya zamanı hər kəsin verdiyi suala elmi cavab versə də hüququn nitqdə ağır ifadə edilən terminləri ilə deyil sadə və anlaşıqlı el dilində başa salırdı.

Aydın bəy hələ Milli Azadlıq Hərakatın ilk günlərindən milli mücadilənin öncüllərindən olsa da heç vaxt bəziləri kimi özünü gözə soxmağı xoşlamaz, üzərinə düşən vəzifəni canla başla, amma səssiz səmirsiz yerinə yetirərdi.

1991-ci ilin avqustunda Milli Azadlıq Hərəkatımızın lideri Əbülfəz Elçibəy və AXC Naxçıvan Vilatət Təşkilatı İdarə Heyətinin üzvü Arif Rəhimoğlu ilə birlikdə gizli şəraitdə dostumuz Baskal Həsənin İsmailli rayonunun Basqal kəndindəki evində AXC-nin proqramını yazmışdılar. Amma heç vaxt bu barədə danışmaz, soruşanda isə: "Deyəsən elə bir şey olub" cavabıyla mövzunun üstündən gülərək keçərdi.

Halbuki, proqramın müzakirəsi vaxtı bir cümləni deyil, bir sözün dəyişilməsinə nail olan bəziləri az qala o sözü yarlıq eləyib boyunlarından asırdılar ki, bu sözü mən dəyişdirmişəm.

O, həmişə belə sadə, təvazökar, xeyirxah və səmimi olmuşdu. Həm də sanki Aydın bəyin boynunda tapşırılmamış bir missiya mövcuddur. Aydın bəy həmişə və bütün məsələlərdə istər qatı radikal qüvvələr, istərsə də liberal qüvvələr arasındakı bütün mübahisələrdə ortaq məxrəcin tapılmasına nail olur.

İstər yaradıcılarından olduğu Əlincə Xeyriyyə Cəmiyyətində, istər Mərkəzi Seçki Komisiyasında, istərsə də AXC Ali Məclisinin və Ədliyyə Nazirinin birinci müavini olduğu vaxtlar heç vaxt dəyişmədi, həmişə öz ləyaqəti və şərəfi ilə çoxlarına nümunə oldu.

Demokratik hakimiyyət yıxıldıqdan sonra Aydın məllim yüksək ixtisaslı Hüquqşünas olmasının bir daha sübutu olaraq həbs olunan cəbhəçilərə vəkillik elədi.

Ən yüksək vəkillik məqamı kimi isə Liderimiz Əbülfəz Elcibəyə Kələkidən qayıtdıqdan sonra mövcud hökümətin qaldırdığı cinayət işində ona vəkillik elədi və Triumfal qələbəylə qalib gələrək hakim və prokurorların onun hüquq bilik və bacarıqları qarşısında hələ " çox kasıb" olduqlarını sübut etdi.

Aydın abi Naxçıvan Dövlət Pedaqoji İnstitutunu bitirdikdən sonra Samara şəhərində hüquq fakültəsini bitirmişdir.



***Şəkildə soldan Aydın Kərimov, Səyavuş Mustafa və Ələsgər Siyablı***

***1 Haziran 2024-cü il***

## ÇƏRKƏZ CƏFƏROV



Arxadaşlar!

Bu gün şəklini paylaşdığım cərrah, Professor Çərkəz Cəfərovun yaş günü deyil, amma dünən Arif bəy Rəhimoğlunun anım mərasimində elə bir hadisə baş verdi ki, bu statusu yazmaya bilməzdim.

Hadisə isə bundan ibarətdir: Yas mərasimində bir xanım xəbər göndərdi ki, Səyavuşa deyin mənə də Arif bəyin kitabından versin. Mən kitabı götürüb xanıma yaxınlaşdım və təqdim elədim. Əsil məsələ də bundan sonra baş verdi.

Yəni mənim həyatımda utanıb xəcalət çəkdiyim barmaqla sayılacaq anlarımdan biri baş verdi. Xanım ərkyanalıqla "Səyavuş məni tanımadın?"-dedi.

Mən ha fikirləşsəm də qarşımda duran bəstə boy, gülərüzlü, əsil türk qadınına məxsus ləyaqətli qadının kim olduğunu xatırlaya bilmədim.Sonra isə çox tanış olan bir səslə dediyi "Ay saqqalı ağarmış, Jaləyəm dəə! Nə tez unutdun Jalə bacını"-sözləri məni alıb otuz il əvvələ apardı.

1992-ci ilin may ayı... Sədərəkdə Mil təpəsi uğrunda şiddətli döyüşlər gedir. Düşmən nəyin bahasına olur olsun qəsəbəyə girməyə çalışır. Biz də var qüvvəmizlə əlimizdə olan cüzi silahla müqavimət göstəririk.

OMON-un, Polisin, Dövlət Müdafiə Komitəsinin və könüllülərin bütün qüvvələri səfərbər olunmağına baxmayaraq bizdən dəfələrlə güclü silahlanmış düşmənlə döyüşürük.İtkilərimiz,yaralılarımız, "kantuziya" alanlarımız da var. 18 şəhidimizin nəşi "neytral zonada" qalıb. Onları da hələ ki, orada çıxara bilmirdik.

Gecə saat 3-də növbəti ağır yaralımızı Koroğlu bulağından aşağı endiririk. Adətən yüngül yaralılar Naxçıvandakı xəstəxanalarda müalicə edilir,ağır yaralıları isə (Rafiq Zülfüqarov, rəhmətlik Əbdül Məmmədov və b.) Bakıya və Ərzuruma(İbrahim Salahov,Hatəm Nəbioğlu) göndəririk.

Belə gərgin bir şəraitdə mən ATS-dəki qızlara zəng edib qışqırıram (üzlərini belə görmədiyim o, xanımlara ömrüm boyu minnətdaram).

-Tez Çərkəz həkimin evini birləşdirin! (o qədər zəng etmişdim ki, komutator qızlar da Çərkəz həkimin Bakıdakı evinin nömrəsini əzbər bilirdilər).

Telefonun o başında da birinci zəngdən sonra Jalə xanımın səsi gəldi:

- Alo, Səyavuş nə olub?

- Jalə bacı nə bildiniz ki, mənəm?

-Ay saqqalı ağarmış, gecə saat üçdə səndən başqa kimdi bizə zəng vuran?

Çərkəz həkimin

- "Kimdi?"- sualına Jalə xanım:

- Səyavuşdu,yenə dağdan, döyüşdən zəng vurub, yəqin ağır yaralıları var.



***Çərkəz həkimin mübariz xanımı İalə Cəfərova***

Həkimin:

-Denən səhər tezdən, birinci reyslə gələcəm!- sözləri o, odun-alovun içində elə bil bütün yaralarımıza məlhəm olardı.

Həqiqətən də doktor öz cibinin pulu ilə birinci reysə bilet alıb düz Sədərəyə kimi gəlirdi.

Lazımi yardımlar edir,bəzən yaralını özüylə Bakıya götürür və hətta qərərgah elədiyimiz məktəbin partaları üzərində ilkin yardım əməliyyatı da keçirirdi.

Çərkəz həkimin bu vətənpərvərlik nümunələrini hakimiyyət qiymətləndirməsə də biz köhnə döyüşçülər hər zaman hörmətlə anırıq!

İndi isə,döyüşdüyümüz anları ailəsi ilə birlikdə bizimlə birgə yaşayan, şəhidlərimizə bizdən çox ağlayan, yaralılarımıza şəfa vermək üçün əlindən gələni və gəlməyəni

belə edən və bu dəqiqə qarşımda məğrur-məğrur duran Jalə xanımı mən tanımadığıma görə "yer yarılsaydı yerə girərdim". Amma bir məsələ də var ki, dəfələrlə dostlarım bu xasiyyətimə görə mənə öz iradlarını bildirirlər. Ən maraqlısı isə dostum və komandirim Oktay bəylə cənubda olduğumuz vaxt baş vermişdi.

İranda evində qonaq olduğumuz əmioğlum mənə xitab olaraq:

-Əmioğlu, əmi gəlinin səndən inciyib-demişdi.

Mən:

-Niyə?-deyə soruşanda.

-Fələkədə(küçədə) raslaşanda sənə salam verib, sənsə salamını almamısan-dedi.

-Rəhmətliyin oğlu, mən heç əmi gəlinimin sifətini evdə olanda baxıb tanımışam ki, hələ eşikdə olanda çadradan da görüb tanıyam?-dedim.

İndi də, dəfələrlə onların evlərində və kəndimizdəki bizim evlərimizdə ailəlikcə bir yerdə olmağımıza rəğmən əziz ablam Jalə xanımı tanımamağımın əsas səbəbi bu olsun gərək.

Əzizim Jalə ablam,Allah səni və Çərkəz abimi bir-birinizə, biz dostlara və millətimizə çox görməsin. İnşaallah!

Məni bağışla abla!

***3 Nisan 2023-cü il***

## DAŞQIN AĞALAROV



Arxadaşlar!

1988-ci ilin noyabr mitinqləri 4-5 gün olardı ki, başlamışdı. Artıq Sabir Rüstəmxanlı və Nemət mitinqi aparırdılar. Meydanda Sovet Azərbaycan bayraqları üstünlük təşkil etsə də qara, yaşıl və müxtəlif rəngli bayraqlar da var idi (onu da deyim ki, biz meydan hərakatını başlayanda rəhbərliyi Ənvər müəllim edirdi, Azərbaycan Sovet bayrağını isə universitetin tələbəsi Tovuzlu Sakit götürmüşdü. Sonralar onu heç görmədim. Eşitdiyimə görə universitetdən qovdular).

Sabir bəy məni yanına çağırıb dedi ki, "uşaqları göndər 1918-ci ildə qurulmuş Azərbaycan Demokratik Cümhuriyyətinin və Sovet Azərbaycanının bayrağından başqa bütün bayraqları yığışdırsınlar" (mən o vaxt 22 yaşında tələbə olsam da idmançılardan ibarət meydanı mühafizə komitəsinin rəhbəri idim). Uşaqları meydanın bir tərəfinə göndərdim, özüm isə başqa tərəfinə gedərək milyonluq izdihamın içərisinə girərək bayraqları yığışdırmağa başladım. Bu həmin vaxtlar idi ki, Moskvadan mərkəzi televiziya dini bayraqları göstərərək guya bizim Irana birləşmək istədiyimizi təbliğ edirdi.

Həmin vaxt izdihamın içində o vaxt çox adamın tanımadığı, uzun saplı Azərbaycan Demokratik Cümhuriyyətinin üç rəngli bayrağını gəzdirən bir oğlanın, ciddi cəhdlə bu bayraq haqqında ətrafdakılara izahat verərək təbliğ etdiyini gördüm.

Bu adam Neft Kimya Inistutunun tələbəsi Daşqın Ağalarov idi!

İndi üstündən çox illər keçib deyə hər kəs özü haqqında əfsanələr uydurur. Amma mən və dostlarım Azərbaycan Demokratik Cümhuriyyətinin üç rəngli bayrağını meydana ilk gətirən adamın Daşqın abi olduğunun canlı şahidiyik!

***5 Temmuz 2021-ci il***

## ELÇİN ABBASOV



Arxadaşlar!

Bu gün Elçin Abbasovun yaş günüdür.Yaş günün mübarək abi!

1980-ci illərin sonlarında Azərbaycanda Milli Azadlıq Hərəkatı vüsət aldığı bir zamanda biz də Bakıda Şimali Azərbaycan Azad Tələbə Ittifaqı adlı gizli təşkilat yaratmışdıq. Məni Naxçıvanı yaxşı tanıyan biri kimi oradakı tələbələrlə əlaqələr qurmağa, necə deyərlər təşkilatımızın şöbəsini yaratmağa göndərdilər.

Mən orada milli düşüncəli, vətənsevər, demokratik fikirli, mübariz ruhlu gəncləri bir yerə toplamalı idim. Maraqlısı o oldu ki, Naxçıvanda məni qarşılayan 4 nəfərdən ikisi tanışım çıxdı. Biri qonşu kəndimiz Qaraçuqdan olan "Sarı Elçin", digəri isə əsgər yoldaşım Uzunoba kəndindən Arzu bəy idi.

Elçin Naxçıvan Politexnik Texnikomunun tələbəsi və milliyyətçi gənclərin texnikom üzrə lideri idi. Marağımı çəkən o oldu ki, necə olub Qaraçuqlu hökumət əleyhinə olan təşkilatın fəalına çevrilib? Mənim doğulub boya-başa çatdığım Qaraxanbəyli kəndi ilə Elçingilin Qaraçuq kəndi az qala bir-birinə bitişməkdəydi. Həmişə bir kənd sovetliyinin, eyni kolxozun tərkibində olan bu kəndlərin adamları xasiyətcə bir-birindən tamamilə fərqli idilər. Bu fərqli-

lik onların yaşayış, məişət və psixoloji xüsusiyyətlərində aydın görünürdü.

Bizimkilər adətən kənd təsərrüfatı işlərinə  biganə olduqlarndan əsasən yaxınlıqdakı dəmiryolunda və kəndimizin bitişik olduğu Naxçıvan şəhərindəki istehsalat müəssisələrində işləyirdilər. Qaraçuqlular isə torpağa bağlı, kənd təsərrüfatı ilə məşğul olan el dili ilə desək "torpaqdan pul çıxardan" adamlar idilər.

Onlar bineyi qədimdən, bu yerlərdə yaşamış, əkin-biçinlə məşğul olmuş, idarəcilərin tapşırıqlarını yerinə yetirmişlər. Araşdırıcılara görə Dədə Qorqud dastanında adı keçən Qaraca Çobanın  adı bəzi boylarda Qaraçuq Çoban kimi verilir. Qaraçuq toponiminin yaranmasını da Qaraçuq Çoban adı ilə əlaqələndirirlər. Əvvəlki kənd Araz çayının kənarında olduğu üçün ArazQes dediyimiz Araz Su Elektrik Stansiyası tikilən vaxt suyun altında qalmış, əvəzində isə bizim kəndə bitişik torpaqlarda yeni kənd tikilmişdi.

Bizimkilər isə Qaraxanbəyliyə 1918-ci ildə yığışmışlar. Öncələr burada yaşamış türklər Rus-Səfəvi savaşlarında iştirak etdikləri üçün Səfəvi ordusunun məğlubiyyətindən sonra, ordu ilə birlikdə ölkənin cənubuna çəkilmişlər. 1828-ci il Türkmənçay müqaviləsindən sonra Irandan Qafqaza köçürülən ermənilərin bir qismi boş qalmış Qaraxanbəyli kəndində yerləşdirilir. Onlar müsəlmanların yer-yurdunda özlərinə gün-güzəran qurandan sonra Rus məmurlarına arxalanıb başlayırlar qonşu müsəlmanları dimdikləməyə. 1918-ci ildə isə onlar daşnaklarin təsiri ilə bölgədəki

müsəlmanları məhv edib Naxçıvanı yenicə qurulan Ararat Respublikasının tərkibinə qatmaq istəyirdilər. Tayqulaq Andranikin silahlı hərbi birləşməsi Osmanlıdan gətirdiyi qağtağanlarla (qaçqın) Naxçıvana gələndə yerli ermənilər də onlara qoşuldular, onillərlə birgə yaşadıqları, yardım aldıqları müsəlmanlara düşmən kəsildilər. Onların mal-mülkünü əllərindən almağa, özlərini öldürməyə, arvad-uşaqlarına təcavüz etməyə başladılar.

Qəhrəman Osmanlı sərkərdəsi Kazım Qara Bəkir paşanın şücaətli döyüşçülərinin Naxçıvana gəldiyi xəbərini eşidən tayqulaq Andranik dəstəsi ilə qaçmağa başladı. Onlara dəstək verən Qaraxanbəyli və başqa kəndlərdəki ermənilər də ev-eşiklərini qoyub qaçdılar. Irəvən xanlığında yüz illər boyu yaşayan müsəlmanlar erməni zülmündən qaçıb canını və ailəsini qurtararaq Naxçıvana sığındılar. Onları boş qalmış kəndlərdə yerləşdirdilər. Qaraxanbəyli kəndinə də Qəmərli (Çiləxanlı), Vedi, Çobankərə, Dərələyiz və s.bölgələrdən qaçmış müsəlmanlar yerləşdirildi. Həmin qanlı-qadalı günlərdən 100 ildən çox keçsə də bəzi qaraçuqlular hələ də bizimkilərə "məhacir" deyirlər.

Nə isə deyəsən çox uzatdım.

Sözümün canı odur ki, bizim kənddən Naxçıvanın erməni quldurlarından qorunması üçün 30-35 gənc gedəndə, gənclərimizin əksəriyyəti xalq cəbhəsinə üzv olanda, Elçingilin kəndindən bir-iki nəfər bizə qoşulardı. Onları da kənddə Elçin kimi "gözümçıxdıya" salardılar. Çünki, bu gənclər öz ürəklərinin səsi ilə vətəni, milləti qorumağa gedirdilər. Qaraçuqlulara görə hökumətdən əmr və göstə-

riş gəlməsə bir addım atmaq lazım deyildi. 44 günlük savaşda isə Qaraçuqdan milli ordunun tərkibində vuruşan iki qəhrəman əsgərimiz şəhid oldu. Allah cəmi şəhidlərimizə rəhmət eləsin.

Elçin də Xalq Cəbhəsinə qoşulduğuna görə dəfələrlə təhdidlərə məruz qalsa da yolundan dönmədi. Elçin tələbə yoldaşları ilə birlikdə xalq cəbhəsinin tədbirlərini təşkil edir, “Güney” qəzetində müxbir işləyir, gənclər arasında millətçilik şüurunun artması ilə əlaqədar iş aparırdı. O, cəbhəçilər arasında çox fəal və enerjili bir gənc kimi tanınırdı.

Yadımdan çıxmış bir hadisəni ötən il yaş günümdə WhatsApp qrupumuzda səsli paylaşdı. Deyirdi ki, AXC hakimiyyətə gələndən sonra Xalq Cəbhəsinin Naxçıvan Vilayət təşkilatının həyətində oturmuşduq. Çox vaxtkı kimi həm ac idik, həm də yemək almağa pulumuz yox idi. Naxçıvan MR Daxili Işlər Nazirliyinin binası da cəhbənin qərərgahına yaxın idi.

Dostlarıma dedim ki, gəlin gedək Səyavuş bəyin yanına, nazir müavindir. Yəqin ki,bizi yedirtməyə imkanı olar. Getdik nazirliyə (onda nazirliklər, idarə və təşkilatlar indiki kimi xalqın üzünə bağlı deyildi. Istədiyin vaxt nazirin də, hər hansı bir rəhbər işçinin də qəbuluna düşmək olurdu) və Səyavuş bəy bizi kabinetinə dəvət etdi. Katibəsi bizə çay da gətirdi.

Dedim ki, "Bəy biz çay içmirik. Ona görə ki, acıq. Bizə nazirliyin yeməkxanasında yemək al, yeyək”. Cavabında Səyavuş bəy dedi ki, orada hərənizə (biz 3- 4 nəfər idik) bir pors yemək alacaq qədər  pulum yoxdu. Mən əl çək-

mədim dedim: "Gedək bizə nisyə yemək al,  maaş alanda pulunu ödəyərsən".

Dedi: "Yox ayıb olar. Oradakılar da bilər ki, mənim 3-4 nəfərə yemək almağa pulum yoxdur. Sonra arxamdan gülər, məni ələ salarlar. Yaxşısı budur durun gedək kəndə (kəndimizlə nazirliyin arası 3-4 kilometir idi). Evimizdə heç kim yoxdu. Hamı gedib çölə, təmbəki (tütün) yığmağa. Baxaq, görək evdə nə tapsaq yeyərik".

Biz də tənbəllik eləməyib Səyavuş bəyin xidməti maşınına mindik. Hətta çox olduğumuz üçün yerləşmədiyimizdən Səyavuş bəy sürücüsü Hüseyinə dedi ki, sən düş avtobusla gəl, maşını özüm sürəcəm.

Nə isə... Gəldik Qaraxanbəyliyə, Səyavuş bəygilin ata evinə. (Səyavuş bəyə verilmiş xidməti evində qaçqınlar qaldığından , bəy ailəsi, ata anası və qardaşları ilə birlikdə ata evində yaşayırdı)

Hərəmiz bir tərəfdən həyətə daraşdıq. Birimiz qırmızı badımcan (pomidor), birimiz xiyar, birimiz bibar və perpencər (Naxçıvanda bütün göyərtilərə pencər deyirlər) yığdıq. Mən də damdan quru lavaş gətirib suladım ki, indi yəqin kababdan zaddan yeyəcəyik.

Səyavuş bəy soyuducuya baxıb dedi: "Axşam yemək bişirmişdilər, amma yoxdu, yəqin çölə aparıblar. Qoy gedim hinə baxım görüm yumurta olsa bişirək yeyək".

Furajkasını çıxardıb toyuq hininə girdi və sevinərək "bəxtiniz gətirib 5 dənə yumurta var" deyərək gəldi və dedi: "Yumurtanı "qlazok" bişirək ki, çörəyimizi yağa batıraq yeyək". Mən dedim ki, çox acam və qonağam, buna

görə yumurtanın ikisini mən yeyəcəm, hərəniz də birini yeyərsiniz.”

Səyavuş etiraz edərək dedi ki,"Elə şey yoxdu, birinci ona görə ki, mən 105 kiloyam, siz isə hərəniz 45 kilo ancaq olarsız. Ikinci, axşam sərhəd kəndlərini yoxlamağa gedəcəm. Oralara gedəndə isə rəislər məni yeməyə dəvət edirlər. Mən isə heç vaxt onlarla yeməyə getmirəm. O üzdən indi yediyim mənim həm “obedim”,həm də “ujunum” olacaq. Ona görə də yumurtanın ikisini mən yeyəcəm, siz isə hərəniz birini yeyərsiniz"

Hamımız gülərək razılaşdıq və deyə gülə 5 yumurtanı 4 nəfərə ədalətsiz bölgüylə yemək məcburiyyətində qaldıq."

Həə... Bizim Elçin abi belə Elçindi. 3 yumurtanı yeməklərinə baxmayaraq hələ üstəlik məni öz çıxışlarında, biabır da eliyir.

Elçini əsgərliyə yola salmağımız yadımdadı. Əsgərliyə gedəndən az sonra Sovet hökuməti dağıldı və yarımçıq gəlib qalan xidmətini Naxçıvanda davam etdirdi.

Toyuna isə nədənsə yubanmışdım. AXC Naxçıvan Vilayət Təşkilatının əlaqələndiricisi Asif Kələntərli mənə "niyə yubanmısan, cəzalanmalısan" dedi. Cəza ondan ibarət idi ki, ya araq içməliydim, ya oxumalıydım ya da oynamalıydım. Mən də işdə mühüm nəsə olduğunu bildirdim və Elçini tərəzinin bir gözünə, o vacib olan işi də digər gözünə qoyduğumu və o işin ağır gəldiyinə görə işi görüb sonra gəldiyimi deyərək böyük həvəslə Naxçıvanın qora bişirən istisində və kənd həyətində qurulmuş çadırda tər dabanımdan axa-axa doyunca oynadım. Mən tutulandan sonra

Elçin Bakıya köçmüşdü. Aeroport bazarında ayaqqabı ticarəti ilə məşğul idi. Bir gün Binəyə-həbsxanaya yanıma gəldi ki, " Polislər kəntddəki evimizə gedib məni axtarıblar."

Həmin vaxt Naxçıvanda cəbhəçi "ovu" başlamışdı. Dedim: "Ölkədən çıxmalısan. Hara gedə bilərsən?" Dedi: Bir qohumumuz var, Almatıda yaşayır, onun yanına gedə bilərəm". Dedim: "Onda durma, tez aradan çıx". Elə o gedən də getdi.

İndi Almatıda yaşayır. Mən də ötən illərdə onlara qonaq getmişəm. Bir gün Almatıda Elçinlə dostluq edən Qazax millətçilərindən biri mənə dedi: "Siz Azərbaycanlılar Türk deyilsiz?" Dedim: Biz Türkük." O da cavabında: "Əsil türklər at əti yeyir, bəs siz niyə at əti yemirsiniz?" - sualını verdi. Mən də ondan xəbər aldım: "Dava vaxtı at türkün nəyidir?" qazaxlar bir ağızdan dedilər: "Ən yaxın dostu, yoldaşı!" Onda mən də onlara sual verdim: "Adam da, dostunu, yoldaşını yeyərmi?"

Hamısı qəh-qəhə çəkib güldü və dedilər ki, hələ belə cavab verən olmamışdı. "Əsil türk elə sizsiniz!"

Elçin Almatıda mənə kımız (at südü) içirtdi, kazı (at ətindən hazırlanmış kolbasa) yedirtdi. Oldum qazax, qırğız türkü!

Elçinin oğlu Vasif bizdən də irəli gedərək əsil türk döyüşçüsü olub. MMA (qaydasız döyüş) yarışlarında yüksək nəticələr göstərir. Elə bu gün bu yazını yazdığım vaxt Vasifin Dubayda MMA üzrə döyüşdə qalib gələrək atasına ən böyük yaş günü hədiyyəsi etdiyi xəbəri gəldi.

Almatıda baş-başa oturub söhbət edəndə Elçindən soruşdum ki;

- Abi nəyin çatmır?

Gözləri dolaraq, içindən gələn həsrət duyğulu yanıqlı bir səslə:

-Abi,Vətənim! dedi.

Elçin abi sənin yaş gününü təbrik edirəm və səbirsizliklə vətəndə gözləyirəm!

Ləyaqətli vətən oğlu!

***1 Haziran 2024-cü il***

## ƏLİ ŞAMİL



Arxadaşlar!

Əli Şamil abimizin yaş günüdür. Adətən dostların şad günündə nəsə yazmaq istəyəndə mən heç düşünmədən səhifəni açır və birinci yadıma düşən xatirəni (Maşallah xatirələr o qədərdir ki) cızmaqara edirəm.

Əli Şamil haqqında isə iki gündür düşünürəm ki, nə yazım? Hardan yazım? Hardan başlayım, harda bitirim? Çünki o mənim həyatında özəl olaraq yer tutanlardandır. Doğrusu nə vaxt, harada və necə tanış olduğum yadıma gəlmir.

Yadımda qalan odur ki, 1989-cu ildə Xalq Cəbhəsi rəhbərliyinin tapşırığı ilə Naxçıvana getmişdim.Orda Arif, Asif, Asəf, Ibrahim, Oktay, Əli və digər bəylərlə görüşdük. Bir də gördüm ki, Əli müəllimgildə çay süfrəsindəyik.

Ona görə müəllim deyirəm ki, "bəy" sözü "brend" olanda da biz ona müəllim deyirdik, elə indi də müəllim deyirik.

Köhnə hərəkatçılar əsasən iki şeyi bir-birindən soruşmazdılar. Haralı olduğunu və neçə yaşı olduğunu. Belə hesab edirdik ki, biz hamımız bir yerli və bir yaşdayıq. Ona görə də, heç indi də bilmirəm Əli abinin neçə yaşı tamam olur. Məncə heç bunun fərqi də yoxdur. Əli müəllim bizim üçün hər yaşda, Əli müəllimdi!

1970-ci illərdən liderimiz, rəhmətlik Əbülfəz Elçibəylə yola çıxanlardan çoxu (ya zəlzələdən ya vəlvələdən) yolda qalsa da, Əli müəllim bu gün də elə həmin Əli müəllimdi.

Bir gün Sədərəkdən, döyüşdən gəlmişdim. Cəbhənin çay-çısında oturmuşdum. Əli müəllim mənə yaxınlaşdı ki:"Səyyavuş (40 ildi məni iki "y" səsi ilə çağırır) gedək mərkəzi poçta". Getdik. Ordan bir bağlama alıb mənə verərək dedi: "Açma, evdə açarsan".

Məndə o səbr haradaydı. Əli müəllimdən ayrılan kimi bağlamanı açdım. O vaxtın ən məhşur "Çeşmə" qəzeti idi. Qəzetdə mənim və Heydər Əliyevin haqqında sonralar çox məşhurlaşan lətifə yazılmışdı.

Lətifə təxminən belə idi:

Günlərin bir günü Səyavuş Mustafayev Araz qırağı ilə gedirmiş, birdən səs eşidir. Dönüb səsə tərəf baxır. Görür kimsə suda boğulur. Özünü çaya atıb boğulanı xilas edir. Görür ki, boğulan Heydər Əliyev imiş. Heydər Əliyev deyir: "Səyavuş, bala, sən məni ölümdən xilas elədin. De görüm mən sənə nə yaxşılıq edim?"

Səyavuş Mustafayev cavabında deyir: "Mənə heç nə lazım deyil. Yeganə xahişim odur ki, sizi xilas elədiyimi heç kimə deməyin, xüsusilə də cəbhəçilərə."

Hər zaman, ən çətin gündə, ən çıxılmaz vəziyyətdə, ən ümidsiz anda belə Əli müəllim yanımızda olurdu. Sakit, hiss edilmədən, diqqəti cəlb etmədən öz işini öz bildiyi kimi görürdü. Haqqımızı öz bildiyi kimi müdafiə edirdi. Topladığı bilgiləri hansı yollarlasa beynəlxalq insan haqları təşkilatlarına, mətbuata çatdırırdı. Məhkəməmiz olur-

du. Məhkəmədəki qanun pozuntusu, haqsızlıqlar haqqında axşam xarici radiolarda xəbər səslənirdi. Sonralar xəbər tuturduq ki, bizim məhkəməmiz haqqında xarici qəzetlərdə, jurnallarda yazını o verib.

Milli Azadlıq Hərəkatı ilə bağlı məlumatların ictimailəşməsi üçün əlindən gələni əsirgəmirdi. Yerli jurnalistləri xəbər mənbələrinə istiqamətləndirməyi bacarırdı. Onun ciddi işlərinə biz həmişə zarafatla cavab verirdik.

1994-cü ilin martında Bakıda, Ali Məhkəmənin binasında birinci məhkəməmiz gedirdi. Zalda çox gərgin bir atmosfer var idi. Bu vaxt qapı açıldı, Əli müəllim adəti üzrə sakitcə məhkəmə zalına daxil oldu. Onu görən kimi mən hakim Mənsur Ibayevə sataşmaq məqsədi ilə dedim: "Ay möhtərəm hakim, bax bu adamı görürsüz, bizi milli hərəkata qoşan da,Iranda 30 milyon həmvətənimizin hüquqlarının pozulduğunu bizə öyrədən də, ermənilərin, farsların və rusların düşmən olduğunu başa salan da odur. Onu tutun, bizim yerimizə onu həbsxanaya qatın, nə qədər istəyirsiz mühakimə edin. O, daha çox şey bilir. Bizi buraxın, gedək müharibəmizi eləyək, erməniləri qıraq qurtaraq, sonra sağ qalsaq gələrik nə qədər istəyirsiz iş verərsiz”.

Adətən Əli müəllim məhkəmələrdə son cərgədə oturardı. Amma bu dəfə adətinin əksinə olaraq gəlib ön sırada, hakimlə üzbəüz oturdu. Siyasi məsələlərdə bacarığı olan bu insan həyat məsələlərində çox sadəlövh idi. Onu asanlıqla heyrətləndirə və təəccübləndirə bilirdik.

Bir dəfə həbsxanaya məni görməyə gəlmişdilər. Ona dedim ki: "Abi çalışın məni Bayıla istintaq təcridxanasına dəyişdirin"- Əli məllim çox təəccübləndi. "Mən bunu bacarmaram"-deyib yazıq-yazıq üzümə baxdı. Mən ciddiləşərək: "Onda ya nazoru döyərəm, ya birini bıçaqlayaram, məni Bayıla apararlar"-dedim. O, az qala yalvarır, məni dilə tutur, fikrimdən daşındırmağa çalışırdı. "Səyyavuş belə etmə! Biz çalışırıq sizi buradan qurtaraq, sən də cəzanın daha da ağırlaşdırılmasını istəyirsən"-dedi. Gülərək ona dedim: "Bizim uşaqların məhkəməsi gedir. Onlara tapşır məhkəmədə desinlər ki, "bizə silahı Səyavuş Mustafayev verdi". Hakim silahı haradan aldığıma aydınlıq gətirmək, məni qanunsuz silah saxlamaqda mühakimə etmək üçün mütləq Bayıla apartdıracaq."

O, bilmirdi ki, mənim həbs cəzamın müddəti uzundur. Qanunsuz silah saxlamaq, kiməsə silah vermək onun içində əriyib gedəcək. Nə isə! Əli müəllim belə Əli abidi!

Mənim Bayıla getmək istəyim səbəbsiz deyildi. Zonlarda həbsxana rəhbərliyinin təhriki ilə "qara"dustaqların siyasi dustaqlara hücumları baş verirdi. OMON-dan olan dustaqlarla davalar olmuş, mənim "podelniklərim" Cavad və Fətullaya qarşı güc işlətməyə çalışmışdılar.

Lotu Bəxtiyara görüşmək istədiyim haqqında xəbər göndərmişdim. Cavab gəlmişdi ki, Bayıla gəlsin. Getməsəydim siyasi məhbuslarla cinayət aləmi məhbusları arasında böyük qalmaqal və dava-dalaş olacaqdı. Nə yolla olur olsun onun görüş təyin etdiyi yerə getməli idim.

Vəkil dostumuz Isaxan Aşurovun köməkliyi ilə 1995-ci il dekabrın 28-də Bayıl həbsxanasına göndərildim. Səhəri gün Lotu Bəxtiyar ümumi cinayət aləminin başçısı, mən də siyasi və paqon daşımış məhbusların başçısı kimi görüşdük. Onun ilk sözü bu oldu: "Neçə vaxtdır bu məsələni kimlə danışacağım haqda fikirləşirdim. Çox sağ ol ki, sən qabağa çıxdın." Söhbət zamanı Lotu Bəxtiyar dedi: -"Kimliyindən asılı olmayaraq adam girdi qazamata oldu dustaq. Ona çöldəki nüfuzuna, vəzifəsinə görə deyil, türmədəki "povedeniyasına" (davranışına) görə qiymət verilməlidir. O, "maloletkadakı" (azyaşlı) uşaqlara başa salın ki, türmə fəxr etməli yer deyil!"

Dustaqların həyatında 100 il bundan sonralar da qarşılaşa biləcəkləri çox məsələləri müzakirə etdik. Lotu Bəxtiyar bu qarşıdurmaya son nöqtəni qoydu.

Bununla da məsələ həll olundu.

...Əli Şamilin nə iş gördüyünü, haraya getdiyini cəbhədə tək-tük adam bilərdi. Cəbhə də geniş xalq hərəkatı olduğundan oraya gələnlər hər şeydən xəbərdar olmaq istəyirdilər. Əli müəllimin qapalılığı isə cəbhəçilərin çoxunu əsəbləşdirir, KQB ilə, Iranın ETTELLATI ilə, Türkiyənin MIT-i ilə, nə bilim kimin ağlına hansı təşkilat gəlirdisə onunla əməkdaşlıqda suçlayırdılar. Milli mənsubiyyəti haqqında uydurmalar yayırdılar. O, isə bu dedi-qodulara əhəmiyyət vermədən öz işini görürdü. Özünün və xanımının aldığı maaş ailəni zorla dolandırmağa çatırdı. Başqa bir yerdən də gəlirləri olmadığını hamımız bilirdik. Amma Qurban bayramında həbsdə olan cəbhəçilərə erkəyin

cəmdəyini bütöv gətirir, Ramazan ayında yağ, düyü, vermeşil, makaron, xəstələrə dərman və s. göndərirdi. "Onları haradan alırsan?"-sualı isə həmişəki kimi cavabsız qalırdı.

Mən həbsda olanda "Səyavuşa azadlıq" adlı gözəl bir plakat hazırlamışdılar. Onu Əli müəllim hansısa mətbəədə çap etdirəndə xəbər tutub mətbəəyə basqın etmişdilər. Plakatın nəşrini dayandırsalar da 150-200-nü aradan çıxara bilmişdi. Həmin plakat hətta həbsxanalara də gəlib çıxdı.

O, sakit görünsə də Milli Azadlıq Hərəkatında çox aktiv idi. Sərhəd hərəkatında da başda idi. Döyüş bölgələrinə sursat, ərzaq lazım olanda onu axtarırdıq, partiya-sovet rəhbərləri ilə, rus ordusu və sərhədçilərinin komandirləriylə danışmaq lazım gələndə də onu göndərirdik. Irana gedəcək nümayəndə heyətinin tərkibində kim olmalıdır? Əlbəttə Əli müəllim. Iranın rəhbər işçiləri ilə kim danışıb bizim problemlərimizi həll etməlidir? Əli müəllim. Türkiyədən gələn qonaqları kim yerləşdirməli, danışıqlar aparmalıdı, görüləcək işləri planlamalıdır? Əli müəllim.

Cəbhənin həyətində, Qəhrəmanın çayçısına toplaşmış cəbhəçilərin vaxtlarını boş söhbətlərlə keçirməsinin qarşısını kim almalıdır? Əli müəllim. Onun çayçıda yaratdığı "Lektoriya" sanki bir xalq universiteti idi. Orada kimlər çıxış etmədi? Elçibəy, Tofiq Qasımov, Etibar Məmmədov, Vaqif Səmədoğlu, Kamal Abdulla, Həmid Nitqi, Irandan, Türkiyədən, Ukraynadan, Pribaltikadan gəlmiş dövlət adamları, dissidentlər, jurnalistlər və b. siyasilər, elm adamları, yazıçılar, şairlər, sənətkarlar və kimlər, kimlər… Belə məşhur adamlarla bərabər əsgərlikdən yenicə dön-

müş Heydər Seyidov (sonralar o Heydər Oğuz kimi məşhurlaşdı) kimi gəncləri də danışdırırdı. Çayxanaya gələnlərin bəziləri bu söhbətlərin arxasında nələr durduğunu görmədiklərindən toplantıları pozmağa çalışırdılar. Ayıq, hadisələrin haraya getdiyini görən cəbhəçilər isə bu söhbətləri acgözlüklə dinləyir, çıxışçılara maraqlı suallar verirdilər. Bu söhbətlər döyüşçüləri stresdən çıxarmaq üçün gözəl bir psixoloji seans idi.

Əli muəllim böyüklə böyük, kiçiklə kiçik kimi davranan adamdı. Aramızda yaş fərqi çox olsa da həmişə duzlu, məzəli zarafatları ilə bu fərqi hiss etdirməzdi.

Başbuğ Elçibəyimizi bizə yadigar qoyub getdiyi tək-tük insanlardandır.

Türk Dünyasının, Azərbaycan tarixinin, folklorunun, etnoqrafiyasının, musiqisinin şəriksiz və ensklopedik daşıyıcısıdır Əli müəllim. Dünyanın o başında bir türkə nə isə olubsa, deməli Əli müəllim narahatdır. Yaxud da Əli müəllim narahatdırsa deməli dünyanın o başında bir türkə nə isə olub.

Xanımı Əzizə ablamızla çiyin-çiyinə səssiz-səmirsiz, heç bir təmənna ummadan, heç bir mükafat gözləmədən külüng vururlar bu Türlük mücadiləsində.

Hər il Novruz bayramında Əli müəllimi ailəliklə təbrikə gedərik.

Bir may deyilən sovet bayramı da var ki, o gün üç rəngli şar alıb Əli müəllimgilə gedərik. Bizi qapıdan qovar. Əli müəllim belə Əli müəllimdi.

Əli abi, dostlarımızın yarpaq tökümü vaxtı Allah səni bizə çox görməsin. Sən bizim silahdaşımız, məsləkdaşımız, əqidədaşımız, böyüyümüz, abimiz, ağsaqqalımız və kiçik qardaşımızsan.

Biz səni çox-çox sevirik! Yaxşı ki varsan! Yaxşı ki, bizim Əli müəllimsən!

***5 haziran 2023***

## ƏLİ SƏFA



Arxadaşlar!

Həyatda elə adamlar var ki, adının qabağında və sonrasında soy adı, ata adından sonra bir metir "titulları" yazılsa da bir saatdan sonra yaddan çıxır.

Sənin isə adın hər şeyi deyir.

Sadəcə Əli Səfa. Əlimizin səfası deyirdim sənə abi. Demə sən tək əlimizin səfası yox, həm də Əlilərin ən səfalısı və həm də vəfalısı imişsən.

Bu gün sənin yaş günündür. Əslində heç bilmirəm 28 il yaşadığın ömründə yaş günü keçirmisən ya yox, amma onu bilirəm ki, sən əbədi olaraq 28 yaşında qalacaqsan.

Naxçıvana ilk gedişiniz tələbə vaxtı olmuşdu. Mənsiz getmişdiniz. Bahəddin Həzi, Tila, Xatirə Nəriman qızı qaqauz türkü Tudora Arnaut, Altay türkü Ejer Çolakov. Gələndə dil boğaza qoymurdun, elə hey Əli Şamilovdan, Arif Rəhimovdan və bir də qəbirüstü qoç daşlardan danışırdın. Möminə xatun türbəsinin yanında gördüyün və şəkil çəkdirdiyiniz qoç daş heykəllərdən... Deyirdin o qoç daş heylərin yaşı Möminə Xatun türbəsinin tikilməsindən çoxçox öncədir. Çox dəyər verdiyin Arif müəllim də bizi qoyub sənin və dünyasını dəyişəndən 8 il qabaq cərrahların çıxardığı ürəyinin  yanına köçdü.

İndi siz bir yerdəsiniz, biz isə sizsizik.

Sabah da Əli Şamilin 76 illik yubileyinə yığışacayıq.

Naxçıvana ikinci gəlişiniz Seymur, Qorxmaz və Qənimətlə birlikdə oldu. Ağsaqqal sayağı Seymura elçiliyə gəlmişdiniz.

O vaxt bizlərdən yalnız Qənimət saqqal qoyurdu. Bu da ətrafdakılara qeyri-adi görünürdü. Rəhmətlik anam məni kənara çəkib: "bu saqqallı kimdi?"- deyə soruşdu.

Dilim dinc durmadı dedim: "İranlıdır".

Anam da Qənimətə adət-ənənələrimizdən tutmuş, mənim nişanlı olmağımdan, nişan qoymağın nə demək olduğundan, tabaq aparmaqdan, xonça tutmaqdan danışdıqca Qənimət :

-Ana, bizdə də bu adətlər var.-deyirdi.

Anam:

-Nə yaxşı bizim adətləri ənənələrimizi İranda saxlamısınız-deyəndə Qənimət: "Ay ana, mən şamaxılıyam, iranlı deyiləm"-deməsiylə aləmi bir-birinə qatdı. Mənim anama dediyim yalanın üstü açıldı.

Anam süpürgəni götürüb mənim dalıma düşdü. Siz necə ürəkdən qəh-qəhə çəkib güldünüzsə səs küyünüzə qonşular gəldilər.

Abi, üçüncü dəfə isə Qorxmazın toyuna gəlmişdiniz və Moşunun sözü olmasın "bir vaqon" idiniz. Hələ o vaxtlar Naxçıvana qatar da işləyirdi.

Anam demişkən "təzə cücərən" vaxtlarımız olduğundan elçiliklər, nişanlar və toylar dal- dala düzülmüşdü.

Abi, hamımız evləndik, amma bir sən evlənmədin.

Bəlkə də dünyadan tez köçəcəyini bildiyin üçün "gəlin köçürtmədin", özün köçdün sevdiyinin dərgahına.

Sən niyə evlənmirsən soruşanda deyirdin: "Mən sizin babanızam. Hamınızı yer-yurd eliyəndən sonra baxaram evlənim, yoxsa evlənməyim".



*Şəkildə soldam 1.Tila, 2.Arif Rəhimoğlu, 3.Bahəddin Həziyev, 4.Əlisəfa Qədirov, 5. Ejer Çolakov, 6. Tudora Arnaut*

Qorxmazın toyunda iştirak etmək üçün Nursa, Məmməd Araz ocağına getmişdik. Axı Qorxmaz Məmməd Arazın qardaşı oğludur. Onun toyu olan vaxt, bizim ermənilərlə vuruşduğumuz qanlı-qadalı günlər idi.

Naxçıvanda neçə şəhidimizin olduğuyla, döyüşlərin necə və harada getdiyi ilə maraqlanırdı. Öyrəndin ki, döyüşçülərin qərargahı Naxçıvan şəhərində "Kümbəz" ad-

landırılan tarixi İbn Küseyir türbəsindədir. Əl çəkmədin ki, məni ora apar.

Nursdan toydan, çıxıb birbaşa Naxçıvana 12-ci əsrdə Memar Əcəmi Naxçıvaninin tikdiyi İbn Küseyir türbəsinə gəldik.

İlk sözün isə bu oldu:

-Sizin səs-küyünüz  bu türbəni uçurdacaq. Buranı nə vaxt boşaldırsınız?

Həmişəki kimi dedim:

- Müharibə qurtaranda.

Az qalırdın mənimlə dava edəsən. "Ə, bə qardaş (Mənə həmişə Naxçıvan ləhcəsiylə belə deyərdin) bəlkə sən on il müharibə eləyəsi oldun, bu abidə dağılmalıdı?"

Döyüşçü dostlardan kimsə: "Bə biz döyüşməsək, erməni gəlib Naxçıvanı alsa,buranı dağıtmayacaq?"-deməsinə gülərək:"Döyüşçülərin də elə özün kimi dəlidilər"-demişdin.

Sən hər şeyin qədrini bilirdin abi.

Abidənin, daş qoçun, türbənin, daşın, kəssəyin və içi biz dostlar qarışıq, hər şeyin. Təkcə özündən başqa. Həmişə bizi qoruyardın.

Hələ rəhbərimiz olduğun gizli təşkilat vaxtı həmişə deyərdin "Yüz belə təşkilat sizin bir telinizə qurban olsun, özünüzü qoruyun".

Həmişə:"Yaxşı ki, 19 yanvarda sən Bakıdan Naxçıvana qayıtdın. Yoxsa 20 yanvar gecəsi nə sən dinc duran deyildin, nə də ruslar səndən əl çəkəcəkdilər"-deyirdin. Hamımızı qorudun abi, təkcə özündən başqa.

Keçimin səliqəli, qara şəvə kimi saçın daralı, üzün həmişə tər-təmiz qırxılmış olardı. Güləndə yanağındakı

əmələ gələn çuxur hələ də gözümün qabağındadı. Son görüşümüz yadındamı, abi?

Hakimiyətə gəlmişdik, uşaqlar hamısı vəzifələrə getmişdi, bir səndən başqa. Mən xidməti maşını gətirmək üçün Bakıya gəlmişdim. Səninlə "Azadlıq" qəzetinin Nizami metrosunun yaxınlığındakı redaksiyasında görüşdük. Harasa getməliydik, Rahim tez qaçıb maşının qabaq oturacağında oturdu və düyməni basdı ki, qapı bayırdan açılmasın.

Sən də gülərək: "Əslində Rahimə vəzifə vermək lazımdı ki, heç kim onu oturduğu stoldan qaldıra bilməz" dedin. Düz deyirdin abi, elə adamlara vəzifə verildi ki, nəinki dövləti, heç özünü də qoruya bilmədi.

Sən onda kommersiya ilə məşğul idin və əslində hamımızdan "varlı" idin, amma "Azadlıq" qəzetinin anbarında yaşayırdın. Sən həmişə "varlı" olmusan abi, daxilən, mənən, ruhən, əxlaqda və məişətdə belə, həm də çoxlarının qibtə edəcəyi qədər çox " varlı".

İndi gecə saat 3-dür, oturmuşam və sənli günlərimi yada salıb, bəlkə də oxucu üçün anlaşılmayan rabitəsiz xatirələrimi yazıram. Öz-özümə düşünürəm ki, mənəvi yadigarın olaraq milli mübarizə, atan Saməddin əmi, anan Pəri xala, qardaş-bacıların, biz dostların... aydındı, amma görəsən bizə fiziki olaraq əsas yadigar kimi səndən nə qaldı?

Xatirələrmi, həsrətmi, şəkillərinmi, həmişə Naxçıvana gedəndə gördüyüm Kümbəz və ya qoç daş heykəllərmi? Ya nə?

Daimi qalacaq 28 yaşın mübarək abi!

Əziz ruhuna salam olsun!

***10 Haziran 2024-cü il.***

## HÜSEYN CAVADOV



Arxadaşlar!

1993-cü ildə AXC Naxçıvan Vilayət Təşkilatına elə bir basqı başladı ki, yarandığı gündən beləsi görünməmişdi. Təşkilatın sədri və fəal üzvlərinin bir qismi həbs edildi, böyük bir qismi isə Naxçıvandan və Azərbaycandan didərgin salındı.

Təşkilat elə bir günə salındı ki, konfrans keçirib rəhbər orqanını seçməyə imkanı olmadı. Belə bir vaxtda Elçibəy Hüseyin Cavadovu AXC Naxçıvan Vilayət Təşkilatına özünün səlahiyyətli nümayəndəsi təyin etdi. Öncələr Xalq Cəbhəsində olan, sonra Azərbaycan Demokrat Partiyasına keçən Hüseyin Cavadovun gəlişini cəbhəçilərin hamısı alqışlarla qarşılamadılar. Onun cəbhədən getməsini bağışlaya bilmirdilər.

Hüseyin Cavadov isə çox mütəvazi, təvəzökar, ruhu, qəlbi yaşam dolu bir abimiz idi. Bir il əvvəl mənə bir meyvə şəkli göndərmişdi. Yazmışdı: “Bəy sənin hər yerdə tanışın var, gör bunu Israildən tapdıra bilərsənmi”.

Şəkli Israildə yaşayan uşaqlıq dostuma göndərdim. Meyvənin Israildə yetişdiyini, amma indi mövsümü olmadığını öyrəndim. Bunu Hüseyn abiyə deyəndə zarafatla: "Deyəsən mənim də mövsümüm bitib Bəy"-dedi!

Çox məyus olduğumu görən Hüseyn abi, mənə ürəkdirək verdi. "Bəy xərçəng deyilən bir xəstəlik yoxdur. Bu B 17 vitamininin çatışmazlığının yaratdığı fəsadlardır. Həmin vitamin də bir çox meyvə-tərəvəzdə, o cümlədən brokoli tərəvəzində çoxdur. Mən bu xəstəlik haqqında çox şey oxumuşam, elə də qorxulu bir şey deyilmiş. Niyə indiyə kimi bunun əlacını tapa bilmədikləri çox maraqlıdır"-dedi.

Nə deyim vallah, xərçəng deyilən zəhirmarın xəstəlik olub, olmadığını deyə bilmərəm, amma hər gün minlərlə insanın (içi əzizlərimiz qarışıq) bu xəstəlik ucbatından həyatını itirdiyini bilərəm.

Hüseyin abi, dünən sənin işığına yığışmışdıq. Yağışlı-çiskinli havaya rəğmən bütün dostlar, hətta gözləmədiyim insanlar belə məclisinə gəlmişdi. Elə bil ki, təbiət də sənin bu dünyadan köçməyinə göz yaşı tökür, ağlayırdı.

Yasdan sonra dostlarla sənin xatirələrini bölüşmək üçün Oktay və Elşad abilərin mərasimini keçirdiyimiz məkana toplaşdıq. Sənin xatirələrin, sənin unikal dünyəvi, fəlsəfi və dini baxışların haqda hər kəs ürək sözlərini dedi. Kəndiniz Siyaqutdan olan dostlar sənin uşaqlıq xatirələrini bölüşdü.

Odessadan gələn kirvən Namiq Talıbov sizin ailənizin necə ziyalı ailə olduğundan danışdı. Mərdan, Oktay, Əjdər, Faiq, Fikrət, Məhərrəm, Kamal, Ibrahim, və b. bəylər sənin barəndə bilmədiyimiz, amma çox maraqlı hadisələr danışdılar. Sonda ağsaqqalımız, Əbülfəz Elçibəyin bizə yadigar qoyub getdiyi Əli Şamil bu xatirələri yazıb kitab şəklində çap etdirməyi tövsiyə etdi. Axşam isə what-

sAppın imkanlarından istifadə edib, Almaniyadan Ələsgər abinin, Amerikadan Asəf Quliyevin, Almatıdan Elçin Abbasın, Naxçıvandan Piket Həsənin, Bormanın (Intiqam) və Bakıdan olan dostların sənə həsr olunmuş görüntülü görüşünü keçirdik.

Ömrünü millət və vətən yolunda xərcləyən birisinin bulvardakı oturacaqlara söykənib yatdığından, ac qaldığın günlərdən, ailənin bir tikə çörəyini qazanmaq üçün candan əziz sevdiyin vətəndən uzaqlara getmək zorunda qaldığından danışdıq. O qədər mütəvazi idin ki, yatmağa yerin olmayanda, ac qalanda bunu nə dostlarına, nə qohumlarına bildirmədin.

Abi bunlar hamısı öz yerini tutacaq. Hər şey ötüşəcək,tək bir sən aramızda olmayacaqsan, Bəy, Şah, Ariflər, Oktay, Ibrahim, Hicran, Sahib, Elşad və b. abilər kimi.

Bundan sonra səni nə telekonfranslarda, nə də həyatda görə bilməyəcəyik. Gördüyümüz isə soyuq bir məzar daşından bizə baxan şəkilin olacaq. Hardasa bir məzar daşının üstündə oxuduğum bu şer kimi…

Nə baxırsan, mənim kimi,
Mən baxırdım, sənin kimi.
Olacaqsan, mənim kimi,
Baxacaqlar, sənin kimi!

Ruhuna salam olsun abi!
P.S.Yaşamaq, həyat, qədər, taleh deyilən bumu?!

***10 Aralıq 2023-cü il***

## İBRAHİM İBRAHİMLİ



Arxadaşlar!

Bu da son!

Dostlar hamınızdan çox-çox xahiş edirəm, rica edirəm, yalvarıram, özünüzdən muğayat olun!

Dözmək olmur artıq bu itkilərə, ürək tab gətirmir bu qardaş yoxluqlarına!

Oktay bəy, Hicran bəy, indi də İbrahim bəy.

Nə edək, neyləyək, başımıza haranın külünü əliyək?

İllərdir milli mücadilədə, mübarizədə, səngərlərdə, döyüşlərdə, həbslərdə, qürbətlərdə yaşaya-yaşaya tanıdıq bir-birimizi. Bir birimizə arxa dayaq, həyan olduq, belə asanlıqla tərk edilmək üçünmü? Belə asan ayrılıq üçünmü-? Yoxsa siz "Şuşa alınandan sonra özümüzü qurban verərik" -deyə sözmü vermişdiniz bir -birinizə. Mənim əzizlərim.

Niyə Şuşamıza ayaq basmadan bizi tərk edirsiniz? Daha dözə bilmirik axı, bu qədər dərdə, bu qədər dost itkisinə. Daha ürəyimiz də o,vaxt tanış olduğumuzdakı ürək deyil axı. Həmişə deyərdin "Bizim dost itirən vaxtımız deyil!"

Bəs nə oldu,abi?

Bizi qoyub niyə köçüb getdin, bizi dost itirənə çevirdin?

Kimlərsə məni qınasa da deyəcəyəm. Dostum Ilham Behrudi demişkən "Bu nə tale, nə qədər və nə də əcəl mə-

sələsi deyildir!" Bu əcələ meydan oxuyanların öz haqqını, öz dəyərini və öz layiqli qiymətlərini almamalarının üsyanıdır.

Birimiz imkansızlıqdan, dərmansızlıqdan, baxımsızlıqdan, birimiz bir tikə çörək üçün məcburi getdiyimiz qürbətdəki kimsəsizlikdən, birimiz də göstərilən sayğısızlıqdan, biganəlikdən dünyamızı dəyişirik.

Halbuki birimiz torpaqların qorunmasında öz kişilik möhürünü vurmuş, birimiz müstəqillik bəyannaməmizin yazılmasında iştirak etmiş, digərimiz isə o bəyannaməyə imza ataraq dövlətçilik lövhəsinə adını qızıl hərflərlə yazanlarıq.

Bu nə təfəkkür, bu nə millilik bu nə dövlətçilikdir, arxadaşlar? Bunu mənə anladacaq kimsə ola bilərmi görəsən?

1980-ci illərdən milli mücadilənin ön sıralarında yer alan İbrahim İbrahimli səssiz səmirsiz öz evində heç bir qayğı görmədən, heç bir təmənna ummadan dünyasını dəyişə bilərmi?

Ruhun şad olsun, abi!

P.S. Abi, səni canından çox istədiyin,Vətənimizin ürəyi olan Qarabağa getməyə qoymadılar. Amma sən bu haqsızlığa dözmədin, ruha çevrilib Qarabağa getməyə qərar verdin!

*21 Haziran 2021-ci il*

# İKİ ŞƏKİLİN TARİXİ



Arxadaşlar!

Bu birinci şəkil 1989-cu il Azərbaycan Bədən Tərbiyəsi Institutunu qırmızı diplomla bitirib təyinatla Naxçıvana gənc idman mütəxəssisi kimi gedəndən bir neçə ay sonra çəkilib. Onda məni idman mütəxəssisindən çox Milli Azadlıq Hərəkatının yaradıcılarından biri kimi tanıyırdılar. Mən işə başlayandan az sonra milli liderimiz Əbülfəz Elçibəy (onda hələ Elçibəy deyildi) Naxçıvana gəldi. O, Naxçıvanda xalq cəbhəsinin liderlərini yaxşı tanıyırdı. Bakıdan tanıdığı isə tək mən idim.

Böyük bağdakı filarmoniyada toplantı oldu. Çölə çıxanda bu şəkili çəkdirdik. Mən kənarda durmuşdum. Bəy məni görüb: "Ay, türmə yoldaşım (1988-ci il dekabırın 5-də Lenin (indiki Azadlıq) meydanında hərbiçilər zorakı-

lıqla meydanı dağıdanda bizi həbs eləyib Bayıl həbsxanasına aparmışdılar. Bayılda bərabər "oturduğumuza" görə məni çox vaxt zarafatla belə çağırardı) gəl yanımızda çönbəl, onsuzda harda dursan arxadakılar görünməyəcək" dedi.

Bu şəkil çəkdirəndə iki dayım orada idi. Biri əlimi çiyninə qoyduğum kiçik dayım Mirabbas Seyidov idi. O, AXC Şərur təşkilatının liderlərindən idi. O biri də bizə Sovet hökumətinin düşməni kimi baxan Naxçıvan Daxili Işlər Nazirliyi Cinayət Axtarış şöbəsinin rəisi Mirabdulla Seyidov idi. (Bu hadisədən sonra məndən qabak bizə gəlmiş və rəhmətlik anama "bax məndən demək, oğlun Sovet hökümətinin əleyhinə olan adamlarla oturub-durur. Sonra başına bir iş gələndə mənə deməyin. Hökümətlə hökümətlik eləmək olmaz, axırı sənin bu oğlun türmələrə düşəcək!" demişdi). Az sonra oğlu Mir Əsgər Seyidov Yuxarı Buzqov döyüşlərində şəhid oldu və prezident Əbülfəz Elçibəy tərəfindən Milli Qəhrəman adına layiq görüldü.

Şəkildə mənim qarşımda oturan isə cəbhəçilər arasında çılğınlığı ilə seçilən, "Qarağac" ləqəbilə şeirlər yazan, öz gülləmizə qurban gedən rəhmətlik Mehmandır.

Ikinci şəkilin tarixcəsi isə belədir. 1992-ci ilin yayinda mən Bakıda Hospitalda böyrəyimdən müalicə olunurdum, rəhmətlik İbrahim İbrahimli yanıma gəlib dedi ki, Bəy səninlə görüşmək istəyir. Həmin vaxt da Əbülfəz Elçibəy təzə prezident seçilmişdi. Biz bərabər prezident aparatına gəldik. Prezident bizi qəbul elədi.

Bəylə prezident seçiləndən sonar ilk dəfə görüşdüyümdən fürsətdən istifadə eləyib təbrik etdim. Vəziyyətimlə, xəstəliyimin müalicəsiylə və Naxçıvandakı vəziyyətlə, sərhədlərdə atışma olub-olmadığıyla maraqlandı.



Sonra mənə üç vəzifə təklifi edildi. Prezident aparatının Təhlükəsizlik Idarəsinin və bilavasitə Prezidentin Mühafizə Xidmətinin rəisi, DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi və Naxçıvan Daxili İşlər Naziri.

Mən isə dedim ki, ″Bəy, mənim üçün ən vacib məsələ sizin təhlükəsizliyinizi qorumaqdı. Ona görə də mən sizin mühafizəciniz olmaq istəyirəm. Bəy də mənimlə razılaşdığından mən işə başladım. (sonralar necə oldu ki, Naxşıvana Daxili Işlər Naziri göndərildim? Bu haqda sonar yazaram)

Bu şəkili Xalq Cəbhəsinin yaranmasının il dönümü münasibəti ilə Şəhidlər Xiyabanını ziyarət edəndə çəkdirdiyimiz vaxt mən ilk və son demokratik seçkilərlə hakimiyyətə gəlmiş prezidentimiz Əbülfəz Elçibəyin Mühafizə Xidmətinin rəisi idim.

***16 Haziran 2022-ci il***

# İSAXAN AŞUROV



Arxadaşlar!

Əsil oğuz türkü, əsil kişilik məktəbi, ərlik-ərənlik simvoluydu Isaxan abi.

Çox qəribə və bənzərsiz bir adam idi.

4 iyun qiyamında mən Yevlaxda olanda Tovuza, Qazağa hücum edən sürətçiləri əraziyə buraxmamış, Sürətin qərərgah rəisi, polkovnik Ilham Aslanovun çənəsini qırmışdı (sonralar həbsxanada Ilhamla bir yerdə yatacağıq və mən Isaxana iş qaldırılan ərizəni cırdıracağam).

Sonra Qara Tofik abiylə Naxçıvana gəldikləri vaxt görüşüb Kələkiyə gedəcəyik.

Novruz bayramında həbsxanaya yanımıza gələndə parodiyaçı Ilham Əzizin qruppasında adını nağaraçı yazdırıb zona keçirdəcəyik. Aşığa "Yurd yeri" sifariş edəcəkdi (həmişə gülərək deyirdi, bu hökümət məni hüquqşünaslıqdan endirə bilmədi. Siz məni nağaraçı elədiniz).

Qobustan həbsxanasında yata-yata, üçüncü dəfə mənə iş qaldırılanda Namizəd abiylə təmənnasız olaraq özləri ərizə yazıb mənə vəkil olacaqdılar.

Isa Sadıqov Norveçə getmək üçün Moskvaya gələndə tək bir kəlmə "Isadan muğayat ol, Mustafayev" deyəcəkdi.

Bakıdakı son görüşümüzdə "Mustafayev, kəndimiz Faxralıda təzə bağ salmışam, səni ora aparajam" deyirdi (qəribəliyinin bir tərəfi də onda idi ki, həyətində cökə ağacından bağ salmışdı. Deyirdim niyə meyvə yox, məhz cökə? Deyirdi qoy arı saxlayanların balı dadlı olsun).

Mən səninlə birgə gedə bilmədim,Faxralıya abi!

Səndən sonra, daha doğrusu sənin dəfnində getdim o ocağa.

Hər şey yerindəydi. Təzə tikdirdiyin ev də, saldığın bağ da, həyətinizin aşağısından başlayan dağ da…

Bir sən yox idin!

Məzarının başında oxunan "Qara paltarlı qadın" şeri vardı, bir də həmişə qulaq asdığın "Yurd yeri" saz havası.

Səninsə yerin boş idi (çox istədiyin dostumuz Dərviş Osmanın yasında Zəlimxan abi Məmmədlidən xahiş elədim məni də "Borçalı" Cəmiyyətinə üzv yazsın. Zərrə qədər də olsa sizlərin yerini doldurmaq üçün.)

Həmişə təkrarladığın"Polkovnikə heç kim yazmır" cümləsi səndən sonra tez-tez yadıma düşür, abi.Ona görə də bu yazını sənə yazdım.Qoy sağlığında " it dəftərində" də adıları yazılmayan polkovniklər bilsinlər ki, yoxluğunda da adına yazılar yazılan bir şərəfli polkovnik var, Isaxan Aşurov.

P.S Yanına gələnə kimi, ruhunu şad etməyə çalışacayıq cənab polkovnik!

***22 Haziran 20-ci il***

## NƏCƏF NƏCƏFOV, ELÇİN SƏLCUQ, FƏRZUX SEYİDBƏYLİ



Arxadaşlar!

Bu gün Azərbaycanda Milli Mətbuat günüdür. Mətbuat deyəndə yadıma ilk düşən üç kişi olur. Mən bu yazımda həyatda olmayan üç yazardan söz açmaq istəyirəm.

Birincisi Nəcəf bəy Nəcəfovdur ki, onu hamı tanıyır. Mən rəhmətliyi milli jurnalistikamızın müstəqillik döneminin banisi hesab edirəm!

Rəhmətlik Elçibəy deyirdi ki,mən Nəcəf bəyə özümdən çox inanıram. Heyif ki, amansız ölüm Nəcəf bəyi aramızdan çox tez apardı. 17 dekabr 1999-cu ildə Nəcəf bəyin dünyasını dəyişdiyini eşitdiyim vaxt mən həbsxanada idim deyə heç dəfnində də iştirak edə bilmədim.

Ikinci Elçin bəy Səlcukdur. Elçin bəy "Azadlıq" qəzetində işləyirdi. Meydan hərəkatından başlayaraq dostluq edirdik. Həmişə də yaxşı zarafatımız olardı. Həddindən

artıq çılğın adam idi.Həmişə deyərdim ki, sən bu xarakterlə jurnalist yox idmançı olmalı idin.

O da mənə deyərdi ki: "Sənin gücün məndə olsaydı, bir-iki dənə də fənd bilsəydim. Bilirsən neyniyərdim?"

-Neyniyərdin? Yarışlara çıxardın?

-Ə yox, əəə. Nə yarış. Özümü Azərbaycanın, yox SSRI-nin, əəə yox eee,vapşe dünyanın ən güclü jurnalisti elan edərdim. Kim də qabağıma çıxsa idi şil-küt eliyərdim" deyirdi. 6 ay birinci məhkəməmdə, 7 ay da ikinci məhkəməmdə hər gün iştirak elədi. Hər gün də bir qəzet vərəqi yazı yazırdı. Çox istedadlı jurnalist idi. Hərdən nəsə eləyəndə (çox içirdi son vaxtlar) deyirdim: "Qənimətə deyəcəm səni işdən çıxartsın". Deyirdi ki, "sən kişi kimi srok oturmusan. Belə işlər sənlik deyil". Allah rəhmət eləsin!

Üçüncü jurnalist isə Fərzux Seyidbəylidir.

1989-cu ildə Naxçıvana gedəndə tanış olduq. Filologiyanı qurtarmışdı. Jurnalistliklə məşğul idi. Cəbhə bölgələrində, səngərlərdə bizimlə olurdu. Döyüş dayananda isə elə səngərdəcə gördüklərini dizinin üstündə qələmə alırdı. O vaxtkı çılğın həyatın içində sanki bir əsəbsizlik mücəssəməsi idi Fərzux bəy.

Heç kim onun baxışlarının cazibəsi altında zarafat etmək nədi, artıq söz danışmağa cürət etmirdi. Ağır şəkər xəstəsi idi. Son vaxtlar ayaqlarının əvvəlcə birini sonra isə, o birini amputasiya etmişdilər. Oktyabrın 13-də dünyasını dəyişdi.

Allah hər üç yazarımıza və şəhid jurnalistlərimizə rəhmət eləsin. Ruhları şad olsun!

***22 Temmuz 2021-ci il***

# PİKET HƏSƏN



Arxadaşlar!

Şəkildə gördüyünüz adam kimi Adam olan bu kişi, Naxçıvanın Böyükdüz kəndindən olan, cəbhəçi Həsən Əliyevdir. Köhnə cəbhəçilər, yolbayımız, rəhmətlik Əbülfəz Elçibəy qarışıq hamımız ona "Piket Həsən" deyirik.

Bu gün onun yaş günüdür!

Həsən abinin yaş gününə ən böyük hədiyyə əsgərlərimizdən gəldi. Xankəndində 34 il Azərbaycan höküməti ilə hesablaşmayan, özlərini müstəqil dövlət olduğunu elan edən, yüz minlərlə soydaşımızı ata-baba yurdundan didərgin salan, on minlərlə insanın ölümünə bais olan separatçılar, əsgərlərimizin bir günlük antiterror əməliyyatından sonra oranı tərk edib qaçdılar. Bir gündə yüzlərlə cəsur döyüşçümüz şəhid oldu. Erməni quldurlarını qızışdıran, onlara arxa dayaq olan Rus hərbiçiləri də bu dəfə qəhrəmanlarımız qarşısında dirəniş göstərə bilmədi. Azərbaycandan həmin gün hamı sevinclə dedi: Xankəndi Azərbaycandır!

Arxadaşlar!

Bəli bu gün abimiz Piket Həsənin yaş günüdür!

Bu Piket Həsən mənim böyük qardaşım, abim, ağsaqqalım, arxadaşım, hərəkat, döyüş, silah, səngər və əqidə yoldaşımdır!

Içdən gələn bir inamla deyirəm ki, Həsən abi, elmlə məşğul olsaydı akademik, hərbçi olsaydı general, Sovet dövründə həbsdə yatanda o yolu tutsaydı "Vor zakon", idmançı olsaydı Olimpiya çempionu olacaqdı.

Milli Azadlıq Hərəkatına qoşuldu və Piket Həsən oldu.

1989-cu ildə Naxçıvana gələndə Əli Şamilov (O zaman Əli müəllim hələ məqalələrini Əli Şamil imzası ilə çap etdirə bilmirdi) məni Piket Həsənlə tanış elədi.

Soruşdum, Həsən bəyin Cəbhədə görəvi nədir?

Dedi:"Cəbhəçi!"

Həqiqətən də o vaxtkı cəbhəçi sözü haqq, ədalət tərəfdarı, doğru danışan, təmənnasız vətəni qoruyan, ölümdən qorxmayan, haqsızlığa qarşı sinə gərib məzlumu qoruyan, rüşvətin kökünü kəsən və s. anlamda idi. Adamlar bir problemlə üzləşəndə dövlətin yüksək rütbəli məmurlarının yanına şikayətə getməkdənsə sıravi cəbhəçiyə dərdini deməyi üstün tuturdu. Bilirdi ki, problem həmin gün həll ediləcək. O zaman cəbhəçi sözünün dəyəri indiki yapçı sözünün əksi anlamında idi.

Sonralar gördüm ki, Piket Həsən doğrudan da Naxçıvanın "Olmazsa olmazı"olan bir neçə nəfərdən biridir.

Qərərğahda olsa da muxtar respublikada, Ordubaddan Sədərəyə kimi, hansı postda neçə nəfərin olması, hansı səngərdə nə qədər silah sursat, neçə günlük ərzaq olmasını gecə saat 3-də də yuxudan oyatsan əzbər deyərdi.

Rəhmətlik xalqın atası, Yetim Qəhrəmanla hər gün döyüş bölgələrindən gələnləri, posta gedənləri gülər üzlə qarşılayıb yola salardılar. Zaman-zaman səngərlərdə bizimlə çiyin-çiyinə qəhrəmanlıqla döyüşərdi də. Hətta sərhəd kəndi Kərməçataqda bir ay komendant da oldu (Bu rəsmi qurumların  deyil Xalq Cəbhəsinin təyinatı idi). Onun komendatlığı dövründə baş vermiş hadisəni cəbhəçilər deyib gülürdülər.



***Şəkildə soldan: Səyavuş Mustafa, Piket Həsən (Əliyev), Qurd Cəbrayıl (Qasımov), Oqtay Baxşəliyev***

Azərbaycanla Ermənistan arasındakı sərhəddə durub toqquşmaların qarşısını almalı olan SSRI Daxili Işlər Nazirliyinin əsgərləri zirehli texnikaları ilə Kərməçataqla Ermənistanın Sultanbəyli kəndi arasındı dururdu. Əslində onlar toqquşmanın qarşısını almaq əvəzinə  gərginliyi artı-

rırdı. Ermənilərin quldur dəstəsi Kərməcatağa hücüm edərək bir neçə evi yandıranda və Naxçıvan Vilayət Partiya Komitəsinin şöbə müdiri Vəli Zeynalov şəhid olanda onlara bir güllə belə atmamışdılar.( Partiya işçisi olan Vəli Zeynalovun şəhid olması rəhmətlik Afiyəddin Cəlilovun dediyi sözlərin bir növ sübutu oldu. Afiyəddin məllim həmişə deyirdi ki, erməni gələndə ayırmayacaq ki, sən kommunistsən, sən cəbhəçisən. Hamımızı bir gülləylə öldürəcək.)

Belə gərgin günlərdə erməni quldurları yenə Kərməçatağa basqın edəndə oradakı Daxili Işlər Nazirliyininin hərbi dəstəsinin komandiri olan mayor, cəbhəçilərin və zabitlərin Kolya dedikləri Nikolay,əsgərlərinə əmr verir ki, zirehli texnika ilə birlikdə geri çəkilsinlər. Buna dözməyən Piket Həsən boyda özündən uca olan Kolyaya hücum edərək mayorun tapançasını qoburundan çıxarıb götürür. Hərbiçilər Piket Həsənin üstünə hücum çəkmək istəyəndə cəbhəçilər də hərbiçilərə silahlı müqavimət göstərirlər.

Mayor çaşqın vəziyyətdə tabeçiliyində olan hərbiçilərə baxanda Həsən onu hədələyici bir tonda söyərək deyir: "Sənə bir yeşik araq içirtmişəm, vəziyyət gərginləşəndə hara qaçırsan."

Mayor toqquşma olarsa cəbhəçilərdən də onun tabeliyindəki hərbiçilərdən də ölən və yaralanan ola biləcəyini düşünərək əmrini geri götürür. Həsənin ona xidməti silahını qaytarması müqabilində zirehli texnikadan ermənilərin Sultanbəy kəndi tərəfə atəş açmağa əmr verəcəyini söyləyir. Beləcə gərginlik aradan qalxır. Onlar ara

sakitləşəndən sonra zirehli maşınları ilə Naxçıvan şəhərinə qayıdanda maşınlardan birinin təkəri xarab olduğundan onu Kərməçataqda qoyub getməli olurlar. Piket Həsənin tapşırığı ilə döyüşçülərimiz zirehli maşının təkərini gecə ilə yırtmışdılar ki, onu aparmaq olmasın və erməni quldurları da kəndin zirehli texnika ilə qorunduğunu düşünüb Kərməçatağa hücum etməsinlər.

Cəbhəçilər həmişə boyda mayordan kiçik olan Piket Həsənin cəsarətini yada salıb gülürdülər.

Piket, yaxut mitinq keçirirdik (zatən Piket ləqəbi də ordan gəlir), Piket Həsən bir dəqiqəyə təşkilatı işləri həll edir, kimisə qarşılamaq lazımdırsa, Piket artıq Türkiyə, Iran gömrüyündə yaxud aeroportdadır. Komunistlərlə danışığa gedilməlidirsə, hamı Piketi axtarır.

Sərhəddə döyüşürük, Piket bizdən qabaq səngərdədir. Sərhədlərin sökülmə məsələsi var, Piket hamıdan qabaqda gedir. Mühüm bir siyasi qəraq verilməlidir, Piketin məntiqi hamını mat edir. Şəhidimiz var, dağdan ilk olaraq Piket Həsənə xəbər göndərirəm.Sərhəddən silah keçiririk, Piket Arazın qıragında bizimlədir.

Həsən bəy həmişə qayğımıza qalar, böyük qardaş və ata kimi bütün döyüşçülərin ailə məişət məsələlərindən tutmuş, yaralarının sarınmasına kimi hər probleminin həlli ilə məşğul olardı. Sonra bəzilərimiz həbs olunduq, bəzilərimiz vətəndən didərgin salındıq. Naxçıvan cəbhəçilərinin yuvasını tək qorudu Piket Həsən abi.

Onda da kimin hansı zonda olduğu, kimin yanına dostların və ailəsinin nə vaxt getməli olduğunu tənzimlə-

di. Dəfələrlə təhdid edildi, təqiblərə məruz qaldı, ancaq heç vaxt əqidəsindən dönmədi, mübarizəsindən geri qalmadı. Həmişə şəhid ailələriylə yaxından ilgilənən Həsən abi, bu gün də həyətində becərdiyi qızıl gülləri dərib Şəhid qardaşlarımızın məzarı üstünə qoymaqla o kövrək ürəyini ovundurub.

Biz, şəhid qardaşlarımızdan tutmuş qazilərimizə kimi hər zaman, hər yerdə və həmişə kimimizin Şef, kimimizin Piket, kimimizin Əmi dediyimiz Həsən abinin qayğısını hiss etmişik.Həmişə səninlə fəxr etmişik və edəcəyik Şef! Allah səni bizə çox görməsin Piket Həsən!

Öpürük o Boz qurd tutan əllərindən!

Nə isə…

Piket Həsən belə Piketdi.

Həsən abi, düzü bilmirəm neçə yaşın olur? (məncə sən elə biznən yaşıd olarsan). Əslində heç bunun mənim üçün əhəmiyyəti də yoxdur. Əsas odur ki, sən varsan!

Bizimsən!

Ləyaqətlisən!

Şərəflisən!

Kişisən!

Ilk gün səni tanıyandan necə vardınsa eləcə də varsan.

Tükündən dırnağına kimi Türk oğlu Türksən!

Elçibəyimizin, Şahmərdanın, Oktayın, Arifin, Elşadın, Ibrahimin, Hicranın və qollarımızda can verən neçə-neçə Şəhidimizin bizə yadigarısan.

Həm də bizim abimizsən!

Hər danışanda mənə "özünü qoru, sən hələ bu millətə çox lazımsan, uşaqlar sənin qamətini dik görəndə ruhdan düşmür, həvəslənir, sənə inanır "deyirsən abi!

Biz də səninlə fəxr edirik, nəfəs alırıq, yaşayırıq.

Bu keşməkeşli günlərdə,dostlarımızın “xəzan vaxtı” özünü qoru abi.

O, mənə Boz Qurd göstərən nəvələrinə görə, bizə görə, millətimizə, xalqımıza görə, şəhidlərimizə və ruhunu bədənimizdə daşıdığımız, dünyasını dəyişən dostlarımıza görə!

Sən özünü qoru abi! Sən hələ ailənə, dostlara, millətə, xalqa, o taylı-bu taylı Azərbaycana, Türklüyə, Türk dünyasına və Turana çox, həm də bizdən daha cox lazımsan abi!

Kiçik qardaşın Səyavuş Mustafa.

Tanrı yar və yardımçın olsun abi!

***20 Eylul 2022-ci il.***

## SƏBUHİ MƏMMƏDLİ



Arxadaşlar!

Səbuhinin özünə də demişdim, nədənsə Səbuhiylə ya Səbuhisiz Səbuhidən söhbət eliyəndə rəhmətlik Elçin Səlcuq yadıma düşürdü. Elə indi də onu düşünürəm ki, görəsən görüşdülərmi?

İncə zarafatımız da var idi aramızda. Sovetlərin çöküşü ərəfəsində Naxçıvandakı sərhəd qoşunlarında xidmət etmişdi.

Deyirdi ki, “sən məni Naxçıvana apar Şaxtaxtından tutmuş sizin Qaraxanbəyli kəndinə kimi, bütün "sərhədçinin dostlarının" siyahısını sənə deyəcəm”.

Deyirdin mənim üçün o dünya ilə bu dünyanın elə də fərqi yoxdu, amma qızımdan narahatam! Elə həmin narahatçılıqla da getdi. Sən jurnalistikamızın son dövrlərdə yetirdiyi ən savadlı və ən cəsarətli jurnalistlərindən idin. Savadlı olmağının sübutu onda idi ki, həmişə gülə-gülə danışdğın kimi, Bakıda oturub Quba bazarından reportaj hazırlamışdın.

Cəsarətin isə onda idi ki, Əfqanıstandan Suriyaya kimi ən qaynar nöqtələrə gedir oralardakı vəziyyəti canlı olaraq araşdırır və bizə çatdırırdın.

Çox maraqlıdır ki, jurnalist dostlarımızın gethagedi başlayıb. Ruhuna salam olsun abi!

***17 Ocak 2024-cü il.***

## YAŞAR TÜRKAZƏR BAYRAQDAR



Arxadaşlar!

Mənim üçün milli hərəkatda bütün parametrlərinə görə "bəzi liderlərdən" qat-qat üstün tutduğum və şəxsiyyətinə, iradəsinə, həmçinin ideyasına böyük hörmət etdiyim HƏRƏKAT ADAMI!

Sən vətənin azadlığı və müstəqilliyi uğrunda gedən mübarizənin həmişə önündə oldun. Bayrağımızı həmişə mitinq iştirakçılarının önündə apardın. Milislərin başı səni döyməyə, bayrağı əlindən almağa qarışanda çoxu qaçıb canını qurtardı.

Görəsən Bakıda keçirilən elə mitinq tapmaq olarmı ki, sən orada iştirak etməyəsən. Səninlə bir dildə danışan, bir qandan olanlar səni nə qədər, döydülər, söydülər, təhqir elədilər. Onlara kin-küdurət bəsləmədin. O miskinləri qınamadın. "Onların da çörəyi məni döyməkdən, söyməkdən çıxır" dedin. Mitinqlərdə tutulub aparıldığının siyahısını aparırdın. Mən bilən 500-ü keçmişdi. Bəzən bir ay həbsdə saxlamışdılar, bəzən on beş gün, bəzən də üç gün, beş gün. Həbsdə olduğun günləri saymırdın. Həbsdə olarkən arxanca gələn, yemək gətirənin də tək-tək olurdu. Həbsdən sonra doğmaca evinizə belə getmək istəmirdin ki, anan danlayacaq.

Bədəncə çox cüssəli idin. Kənardan pəhlavana oxşayırdın. Amma cəbhəçilərin çoxu səni Fransız yazıçısı Viktor Hüqonun "Səfillər" romanındakı Qavroşa bənzədirdilər. Amma sən rusların atdığı güllələrdən deyil öz polislərimizin vurduğu zərbələrdən aldığın zədələrdən dünyadan köçdün.



*Şəkildə Yaşar Türkazərin
növbəti həbsi*

Görəsən səni döyən, üçrəngli bayrağı əlindən alıb cıran polislər indi həmin bayrağın altında rüşvət alıb villalar tikdirəndə, arvad uşaqlarını xarici ölkələrdəki istirahət mərkəzlərinə göndərəndə, yeyib-içib şellənəndə heç səni

xatırlayırlarmı? Axı Sovet dövründə xruşşovkada 3 otaqlı mənzili, uzaq başı "Jiqulisi" olan milisləri sənin uğrunda mübarizə apardığın qurluş villa, mersedes sahibi etdi. Sənsə bir qarını ac, bir qarını tox yaşadın. Bəzən günlərlə quru çörəyə möhtac oldun. Amma harın milislərin, hökümət məmurlarının qarşısında əyilmədin, əqidəndən dönmədin.

Xalq hərəkatı zamanı təşkilatın hər işinin qulpundan yapışdın. Bunu mən bacarmaram demədin.

Vəfatının 3-cü ilində, Allah sənə rəhmət eləsin Yaşar abi!

Ruhun şad olsun abi!

***28 Temmuz 2023-cü il.***

## YAVER ÜNSAL



Arxadaşlar!

Milletçi Hareket Partiyası Iğdır il başkanı Yaver Ünsalı vəfatının 24- cü ilində hörmətlə anırıq.

Naxçıvanla Türkiyə arasında Ümid körpüsü tikilib başa çatandan sonra ilk tanış olduğum Bozqurd Yavər Ünsaldır.

Sonradan tanışlığımız dostluğa, qardaşlığa çevrildi.

Erməni silahlı dəstələrinin Naxçıvana hücumlarının qızğın vaxtı Sədərəyə etdiyi yardımları, Etibar Məmmədovun gətirdiyi silahların Rus sərhədçilərindən gizlin Naxçıvana keçirilməsində bizə etdiyi köməyi, rəhmətlik Abdulla Çatlının Kələkiyə, Bəylə görüşünə gəlməsindəki rolunu, bəzi qadınların Iğdıra gedib adımızı batırmasının qarşısının alınmasındakı fəaliyyətini unutmaq olmaz.

"Qadın məsələsi" haqda bir az geniş yazmaq istəyirəm.

Naxçıvan Muxtar Respublika Daxili Işlər Nazirinin müavini işləyirdim. Növbətçi hissədən xəbər verdilər ki, "Türkiyədən qonaqlar gəlib". Çıxıb pilləkənlərdə qarşıladım. Yavər abiylə birlikdə 2-3 ağsaqqal adam da gəlmişdi. Əhvalları elə idi ki, çırtma vursaydın qan damardı. Xoş, beşdən sonra qanıqaraçılıqlarının səbəbini soruşdum.

Dedilər: "Bakanım, papağımız yerə girib. Nə edəcəyimizi bilmirik. Sokağa belə çıxmağa xəcalət çəkirik". Söh-

bətlərindən bəzi "üzdəniraq qadınların" Iğdıra gedərək orada fahişəlik etdiklərini öyrəndim.

Mənə ən ağır təsir edən isə onların özlərini şəhid ailəsi kimi qələmə verməsi oldu. Bu söhbətdən sonra mənim vəziyyətimi özünüz təsəvvür edin. Onlara dedim ki, bu gündən bir pozğun qadının  sərhəddən o tərəfə keçməsinə imkan verməyəcəm.

Iğdırdan gələnlərin ağsaqqalı dedi ki,sayın Bakanım bunu edə bilsən sənin əlindən yox, ayağından öpəcəm.

Naxçıvan Sərhəd Qoşunlarının Komandanı,rəhmətlik Şahmərdan bəyə xəbər elədim. O gündən bütün sərhəd və yol postlarında xüsusi nəzarət yaratdıq. Əri, qardaşı, atası, oğlu yanında olmayan və müalicəyə getməyi haqqında həkim göndərişi olmayan qadınların Türkiyəyə tək getməsinə imkan verilmədi.

Işlədiyim müddətdə yeganə olaraq və bilərəkdən bu qanunsuz hərəkətə yol verdim və bu gün də həmin hərəkətimdən peşman deyiləm. Bu qanunsuz əməlimə görə də istənilən cəzanı sevə-sevə çəkməyə hazıram.

Hər gün nəinki Naxçıvandan, Azərbaycanın müxtəlif bölgələrindən gəlib Ümid körpüsündən Türkiyəyə keçmək istəyən pozğun qadınların xarici pasportlarını cırır, özlərini də təyyarə ilə geri qaytarırdıq. Bir həftənin içində Naxçıvandan keçib Türkiyəyə fahişəliyə getmək istəyənlər “yoxa çıxdı”.

Iğdıra gedəndə Yavər bəylə gələn ağsaqqal məni Bələdiyyə meydanında  görəndə uca səslə: "Ay Iğdırlılar, buraya gəlin, papağımızı yerə soxan qadınlardan Iğdırı təmiz-

ləyən bu adamın əlindən öpək" (təbii ki, buna yol verməmdim).

Yavər bəyə son görüşümüz PKK-çılarla Ağrı dağı ətəyindəki çatışma vaxtı oldu.

Sonra mən həbs edildim. Həbsxanada eşitdim ki, avtomobil "qəza"sında dünyasını dəyişib.

Allah rəhmət eləsin, ruhun şad olsun abi!

PS. Qardaşı Sərdar bəylə dostluğumuz  bu gün də davam edir.

***23 Kasım 2021-ci il***

## *DÖYÜŞ DOSTLARIM*

## DƏLİ QULU



Arxadaşlar!

Biz ona Dəli Qulu deyirdik. O da bu ada alışmışdı. Hərbi rütbə kimi qəbul edirdi.

Döyüşlərin şiddətli getdiyi günlərin birində Culfa Müdafiə Komitəsinin döyüşçüləri səngərdə növbəni qəbul etdilər. Aramsız döyüşlər getdiyi üçün hər gün itkilərimiz olur, şəhidlərimizin sayı çoxalır, amma heç bir vəclə bir addım da geri çəkilmək haqqında düşünmək belə ağlımıza gəlmirdi. Təəssüf ki, artıq dostlarımız Səyyad, Əli, Canpolad, qohumum və kəndlim Vilayət şəhidlik zirvəsinə ucalmışdı.

Qulu abi hansı postda idi, dəqiq yadımda deyil. Ratsiya ilə Qulunun yaralandığını dedilər. Qulu rəhmətlik o qədər şən, zarafatcıl və məzəkeş adam idi ki, hamıyla dil tapırdı, zarafatlaşırdı. Uşaqlar onu görəndə daha da həvəslənir, daha da cəsarətlənirdilər. Vaxtilə Irandan silah gətirməyə getdiyimiz zaman yaxın münasibətdə olmuşduq. Dostluğumuz isə rəhmətlik Yaycılı Həstəlanla bir yerdə olduğumuz günlərdən sonra daha da möhkəmlənmşdi.

Bu xatirə dolu yazını yazmağıma isə dünən eşitdiyim və məni çox narahat edən bir hadisə vadar etdi. Səhər-sə-

hər abimiz Piket Həsənlə həmişəki mövzumuz olan keçmiş hərəkat, döyüş və mübarizə yoldaşlarımız haqqında xatirələrimizi bölüşürdük.

Həsən abi indiyə qədər heç eşitmədiyim çox təsirli bir xatirə danışdı.

Deyir, cəbhədə (AXC Naxçıvan qərərgahında) idim. Bir nəfər gəldi ki, səni bayırda çağırırlar. Həyətə çıxdım rəhmətlik Qəhrəmanın çayçısı tərəfdə üzü həyətə sarı avtomatlı bir nəfər durmuşdu.

Mənə tərəf dönəndə Dəli Qulu olduğunu gördüm. Məni niyə bura çağırdığı və niyə içəri gəlməmədiyini soruşdum.

- Yox içəri keçməyəcəm, eşikdə maşın gözləyir, Sədərəyə döyüşə gedirik-dedi. Sonra da - Səndən bir xahişim var- deyib əlindəki bükülü və skoçla bərk-bərk sarınmış bir kağızı mənə verdi və dönə-dönə xahiş elədi ki, indi açma. Mən şəhid olandan sonra açarsan.

- "Əəə Qulu yenə deyəsən Dəliliyin tutub. Nə şəhid, nə ölüm bizim hələ görüləsi işlərimiz çoxdur"- dedim.

Mənə "Salamat qal"- deyib qapıya tərəf qaçdı və yolda bir daha dönüb - "Piket, açma haa!"- deyərək avtomatını çiyninə atıb getdi.

Qulunu yenidən Sədərək döyüşlərində yaralanaraq Naxçıvan Respublika xəstəxanasında yatanda gördüm. Vəziyyəti elə də pis deyildi. Güllə sinəsindən dəymişdi.

Mənə, "bağlamanı açmamısan?"- deyə soruşdu.

-"Yox"- cavabımdan dərhal sonra,

- "Mən öləndən sonra açarsan"- dedi.

Çox təəssüf ki, elə həmin günün axşamı düşmən gülləsindən yaralanandan bir neçə saat sonra xəstəxanada şəhidlik zirvəsinə ucalan Qulu abimizi itirdik. Allah Qulu abimizə və bütün şəhidlərimizə rəhmət eləsin.

Həsən abi göz yaşları içində danışığına davam edərək, kağızda yazılanları şəhidimiz Qulunu dəfn edəndən sonra açıb oxuduğunu dedi.

Kağızda nə yazılsa yaxşıdı?

Rəhmətlik Qulunun kimlərə və nə qədər borclu olduğunun siyahısı!

Dəfndən sonra dostlarla yığışıb həmin borc pulunu toplayaraq borc verənlərə təqdim etdik.

Ruhuna qurban olum, ay Dəli Qulu!

Şəhid olacağını bilirmiş. O dünyaya şəhid kimi gedəcəyini bildiyindən, borclu olaraq şəhid olmağı özünə sığışdırmayan abim! Allah sənə rəhmət eləsin abi!

Biz Qulu ilə ara-sıra görüşsək də çox yaxın münasibətimiz Cənubi Azərbaycanda silah almaq üçün getdiyimiz zamanlar oldu. Biz Oktay bəyin rəhbərliyi ilə silah gətirmək üçün tez-tez Cənubda olurduq və həmin vaxt da Dəli Qulu Culfa Xalq Cəbhəsinin sədri Ramiz Tağıyev bəyin xüsusi nümayəndəsi kimi Culfanı təmsil edirdi. Bəzən Iran Culfasındakı oteldə bir otaqda qaldığımız zaman söhbətlərimiz nəticəsində mənə məlum olurdu ki, hələ Sovet hökumətinin qılıncının dalı və qabağı kəsdiyi vaxt Qulu Yaycılı Həstalanla (Allah rəhmət eləsin Həstalan abi çox ləyaqətli dostlarımızdan biri idi. Çox faciəli şəkildə dünyasını dəyişdi) Sovetin Irana göndərdiyi kontenerləri yarıb-

mışlar. Nəticədə isə Qulu uzun müddət həbsdə, Həstalan isə Orta Asiyada mühacirətdə gizli həyat yaşamalı olublar.

Danışıqlarımız belə idi ki, hər kəs öz kanalı ilə silah alır və aldığı adamın adını və yerini heç birimizə demir. Bu sistemi də Oktay bəy yaratmışdı ki, hər hansı birimiz tutulsaq o biri kanallar əldən çıxmasın.Qulu da əsasən axşamlar adamlarıyla görüşür və silah məsələlərini özü həll edirdi.

Onun üçün də Iran Culfasında mənim o vaxt üçün qeyri-adi sayılan rolu sağda olan Nissan maşınım hər axşam Qulunun sərəncəmında olurdu. Sonralar etiraf eləyirdi ki, hər dəfə maşını alanda tək silah məsələsi ilə məşğul olmurmuş.

Rəhmətlik, çox səmimi və enerji dolu bir insan idi. Həmişə zarafatla deyərdim ki, “Ay Dəli sənə niyə Dəli adı qoyublar, baxanda universitet məlliminə oxşayırsan”. Gülürdü.

Deyirdi ki, sən deyə-deyə axırda məni müəllim eləyəcəksən, mən bəndənin yox Allahın dəlisiyəm.

Piket Həsən abinin danışdığı məsələ vaxtı mən Sədərəkdə komandir idim və Mil təpəsi uğrunda ağır və qanlı döyüşlər gedirdi. Qulugilin gəldiyi dəstəni də qərərgahımız olan Heydərabad orta məktəbinin həyətində qarşıladım. Qulu ilə qucaqlaşıb görüşdük. Məni qolumdan tutub kənara çəkdi və dedi ki, ay Səyavuş, məni qabaq postlara ver qoy doyunca vuruşum!

Dəstəni Koroğlu bulağından tutmuş Qırmızılar deyilən yerə kimi Mil təpəsi ətrafı postlara düzdüm. O vaxt ya-

ratdığımız və Elman Abbasovun rəhbərlik etdiyi Dövlət Müdafiə Komitəsinin "Sport rotasının" komandoları da indi Isveçdə mühacirətdə olan, veteranlar arasında üç qat dünya və dəfələrlə Avropa çempionu, uşaqlıq dostum Səfər Əliyevin rəhbərliyi ilə Mil ətrafı döyüşlərdə qəhrəmanlıq göstərirdi.



Bizdən sonra Ucubiz yüksəkliyində OMON-lar Azər abinin komandanlığı ilə, Əjdəkan və Beşbarmaq istiqamətdə AXC-nin "Şərur Qartalları" könüllü batalyonu qəhrəman Şahmərdan abimizin başçılığı ilə və Cin təndiri, Əliqulu uşağı bağlarındakı və bütün on kilometrlik döyüş cəbhəsi perimetirliyinin hamısında qəhrəman Sədərək kəndinin igid oğulları Ələsgər həkimin, Xəlil müəllimin, Vəli məllimin və digər yerli sərkərdələrin rəhbərliyi ilə vuruşurdu.

Çox ağır və qanlı-qadalı günlər idi. Demək olar ki, hər gün şəhid və yaralılarımız olurdu.Coxu “Sport rotadan” olmaqla 18 nəfər qəhrəman şəhidimizin müqəddəs nəşi neytral ərazidə qalmışdı. Mən isə döyüş bölgəsinin ümumi Komandiri olsam da heç vaxt qərərgahda oturmazdım.

Bütün postları gəzir, döyüşçülərə ürək-dirək verir və əsasən də Koroğlu bulağının üstündəki birinci postda vuruşurdum. Bütün bu gərginliyin içində ratsiyadan (Az güclü səyyar radiostansiya) bir səs gəldi.

- Dəli Qulunu vurdular.

Dünya başıma dolandı.

Düzü hər gün belə hadisələrin şahidi olduğumdan elə bil ki, bir növ " zombiləşmişdim".

Amma Dəli Qulunun vurulması xəbəri məni lap dəli elədi. Aşağı doğru qaçdım. Mən çatanda artıq Süleyman həkimin rəhbərlik elədiyi həkim briqadası Qulunu təcili yardım maşınına qoyurdu.

Sinəsindən vurulmuşdu. Çoxlu qan itirdiyindən rəngi ağappaq ağarmışdı. Mən çatanda məni gördü və dikəlmək

istədi. Qoymadım. Həmişəki kimi zarafatla könlünü almaq üçün, dedim:

- Pribaltikalı qızlarla (o vaxt kəşfiyyat məlumat vermişdi ki, ermənilər pribaltikadan snayperçi qızlar gətiriblər) əlaqəyə girib, dedin ki, səni yaralasınlar şəhərə qayıdasan hə?

Gülümsədi. Halsız olmağına baxmayaraq, yerindən qalxmaq istəyərək yavaş səslə:

- Komandir vallah mən getmək istəmirəm. Həkimi göstərərək:
- Bunlar qoymur -dedi:

Qan paltarını demək olar ki yaş eləmişdi. Qucaqladım o üz bu üzündən və nədənsə alnından da öpdüm. “Şəhərə salam de”-dedim və o vaxt bilmədiyim halda əbədi olaraq ayrıldıq…

Döyüşdə olduğumdan heç dəfnində də iştirak edə bilmədim. Daha doğrusu Sədərəkdə vəziyyətin ağırlığını nəzərə alaraq Qulunun şəhidliyini Elman Abbasovun göstərişi ilə bir neçə gün məndən gizlətmişdilər.

Allah cəmi şəhidlərimizə rəhmət eləsin!

***2 Kasım 2023-cü il***

## ELŞAD SALAYEV



Arxadaşlar!

Vallah mən heç vaxt Laçında olmamışam, amma Arif bəyi tanıyandan elə bilirəm Laçında doğulub böyümüşəm. Laçında şiş qayaların başında oturub qıy vuran qartallara tamaşa etmişəm, Laçının buz kimi bulaqlarından su içmişəm. Çünki Arif Paşa elə Laçın deməkdir.

Arif abiylə qiyabi tanışlığımız 1990-cı ilin yayında olub. Belə ki, Azərbaycan Tibb Institutunun son kurslarında oxuyan, nehrəmli Nəsimi Elçibəyin tapşırığı ilə Naxçıvana gəlmişdi. Tapşırıq ondan ibarət idi, Arif bəyin yaratdığı ilk könüllülər alayına minomyot aparaq.

Sovet ordusunun hələ tam gücdən düşmədiyi, üstəlik fövqəladə vəziyyətin hökm sürdüyü vaxtda rus hərbiçilərindən böyük məbləğdə pulla minomyotu almaq nə qədər çətin idisə, minomyotu "Noraşen-Bakı" qatarıyla Bakıya, oradan da Laçına aparmaq ondan da çətin idi. Çünki Sovet hərbiçiləri qatara minənlərin yüklərini diqqətlə yoxlayırdılar. Bu çətinlikdən daha təhlükəlisi qatarın Ermənilərin nəzarəti altında olan Meğri və Karçevan stansiyalarından keçərkən orada durması idi.

Naxçıvan könüllülərindən ibarət Müdafiə Komitəsinin rəhbəri Oktay Baxşəliyev təcili yığıncaq çağırdı. Orada

vəzifə bölgüsü aparıldı. Nəsimiyə, Elşada  və mənə cəbhəçilərin Rus zabitlərindən gizli yolla alıb gətirəcəkləri minamyotu Arif Paşayevə çatdırmaq tapşırıldı. Oktay üzünü bizə tutaraq dedi: “Bu silahı ruslardan almaq, gətirmək nə qədər riskli və çətindirsə onu qatarla Bakıya aparmaq ondan daha çətindir. Bu işi ancaq siz görə bilərsiniz.Gedin səfərə hazırlaşın”.

Qaraxanbəyli kəndi dəmir yoluna yaxın olduğuna görə Elşadla bizə getdik. Cəbhəçilər "soldat  plaş nokidkası”na bükülü  minomyotu  bizim evə gətirdilər. Biz minomyotun çanağını və lüləsini təzədən parçaya bükərək “səfər” vəziyyətinə gətirərək Oktay bəyi gözlədik.

20 yanvardan sonrakı "Fövqəladə vəziyyət" hələ götürülməmişdi.  Buna görə də hər tərəfdə silahlı rus əsgərləri gəzirdi. Oktay bəy biletlərimizi alıb gəldi.  Minomyotu maşına qoyub Naxçıvan dəmiryol vağzalına gəldik. Gördük ki, perron milis və silahlı rus əsgərləri ilə doludur. Fikirləşdik ki, yəqin “qoxu biliblər”.  Buradan minomyotu vaqona keçirmək mümkün olmayacaq. Cəhd etsək ilişəcək. It də gedəcək, ip də.

Oktay bəy Elşadla mənim vaqona minib yerlərimizdə oturmağımızı tapşırdı. Özü isə Nəsimi ilə Nehrəm kəndi yaxınlığındakı Qızıl Vəng stansiyasına gedəcəyini, minomyotu orada qatara yükləyəcəyini dedi.

Vaqon bələdçisindən başqa hərbiçilər də diqqətlə biletlərimizi və sənədlərimizi yoxladılar. Başqa bir vaxt olsaydı çoxdan hərbiçilərlə davaya çıxar, onların hərəkətinin

qanunsuz olduğunu isbat edərdik. Bu dəfə fağır-fağır oturaraq vəziyyətdən çıxmağa çalışırdıq.

Qızıl Vəng stansiyasında qatar çox az dayandığından nehrəmlilər belə qatara Naxçıvandan minirdilər. Bilirdik ki,  Qızıl Vəngdə elə də ciddi yoxlama olmur. Qatar Qızıl vəngə çatanda Oktaygil hazır vəziyyətdə bizi gözləyirdilər. Nəsiminin Nehrəmli olmağı onun Qızıl Vəngdən minməsinə, özü ilə nəsə aparmasına şübhə yaratmırdı. Iki-üç dəqiqə ərzində ayrı-ayrı bükdüyümüz minomyotun lüləsini və çanağını plaskart vaqonun üçüncü mərtəbəsinə yerləşdirdik. Qatar hərəkət etdiyindən Oktay bəy və ona kömək edənlər vaqondan enməyə macal tapmadılar. Oktay bəy pəncərədən sürücüsü Əbiliyə Culfa stansiyasına gəlməsini tapşırdı.

Plaskart vaqonda bizimlə yanaşı oturmuş qoca bir kişi, qan-tər içində vaqona ağır bir şey yüklədiyimizi görüb: "Ay bala bu nədir belə aparırsınız?" deyə soruşanda, mən: "Əmi, biz də gedib özümüzə sənət tapdıq da.Geoloquq. Nehrəm dağlarında filiz axtarırdıq. Bakıdan çağırıb başqa yerə göndərmək istəyirlər." deyə verdiyim cavab kişini qane eləsə də, dostların gizli gülüşlərinə səbəb oldu.

Qatar Culfaya çatanda Oktay bəy və onunla gələnlər sağollaşıb getdilər. Nəsiminin də bileti başqa vaqona olduğundan o da öz vaqonuna getdi.

Qaldıq Elşad, mən və minomyotumuz.

Rus soldatları itlə birlikdə vaqonlarda o tərəf, bu tərəfə gəzsələr də plaskart vaqonda gedən kasıb sərnişinlərə o qədər əhəmiyyət vermirdilər.

Qatar Mehri stansiyasına çatıb dayananda Sovet sərhədçiləri vaqonumuzun bələdçisinə tapşırdı ki, vaqonun qapısını açmasın. Qapını ermənilər zorla açmaq istəsələr tez onlara xəbər göndərsin.

O vaxt ermənilər onsuzda Bakıya getməyə cürət etmədiklərindən Mehri stansıyasından bilet alan, oradan vaqona minən və ya düşən olmurdu. Amma bəzən elə olurdu ki, ermənilər stansiyada dayanan vaqonları daşlayır və hətta vaqonun içinə girərək bizim vətəndaşlara hücum edirdilər.

Bu dəfə perronda gəzişərək qatardakılara tərs-tərs baxanlar nə daş atdılar, nə də vaqonlara hücum etməyə cürət etdilər.

Elşad qulağıma: "Qoy baxsınlar, biz elə bir silah aparırıq ki, bəlkə də burdakıların özlərini Qarabağda bu silahla gəbərdəcəklər" deyərək perrondakı saqqallılara işarə edirdi.

Elşadda silah yox idi. Məndə isə Oktay bəyin heç kimə etibar etmədiyi və Culfaya çatmamış mənə verdiyi TT tapançası vardı. Silahı verərkən də bərk-bərk tapşırmışdı ki, nə olar, nə olmaz, amma çalış maksimum istifadə eləmə.

Mehridən keçəndən sonra rahat nəfəs aldıq. Qarşıdakı Nüvədi stansiyası sənəddə Ermənistanın ərazisi olsa da orada yaşayanlar bizimkilər idi.

Biz tapşırığı lazımınca yerinə yetirib təyyarə ilə geri qayıtdıq.

Elşadla döyüşə getməyin, silah qaçaqmalçılığına getməyin də, yeyib-içməyin də ayrı ləzzəti vardı.

1993-cü ilin hadisələrindən sonra Vətən üçün canından keçməyə hazır olanları pərən-pərənə saldılar. Elşad

Rusiyaya qaçdı,mən həbs olundum. Elşad min bir əziyyətlə qazandığı puldan həbsxanada olanlara, çətin vəziyyətdə qalan cəbhəçilərə kömək edirdi.

Mən həbsdən çıxandan sonra onunla bir neçə dəfə Rusiyada və Azərbaycanda görüşdük, ötənləri yada saldıq.

Bir gün Elşadın oğlu Rəşadın xaraba qalmış Rusiyanın Uxta şəhərindən verdiyi bəd xəbər məni sarsıtdı. "Səyavuş əmi, Kişi rəhmətə getdi!"-dedi.

Sonra ailəvi dostluq elədiyin mənim Məhəmməd əmim sənin nəşini Moskvadan Naxçıvana gətirəcək. Koronaya görə təyyarə işləmədiyi üçün sənin dəfn mərasimində iştirak edə bilmədiyimizdən Əli Şamilin rəhbərliyi ilə Bakıda sənə yas mərasimi keçirəcəyik. Dostlarla səni anıb, sənin xatirələrinlə özümüzü ovunduracayıq.

… Elşad Ibrahim oğlu Salayev 1959 cu il Babək rayon Zeynəddin kəndində anadan olmuşdu. (Ibrahim Ibrahimliylə bir kəndli idilər) Milli Azadlıq Hərəkatının öncüllərindən idi. Babək rayon könüllülərdən ibarət Müdafiə Komitəsinin sədri olmuşdu.

Elşadla çox döyüşlərdə bir səngərdə vuruşmuşuq.

Irandan qaçaq yolla silah gətirəndə çox hadisələrlə üzləşmişik.

Çox qorxulu və riskli səfərlərimiz olub. 28 il vətəndən uzaqda vətən həsrətiylə yaşadı. 8 iyul 2021-ci ildə Rusiyada korona xəstəliyinə tutuldu və bu dünyadan köçdü.

Bu da son. Allah rəhmət eləsin!

***15 Mayıs 2024-ci il***

# ƏBDÜL MƏMMƏDOV



Əbdül Cəlal oğlu Məmmədov Babək rayonunun Cəhri kəndində çoxuşaqlı bir ailədə dünyaya göz açmışdı. Qardaşları, bacısı uşaqları Milli Azadlıq Hərəkatında fəallıq edirdilər. Sərdar Cəlaloğlu Naxçıvandakı gizli dərnəklərdən birinin üzvü olmuş, 1988-ci ildə gizli dərnəklərin birləşdirilməsində, Xalq Cəbhəsinin yaradılmasında böyük əməyi olmuşdur.

Əbdül siyasi məsələlərdə Sərdar qədər fəal olmasa da Naxçıvanın müdafiəsində böyük əməyi olan cəsarətli döyüşçülərdən idi. Onun təşkil etdiyi könüllülərdən ibarət batalyon Kərməcatağın, Buzqovun, Sədərəyin qorunmasında iştirak etmişdi.

Batalyon deyəndə gözümüzün qarşısını silah və sursatla, geyimlə, ərzaqla təmin olunmuş bir əsgəri dəstə gəlir. Bizim batolyon adlandırdıqlarımız isə elə deyildi. Sayı gah artan, gah azalan, döyüşçüləri tez-tez dəyişən, geyimini, yeməyini, silahını bir sözlə hər şeyini özləri təşkil edib könüllü ölümə getməkdən çəkinməyən cəngavərlər idi.

Əbdülün "Duzdağ" adlandırdığımız batolyonunda kimlər vardı: kiçik qardaşı Yunis, bacısı uşaqlarından, indi Hürriyyət qəzetinin redaktoru olan Vüqar Məmmədov, Hüseyin Cəfərov, adlarını çəkə bilməyəcəyim başqa qo-

humları və onlarla Cəhridən toplanmış qeyrətli vətən oğulları. O, qayda-qanuna əməl etməyi sevdiyindən dəstəsini Dövlət Müdafiə Komitəsində qeydiyyata aldırmışdı.

Sədərəkdə döyüşlər gedəndə Əbdül dəstəsilə gəlmişdi. Gecə səhərə qədər şiddətli döyüşdə iştirak etmişdilər. Onlar postu təhvil verib gedəndən sonra döyüşlər daha da şiddətləndi. Ona görə bizə əlavə qüvvə lazım gəldi. Mən qərargah etdiyimiz məktəbin zirzəmisinə endim. Sinif partalarının üzərində yatan Əbdülün çiyninə toxundum. Gözləmədiyim qıvraqlıqla ayağa qalxdı və "Bəli komandir"- dedi.



*Şəkildə Səuavus Mustafa*
*Əbdül Məmmədovun*

Dedim: "Əbdül bəy uşaqlar da, sən də çox yorğunsunuz, sizə qıymıram, amma postlarda vəziyyət ağırdır" elə bunu demişdim döyüşçüləri qərərgahın həyətində sıraya düzdü. Kimin hansı posta gedəcəyini təyin eləyib dağa qalxmadan qabaq mənimlə qucaqlaşdı: "Narahat olma, komandir!"- dedi. Mən də: "Uşaqlardan muğayat ol!"- deyib Sədərəyə getdim ki, oradan Naxçıvanla danışıb yeni qüvvə göndərmələrini təşkil edim. Heydərabad qəsəbəsində rabitə kəsilmişdi. Ona görə də Naxçıvanla Sədərəkdən əlaqə saxlayırdıq.

Günortaya kimi yenə çox güclü atışma davam etdi. Günortaya yaxın Əbdülün vurulduğunu xəbər verdilər. Döyüş isə yenə əvvəlki şiddəti ilə davam edirdi.

Əbdülü döyüş mövqeyindən çıxardıb təcili yardıma çatdırdıq. Belindən yaralanmışdı və aramsız olaraq qan itirirdi. Amma huşu hələ ki, özündəydi. Dedi: "Komandir, Süleyman həkimə de, məni Şərurda səhv etmirəmsə Firdovsi həkimin yanına çatdırsın".

Bu yerdə bir haşiəyə çıxım.

2016-nın aprel döyüşlərində Əbdül abinin oğlu mayor Rasim Məmmədov qəhrəmancasına şəhid olmuşdu. Mən Bakıdan Naxçıvana yas mərasiminə getdim. Cəhridə yas çadırına girəndə qardaşları Sərdar, Qurban, Yunis və bacıoğululları Vüqar abiləri gördüm. Əbdül yox idi. Soruşdum, Qurban bəy dedi ki, "Yataqda sistem altındadı, dura bilmir".

Əbdül abi Sədərəkdə yaralanandan sonra bir daha ayaq üstə qalxa bilmədi. 24 il əl arabasında gəzmək məc-

buriyyətində qalmışdı. Indi isə oğlunun şəhidlik zirvəsinə ucaldığı bir vaxtda arabada belə otura bilməyəcək vəziyyətə düşməyi mənə çox pis təsir elədi.

Əbdül abi uzanan otağa getdik. Məni görən kimi dikəlib oturdu. Qolundakı sistemin iynələrini dartıb çıxartdı. Nə qədər elədim dedi: "Komandir, mən səninlə uzanmış vəziyyətdə qolumda sistem görüşə bilmərəm". Çoxlu söhbət elədik. Keçən günlərimizdəki döyüşlərimizin hamısı xırda detallarına kimi yadındaydı.Dedi: "Komandir, indi rahat ölə bilərəm. Oğlum Rasim mənim qisasımı ermənilərdən aldı. Sədərəkdəki döyüş hadisələrini də ən kiçik xırdalıqlarına kimi yadında saxlamışdı. Mənim onu təcili yardım maşınına uzatmağım, yolda huşunu itirməyi, iki dəfə ayılıb Süleyman həkimi başı üstündə görməyi. Üçüncü dəfə Şərurda özünə gəlməyi və dostu olan həkimi görməyi və s.

Rasimin şəhidliyindən 24 gün sonra 24 il ayaqları üstündə dura bilməyən Əbdül abi də dünyasını dəyişdi. Allah rəhmət eləsin!

***21 Mayıs 2021-ci il***

## GOBUD VƏLİ



Arxadaşlar!

Dünən bu acı xəbəri eşidəndən hələ də şokdayam...

Dostlar, köhnə hərəkatçılar olaraq hamımızın adından nekroloq yazmamı istədilər. Mən isə hələ də özümə gələ bilmirəm.

Telefon açan Gülya xanım, Nəriman, Piket Həsən, Bədrəddin, Şahmərdan, Qorxmaz, Nürəddin, Alper baş sağlığı verən Naxçıvanın keçmiş hərəkatçıları qrupumuzdakı dostlar və b. abilərin telefonda kövrələrək danışmaları da mənə yuxu kimi gəlir. Elə bilirəm bəlkə bütün bunlar xəyaldı. Sanki, indicə telefonum zəng çalacaq. Vəli Əsədov (Adətən onu soyadı ilə deyil Oktay Baxşəliyevin verdiyi ləqəblə "Gobud Vəli deyə çağırardıq. O da bundan qətiyyən inciməzdi): "Mustafayev (məni həmişə soyadımla çağırardı) Nərimana de bu gün bizə "baxsın da bə"- deyəcək.

Nə bilim abi! Səni başqa cür təsəvvür edə bilmirəm.

Sənin adını eşidəndə birlikdə döyüşdüyümüz səngərlər, 40 dərəcə soyuqda çiynimizdə silahlar Arazın buzlu sularına girməyimiz, həbsxanada yan-yana kravatlarda yatmağımız,Elmanla Naxçıvan Muxtar Respublikası Sularda Xilas Etmə Cəmiyyətində işlədiyimiz, sənin komandir olduğun və ölkədə ilk yaradılan alayda bərabər parad

qəbul elədiyimiz, Sədərək döyüşlərində patronumuzun az olduğundan uşaqların "odinoçnu" atəş açmaları üstündə mübahisəmiz, gətirdiyimiz erməni əsirlər Arsen və Tomasın harda saxlanılması məsələsindəki sporumuz, Yuxarı Buzqov kəndində Bormanla (Intiqam) birinci postdakı bal məsələsi, gömrük polisinin rəisi işləyərkən Gömrük Komitəsinin sədrinin 4-5 kilo qızılını sərhəddə tutmağın və daha nələr, nələr gəlir gözümün önünə...



***Şəkildə Naxçıvan döyüşçülərindən bir qrupu***

Erməniyə can verməyən Gobud Vəli, Polkovnik Vəli, Kamaz Vəli, Komandir Vəli və Vəli bəy belə asan ölümə necə can verə bilər abi?

Bu necə baş verdi abi?

Silah əlində ölməyən Vəli bəy əlində lapatka yer bellə-yərkən necə ölə bilər? Piket Həsənin telefonda ağlaya-ağlaya -"Bəy, ürəyində stend var, çalış sən də çox narahat olma, əvvəl axır hamımız gedəcəyik, dünyanın işi belədi"-deməsi…

Gedəy eeeyyy.. Həsən abi!

Buna etiraz etmirəm, onsuz da hamımız əvvəl axır getməliyik.

Amma necə gedək?

Təki gedəndə əlimizdə lapatka yox silah olsun!

Hara kimi deyirsən gedək!

Axı biz elə belə gedə bilmərik ki, abi!

Ən azı hərəmiz 10 dənə düşmən erməni aparmalıyıq.

Nə isə...

Allah səni bağışlasın Vəli abi!

Bəyə, Şaha, Arifə, Oktaya, Ibrahimə, Elşada, Hicrana, Mir Əsgərə və indi səninlə cənnətdə olan bütün dostlara salam de!

De ki, gözləsinlər gələcəyik!

Amma Xankəndindən, Xocalıdan, Şuşadan, Təbrizdən, Kərkükdən, Urumçidən, Altaydan və bütün Turan ellərindən keçib gələcəyik!

Mütləq gələcəyik!

***28 Kasım 2022-ci il.***

## İBRAHİM SALAHOV



Arxadaşlar!

Ibrahim abinin yaş günüdür.

Ata-anasının Ibrahim adı verdikləri, lakin cəbhəçilərin nədənsə Hacı adlandırdığı döyüşçü ilə səngərdə tanış olmuşduq. O vaxt, yəni 1989-cu ilin payızında mən Bakıda ali təhsilimi başa vurub Naxçıvana gəlmişdim. Sərhəd hərəkatına hazırlıq gedirdi. Sərhəd boyu əl-ələ verib düzülmə aksiyası keçirdikdən sonra Ordubadda, Culfada, Nehrəmdə, Şahtaxtında və Şərurda sərhəd yaxınlığında çadırlar qurub gecəli-gündüzlü orada qalırdıq. Bir gün "trivoqa" oldu və Naxçıvan könüllülərindən ibarət Müdafiə Komitəsinin sədri Oktay abi məni çağırıb dedi ki, Yuxarı Buzqovda atışma başlayıb, öz uşaqlarını və şəhərdən də beş-altı nəfər götürün Buzqova qalxın. Amma elə eləyin ki, sərhəddə olanlar bilməsin. "Sərhəd hərakatı" pozulmasın.

Biz şəhərə (naxçıvanlılar dünyanın hansısa ən məşhur şəhərində olsalar belə adsız şəhər deyirlərsə deməli Naxçıvan şəhərini nəzərdə tuturlar) gəldik və Naxçıvan Könüllü Müdafiə Komitəsinin yerləşdiyi "Kümbəz"də toplaşdıq.

Şəhərdən gələn döyüşçülərə Hacı başçılıq edirdi. Elə orada tanış olub döyüşə getdik və Buzqovda səngərdə xeyli  söhbətləşdik. Bu söhbtləşmə bizi yaxın dosta çevirdi.

1992-ci ilin may ayında Sədərək döyüşlərinin ağır vaxtları idi. 18 cəsur döyüşçümüz şəhid olaraq Mil təpəsinin altında "Neytral" dediyimiz yerdə qalmışdı.

Mən Naxçıvan Muxtar Respublikası Idman Komitəsinin sədri olmağıma rəğmən Sədərək döyüşlərində əsasən Mil təpəsi ətrafındakı könüllü, milli müdafiə, polis və OMON-dan ibarət döyüşçülərə ümumi komandanlıq edirdim. Hacı öz dəstəsiylə gəldi və onları Koroğlu bulağının üst tərəfindəki postlara yerləşdirdim.

Demək olar ki, hər gün yaralı və şəhidimiz olurdu. Peşəsi rəssamlıq olsa da Qarabağ hadisələrindən sonra cəbhəçiyə, döyüşçüyə çevrilmiş Hatəm bəy də həmin səhər yaralanmışdı. Günortaya yaxın ratsiyayla xəbər verdilər ki, Hacı yaralanıb. Mən onların döyüşdüyü yerə getdim. Əbil abinin qan-tər içində Hacını səngərdən aşağı endirmək istədiyini gördüm. Növbə ilə çiynimizdə daşıdığımız Hacı onu buraxıb uşaqlara kömək etməyimizi bizdən xahiş edirdi.

Çox cüssəli adam olan Hacını ikilikdə dağdan endirib təcili yardım maşınına çatdırdıq. Mən də çoxlu qan itirdiyindən şoka düşməsin deyə həmişəki kimi zarafat eləyirdim ki, "sən qəsdən yaralandın ki, bizim dalımıza minəsən?"

Qərərgaha az qalmış çoxlu qan itirdiyindən sifətində gülüş mimikası qalsa da artıq "özündən getmişdi". Mən birinci dəfə idi ki, güllə yarasının verdiyi əzabdan qıvrılaran adamın özündən getdiyi vəziyyətdə sifətində gülüş ifadəsi qaldığını görürdüm. Hacı elə o cür "gülən sifətlə" də mənim yaddaşımda həkk olub. Sonralar Naxçıvan xəstəxana-

sında müalicə olunanda da, Türkiyədə müalicə olunub gələndə də, indi də Hacını görəndə o gülüşü yadıma düşür. Hacı Naxçıvan Xalq Cəbhəsində sayılıb seçilən döyüşçülərdən idi. Həmişə ən mühüm əməliyyatlara Hacı qatılırdı. O cümlədən Rəhim Qaziyevin və Nemətin 20 yanvardan sonra qaçıb gəldiyi Naxçıvandan Araz vasitəsi ilə Irana, Fəhmin Hacıyevin gizli şəkildə Türkiyə Cümhuriyyətinə keçirilməsində də yaxından iştirak etmişdi.

Əslində heç indi də neçə yaşının olduğunu bilmədiyim 32 ildir bədənində qəlpə gəzdirən və ürəyindən açıq əməliyyat olan Hacı abinin (biz döyüşçülər heç vaxt bir-birimizin yaşını soruşmurduq) döyüş ruhu o vaxtkı kimidir!

Səni bağrıma basıb cani dildən təbrik edirəm abi! Vətənimizin şərəfli qazi oğlu Ibrahim Salahov!

***3 Mayıs 2024-cü il.***

Arxadaşlar!

Qazi Ibrahim (Hacı)Salahovun ruhuna salam olsun!

Iki gün əvvəl Ibrahimin vəziyyəti pisləşmişdi. Mən də Sədərək şəhidlərinin anım günüylə əlaqədar Naxçıvana uçurdum. Dedim: "Abi bəlkə getməyim,bileti qaytarım gəlim sənin yanına?" Dedi: "Yox Bəy, sən onsuz da bir dəfə məni ölümdən qurtarmısan, (1992-ci ildə Sədərək döyüşlərində Ibrahim abi yaralananda Əbil bəylə Mil təpəsindən çiynimizdə yendirmişdik aşağı) get qoy şəhid dostlarımızın ruhu səni yanlarında görüb sevinsinlər.



*Şəkildə Hacı (İbrahim Salahov) qızı Yağmurla birlikdə*

Getdik! Xanımım şəhid Milli Qəhrəman Mir Əsgər Seyidovun bacısı kimi, mən isə Sədərək döyüşlərində Mil təpəsi uğrunda gedən döyüşlərin komandiri kimi toplantıda iştirak edib gecə saat 3-də Bakıya qayıtdıq.

Səhər tezdən isə Tarverdinin ağlayaraq atdığı mesaj ruhumu dondurdu. "Ibrahim qardaşımız artıq bizi tərk etdi! "

Ölümündən üç dəqiqə qabaq isə “whatsApdakı” “Naxçıvan hərəkatçıları” qrupundakı mesajında yazıbmış: "Qarabağ Azərbaycandır! Mən sizi tərk etdim. Sağlıqla qalın"

Sənin qeyrətinə qurban, Ibrahim abi!

Ölən dəqiqəsinə kimi Qarabağı düşünən Kişi!

Həyatının son anında fəryad etməyən, bu dünyadan beş əlli yapışmayan və sadəcə "Mən sizi tərk etdim"yazan silahdaş! (Həm də, edirəm yazmadın, etdim yazdın)

Ölümün sinənə çökdüyü anda belə dostlarına sağlıq diləyən dost!

Düz bir ay əvvəl sənin yaş gününə yığışmışdıq. Sənə söz veriləndə: "Mən onsuz da 32 ildir Səyavuş bəyin hesabına yaşayıram" dedin.

Yox abi, sən mənim yox, əksinə biz sənin düz 32 il 1 ay bədənində gəzdirdiyin və özünlə o dünyaya apardığın mənfur düşmən gülləsinin hesabına yaşayırıq.

Sən o gülləni biz döyüş yoldaşlarının, o tay, bu taylı Ana vətənin, canından çox sevdiyin Turanın sinəsinə sancılmasın deyə öz bədənini sipər edərək qazandın.

Həmişə deyirdin komandirimiz Oktay bəydən sonra komutanımız sənsən. Indi sən komandirimizin yanındasan. Komandirimiz Oktay bəyə salam söylə Ibrahim abi. De ki, Qarabağ Azərbaycandır!

PS. Ibrahim bəyin 3-7 yas mərasimi Məhəmmədi kəndində Kürdəxanıya gedən yolun sol tərəfindəki binanın altında "Dırnıs" mərasim evində 22 may 2024 cü ildə, saat 10. 30-dan başlayaraq keçiriləcəkdir.

***20 Mayıs 2024-cü il***

# MİR ƏSGƏR SEYİDOV




Arxadaşlar!

Bu gün Mir Əsgərimizin Şəhadət zirvəsinə ucalan gündür. Nəşini ala bilmədiyimiz o 3 gün mənə nələr yaşatmadı, Ilahi!

Sədərək döyüşləri təzə bitmişdi. Şəhidlərimizi dəfn etsək də gözlərimizin yaşı hələ qurumamışdı, yaralılarımızı da Bakıya və Ərzuruma müalicəyə göndərmişdik.

Mən isə Naxçıvan mərkəzi xəstəxasında ayağımdakı qəlpələrdən və böyrəyimdən müalicə olunurdum. Gecə Babək rayonu Yuxarı Buzqov kəndinə hücum olur. Mənə bildirmədən Mir Əsgər Qaraxan döyüşçüləriylə ora gedirlər.

Səhərə kimi ağır döyüş gedir. Xeyli erməni gəbərdirlər. Bizdən Mir Əsgər şəhid olur, polis nəfəri Həsən, dostum Hüsen, kirvəmiz Ramiz və rəhmətlik şofer Fərəməz əmi yaralanır.

Düzü heç indi də xatırlaya bilmirəm ki, mənə bu xəbəri kim verdi, mən Buzqova necə və kimlə getdim. Onu bilirəm ki, yenidən dağların arasındakı həmin "Qətər" deyilən döyüş yerinə qalxanda nəşin orda olmadığını öyrəndim.

Naxçıvana qayıtdım. Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin yanına getdim. Daxili Işlər Naziri Məmməd Məmmədov da orda idi. Heydər Əliyev Ermənistan Ali Sovetinin sədr müavini ilə danışdı. Onlar bu hadisədən xəbərləri olmadığını dedilər. Heydər Əliyev bizim Daxili Işlər Nazirinin onlarla daima əlaqə saxlayacağını dedi.

Mənim çox narahat vəziyyətimi görüb ürək-dirək verdi. Köməkçisi Vasif Talıbova su gətizdirdi. Mənə də Məmməd məllimlə gedib onunla bir yerdə olmağımı istədi. Dayımın bu işdən xəbəri olub olmadığını soruşdu. Özünün də Ermənistanla tez-tez əlaqə saxlayacağını, tezliklə şəhidimizin nəşini alacağını dedi.

Biz Məmməd müəllimlə DIN-ə gəldik. Nə qədər orda olmağımızı, Məmməd müəllimin neçə dəfə ermənilərlə danışdığını deyə bilməsəm də, elə hər danışığında rəhmətliyin polis polkovnikinin oğlu olduğunu və təsadüfən ora getdiyini və s. (Он сын полковника нашего Министеğства. Совсем случайно там окаçался) deyirdi.

Yadımdadı ki, məni arxaya istirahət otağına keçirtdi ki, uzanıb dincəlim.  Orada yuxu məni tutur. Nə qədər yatdığımı bilmirəm, onu bilirəm ki, Məmməd müəllim məni oyadıb dedi ki, Kişi zəng vurmuşdu, deyir danışmışam səhər meyidi verəcəklər.

Mən harda olduğumu, nə baş verdiyini sanki, onda anladım. Bütün varlığımla arzuladığıma baxmayaraq bunların yuxu olmadığını o an dərk etdim.

Gecə olmağına baxmayaraq təbii ki, evə gedə bilməzdim.Yaxınlıqda olan və sədri olduğum Naxçıvan MR Idman Komitəsinə getdim. Çox az- az olduğum kabinetimdə seyfdəki avtomat silahım da, komfulyajım da, sapoqlarım da,beretim də hamısı yerindəydi. Orda bildim ki, mən Buzqova mülkü geyimdə və silahsız gedibmişəm. (Döyüşə gedəndə evdə bilməsinlər deyə həmişə hərbi geyimimi və silahımı iş yerimdə saxlayırdım).

Sanki bir boşluq içində fırlanırdım. Mirəsgərin sifəti gözümün önündən getmirdi. Yanımda şəhid olan bütün dostlarımın şəhadəti mənə eyni səhnəni yaşatmışdı. Abbasəli, Idris, Qulu, Əli, Vilayət, Bahadur, Müşviq və başqa dostların şəhadəti mənim indi də gözümün önündədir. Allah hamısına rəhmət eləsin.

***15 Haziran 2020-ci il***




***Şəkildə: Şəhid Milli Qəhraman Mirəsgər Seyidovun Naxçıvan şəhərindəki Şəhidlər xiyabanındakı məzarını ziyarət edərkən***

Arxadaşlar!

Mənim qrad silahından zəhləm gedir. Təkcə ona görə yox ki, bizim birinci şəhidlərimizdən olan Sədərəkli 6 yaşlı Elvin və 4 yaşlı Malik qardaşları həyətdə oynadıqları yerdə qradla öldürüldülər, həm də ona görə yox ki, ilk dəfə 1990-cı ilin 20 yanvarında quş gülləsiylə döyüşə gedəndə, qrad atəşləriylə başımıza od ələnilib.

Ona görə ki, 1992-ci ilin bu günü, yəni 17 iyun gecə saat 4-də Sədərəyin aşağısından,Türkiyəylə aramızdan axan Araz çayı sahilindəki birinci sərhəd zastavasında rus əsgərləri mənim dünyalara və arzularına sığmayan şəhid dayı oğlumun (həm də qaynımın) nəşini qrad mərmilərinin yeşiyinin içində təhfil verdilər.

O vaxtdan qraddan atılan atəşləri görəndə Mir Əsgəri xatırlayıram. "Vur komandir,vur" deyən əsgərimizin komandirinin atdığı, adını bilmədiyim silahın, düşmən helikopderinə dəyən mərmisini görəndə Mir Əsgəri xatırladım.

26 illik atəşkəs dövründə düşmənə atılan hər bir mərminin vıyıltısını eşidəndə, od püskürməsini görəndə, aprel şəhidlərinin atdığı hər bir atəşi görəndə Mir Əsgəri xatırlayıram. Ondan sonrası isə hamısı xəyaldı.

Biz nəşi alıb səhər saat 6-da Naxçıvana, Cümə məscidinə çatacayıq. Şəhidimiz yuyulub kəfənlənəcək. Kəndə aparacayıq. Mənə dünyada ən ağır əzab və işgəncə olan, ana-bacıların şəhid üstündə ah nalələrlə, baş yolmaqla, üz cırmaqla, sinə döyməklə ağlamaqlarının şahidi olacayıq. Sonra Şəhidlər Xiyabanı gəlir.

Qürur yerimiz, and yerimiz, Məkkəmiz, Mədinəmiz sandığım Şəhidlər Xiyabanı!

45 gün əvvəl mənim və bacısının toyumuzda cəmi 3 şəhiddən ibarət Naxçıvan Şəhidlər xiyabanını ziyarət edərkən Mir Əsgər özünə məzar yeri seçdiyi və "mənim məzarımı niyə ziyarət etmirsiniz" dediyi həmin yerdə dəfn olundu.(Ona görə də biz həmişə şəhidimizə vurulduğu gün deyil, dəfn oldunduğu gün, anım mərasimləri keçiririk)

Sonra yas mərasimi, 3-7-40 və əbədi ayriliq. O günlər kiminin yadında Heydər Əliyevin şəhidimizin alınmasındakı xidmətləri, dəfələrlə bizim evə, yas mərasiminə gəlməsi,kiminin yadında dəfn vaxtı yayın qızmar istisində görünməmiş hadisə olaraq, göyü qara buludların alması, şimşək səslərinin qulaq batırması, kiminin yadında şəhidimizi gətirməyə gedən maşının DMK( Dövlər Müdafiə Komitəsi) tərəfindən tutulması və ardından mənim etdiyim hadisə kimi qalıbsa da.

Mənim yaddaşımda qrad mərmilərnin qutusu qalıb və ölənə kimi belə qalacaq.

Allah cəmi şəhidlərimizə rəhmət eləsin və bizə də qisas gününü nəsib etsin. Amin!

**17 Haziran 2021-ci il**

Arxadaşlar!

Bu gün Milli Qəhrəman, şəhid Mir Əsgər Abdulla oğlu Seyidovun yaş günüdür.

Bu yaş günün 33 il bizim sənsiz keçirdiyimiz yaş günlərindən fərqlidir. Ona görə ki, bir il əvvəl yanına gələn

atan, mənim dayım və uşaqlarımın babasıyla cənnətdə birgəsiniz.

Yaşasaydın bu gün 53 yaşın olacaqdı. Yaşasaydın ötən illərdə nələr olacaqdı sualına cavab verə bilmərəm, amma yaşamadığın illərdə nələr olduğunu bilirəm.

Yəqin 20 yanvar günü sənin ziyarətinə gələndə bizi,şəhid Milli Qəhrəman ailəsini, Şəhidlər Xiyabanına buraxmadıqlarını bilirsən.

Şərur elinin Xanlıqlar kəndində cəddinə and içilən, qurbanlar kəsilən, sədəqələr verilən, 1975-ci ildə dünyasını dəyişmiş babamız ağır Seyid Miribrahim ağanın Imamzadənin içərisindəki qəbrini açıb sümüklərini çıxartdıraraq başqa yerdə basdırdılar.  8 illik həbsimdən sonra belə mənə olan düşmənçilikləri bununla bitmədi. Sənin bibin və mənim anam Seyid qızı Məşədi Məhlüqə xanımın məzarı üstündə el tərəfindən tikdirilmiş və ziyarətgaha çevrilmiş Səccadəni darmadağın etdirdilər.

Hətta bununla da ürəyi soyumadı.Sənin adın verilən məktəbin önündən xatirə lövhəsini götürdülər. Sənin öz hesabımıza düzəltdirdiyimiz büstünü məktəbin qarşısından götürdərək anbara qoydular.  Biz etiraz edəndən sonra büstünü qaytarıb mülkü müdafiə və hərbi hazırlıq üçün ayrılmış sinif otağına qoydular. Bütün bunlar vətən, millət sevgisindən uzaq, yalnız oğurluqla, rüşvətlə yaşamaq istəyənlərin vətən, millət sevdalılarına, düz adamlara nifrətinin göstəricisi idi.

Bu olanları ona görə yazıram ki, sənin müqəddəs şəhid ruhun rahat olsun. Haqqa ədalətə qarşı dirəşənləri,

rüşvət və yaltaqlıqla özlərinə güzaran qazananları heç nəvə nəticələri də tanımaq istəməyəcəklər. Onların adları çəkiləndə xəcalətlərindən gizlənməyə yer axtaracaqlar. Günahlarını yumaq üçün sənin məzarına ziyarətə gələcək, səndən danışacaqlar.

Sən isə vətən və millət sevginlə insanların qəlbində yaşayacaqsan. Daima və əbədi olaraq varsan, olmusan və olacaqsan.

Inşaallah, sənin bütün hüquq və statuslarını bərpa edəcəyik.

Vətən müharibəsində səninlə birlikdə balaca Qaraxanbəyli kəndindən 7, qonşu Qaraçuq kəndindən 2 və Bulqan kəndindən  isə 1 şəhidimiz olub. Şəhidlərimizin xatirəsini yad etmək üçün kəndin girişində Momerial abidə tikdirmək qərarına gəlmişik. (Əgər bunu tikdirməyimizə əngəl olmasalar.)



Bu mərmini də 44 günlük müharibədə sənin bibin oğlun,mənim isə xala oğlum iş adamı Rəşad Əliyev könül-

lü iştirak etdiyi döyüşdə üstünə "Mirəsgərin Qisası" yazaraq öz əlləri ilə minomyota qoyaraq düşmənlərdən sənin qisasını almaq üçün atıb.

Rahat yat abi, indi Qarabağımız bütöv olmasa da Şuşa qarışıq bir hissəsi igid şəhid və qəhrəman əsgərlərimiz tərəfindən azad edilib. Qalan hissəsini də mütləq yaxın vaxtlarda erməni quldurlarından və onların havadarlarından təmizlənəcək.

Ruhuna salam olsun, Əsgərim!

PS. Arxadaşlar, mən şəhid olmaq istəyirəm!

6 ***Şubat 2023-ci il.***

## NATİQ QASIMOV



Arxadaşlar!

Yanımda onlarla dostum şəhid olub, qucağımda can verən silahdaşlarım olub, mən də az düşmən gəbərtməmişəm.

Amma Natiq Qasımovu xatırlayanda gözlərim dolur.

Belə bir qəhrəman oğulla bir millətdən olduğumla fəxr edirəm. Gədəbəy torpağında doğulan igid Natiqin tək başına neçə gün Xocalıda bir rota erməni gədəsiylə döyüşdüyünü fikirləşəndə köksüm fərəhlə dolur, amma bu fərəhlə birgə özümdən aslı olmayaraq içimdən bir hayqırmaq, dünyaya üsyan etmək gəlir.

Ədalətin budurmu dünya!

Tək başına 100 şərəfsizlə vuruşan KIŞI! Sən müqəddəslərin müqəddəsi, qəhrəmanların qəhrəmanısan! Sən elə bir qəhrəmanlıq göstərmisən ki, ancaq və ancaq tarixdə indiyə kimi gəlmiş keçmiş bütün oxuduğumuz və oxumadığımız qəhrəmanların başında duran kişilik nümunəsi hesab etdiyimiz, Çin sarayında 40 igidi ilə üsyan qaldıran Gürşad babamızın Natiq nəvəsi bu qəhrəmanlığı göstərə bilərdi.



Gecə-gündüz demədən neçə gün vuruşduğun Xocalı qətliamını törətmiş, qan içən düşmən belə sənin qabağında acizliyini etiraf etdi. Sənin qəhrəmanlığın qarşısında duruş gətirə bilməyib xəyanətə əl atdı. Sənin düşmən qabağına o üç rəngli bayrağımızı əlinə alaraq çıxmağın düşmənin ürəyinə vuracağın güllədən də ağır zərbə oldu. Sənə Milli Qəhrəman adı verilsə də verilməsə də sən bizim əbədi olaraq Xalq Qəhrəmanımızsan. Sədərək şəhidlərimizin anım günündə qardaşın Nofəl abiylə tanış oldum. Bağ-

rıma basdım. Sənin qoxunu ondan aldım. Rahat yat şəhidim!

Uğrunda şəhid olduğun Xocalıya soydaşlarımızın köçü oldu.

Ruhuna salam olsun,Xalq Qəhrəmanı şəhid Natiqim!

P.S. Son dəqiqə məlum oldu ki,Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev ölkənin ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə Natiq Səlim oğlu Qasımova ölümündən 32 il üç ay 13 gün sonra Azərbaycanın Milli Qəhrəmanı adı verib.

***29 Mayıs 2024-ci il.***

## OKTAY BAXŞƏLİYEV



Arxadaşlar!

Öncə bildirim ki, bu yazı həmçinin Oktay bəyin ata-baba yurdu Kərki kəndi haqqında hazırlanan kitab üçün yazılıb. Rəssam, komutan, Naxçıvanda Sovet Ittifaqının əleyhinə fəaliyyət göstərən gizli təşkilatın üzvlərindən, AXC Naxçıvan Vilayət Təşkilatının Könüllü Müdafiə Komitəsinin ilk və son sədri Oktay Baxşəliyev haqqında yazmaq o qədər də asan deyil.

Sözün əsil mənasında döyüşçü, onurlu, sədaqətli, təvazökar dost. Bir il əvvəl uşaqlarımla şəhid generalımız Polad Həşimovun məzar ziyarətindən sonra hər il olduğu kimi, bir başa sizə, sən generalımızı ziyarətə gəlmişdik. Axı siz iki qəhrəman generalın yaş gününüz eyni gündə,2-si yanvardadır.Bu il isə doğum günündə anım gününü keçirməyə hazırlaşırıq. 6 ay əvvəl ölüm səni bizdən ayırdı.

Vaxtilə Sədərəkdən tutmuş Buzqova kimi olan döyüşlərdə, Iranda tutulub həbsxanada bir kamerada yatanda, Mahabadın dağlarında Iraklılardan silah alanda, mənfi 25 dərəcə şaxtada Arazdan silah keçirdəndə, 8 illik həbsxana həyatımda və s. sən həmişə böyük qardaş kimi yanımda olmusan.

Amma sənin nə arzuların var idi, abi!

Həyatda elə insanlar var ki, onlarla görüşəndə, söhbət edəndə, danışanda və hətta mübahisə edəndə özünü çox rahat, çox güvənli və çox arxalı hiss edirsən. Belə insanlar mənim həyatımda çox olmasa da, Böyük Bəydən tutmuş ta Oktay abiyə kimi olub.

Bu adamlarla danışanda elə bilirsən dünya cənnətə bürünüb, qurd quzuyla otlayır, həyat ancaq yaxşılıqlardan ibarətdir. Yadıma bir hadisə düşdü. Günlərin bir günü, Oktay abiylə Azərbaycanın Cənubundan qaçaq olaraq Arazdan keçməklə silah gətirdiyimiz vaxtlar idi. Silahları gecədən üçüncü post dediyimiz yerdə Araz qırağında olan dağdakı ayı kahasında yerləşdirib İran Culfası tərəfdən Araz sahilinə gələrək, gecə silahları hardan keçirəcəyimizi bu taydakı Culfadan gələn dostlara bildirməliydik.

Görüşə Cənubdan Oktay abiylə mən Şimaldan isə Əmir bəy gəlmişdi. Görüş həmişəki kimi Araz üstündəki körpüdən 300-500 metr Naxçıvana tərəf Arazın nisbətən ensiz olan yerində baş tuturdu. Çünki burada həm məsafə az idi, həm də Araz burda dərin olduğundan lal axırdı ona görə də alçaq səslə danışmaq rahat alınırdı. Həm də çayın sağ sahili qamışlıq olduğundan Iran sərhədçiləri oraya gəldiyimizi çox vaxt görə bilmirdilər..

Əmir bəylə danışarkən Iran mərzibanlarından (sərhətçi) biri, milliyətcə türk olan sərtib (təxminən kapitan) motosikletlə gəldi və çox qeyzli şəkildə bizim burda "nəmənə qayırdığımızı" soruşdu. Mənim də həmişəki kimi dilim dinc durmadı və "heç nəmənə qayırmadığımızı, sadəcə Arazın bu tayındakı öz vətənimizdə durub, o taydakı öz

vətənimizə baxdığımızı" dedim. Bu zaman sərtib guya çox əsəbləşdi və bisimlə (simsiz-ratsiya) danışmağa başladı ki, "bura təcili sərbaz (əsgər) göndərin. Burda iki şurəvili var, deyirlər bura şurəvinin torpağıdı". Dedim: "Yalan deyənin atabaatasına lənət olsun" və s. yağlı söyüşlər.

Kənara çəkilib, xəbər verdi ki, "Biri koştugirdi (güləşçi) mənə yaman (söyüş) deyir, tez gəlin". Xülasə, iki sərbaz gəlib bizi qabaqlarına qatıb Culfaya tərəf aparmağa başladı. Culfada bizi xeyli tanıyan vardı. Istəmirdim onlar görsün ki, bir dılğır sərbaz bizi silah altında aparır. Ona görə sərbaza dedim ki, silahını bizə tuşlama, çiynindən as, gəl yanımızla get. Sərbaz: "Yox ağa, dəstur (əmr) belədi. Onu poza bilmərəm" deyəndə ehtiyatsızlıq edib lap yaxınımda durmağından istifadə edərək silahı sərbazın əlindən aldım. Başladı yalvarmağa ki, ağa, əsləhəmi (silahımı) vey nə cüy söyüysən (sevirsən) o cüy gedəx" dedi.

Bu vaxt Əmir də Arazın o tayından qışqırır ki, ədə, sərbaz onları burax. Yoxsa səni daşla vuracam haaa. (sonralar Oktay abi bu səhnəni özünə məxsus şirinliklə nağıl edərək hamını güldürürdü). Bizi Culfada yerləşən Qurhana (alaya) gətirdilər. Quvbaxt kimi bir yerə saldılar. Çarpayı zad yox idi. Ancaq yerdə güləş döşəyi kimi maçalkadan bir döşək var idi. Onun üstündə ancaq oturmaq və elə bu vəziyyətdə də yatmaq olurdu. Biz quvbaxt nəzarətçisinə aclıq elan etdiyimizi bildirdik və SSRI-nin Irandakı səfiri yanımıza gələnədək aclığı davam etdirəcəyimizi söylədik. Guya səfir gəlsə bizi azad etdirəcəkdi. Əslində isə bi-

zim narahatçılığımız Sovet sərhədçilərindən idi. Istəmirdik bizi Iran tərəfi onlara versin.

Biz aclıq etdiyimiz 3-4 gün ərzində hər gün anoloji olaraq bir nəfər əlində padnos gələrək, səhər "Ağa sübhanə gətimişux, günorta Ağa nahay gətimişux, axşamlar isə Ağa şam gətimişux" sözlərinə bizdən rədd cavabı aldıqdan sonra "Baba yəqin ac dəyilsiyiz da!" cavabını alırdıq. Qapının o tərəfində də bir nəfər daima gözlükdən heç gözünü çəkmir, bizi izləyir və nə danışdığımıza qulaq asırdı.

Oktay abi dedi gəl rusca danışaq və başladı əsgərlik xatirələrindən rusca nəsə bir şeylər danışmağa. Qapının o tərəfində çaxnaşma düşdü. Deyəsən, rus dili bilən kimisə çağırmağa adam göndərdilər. Mən çox həyəcanlı idim. Oktay abi elə rahat, elə təmkinli idi ki, elə bil başqa dövlətdə həbsxanada deyil, ən yaxın adamının evindədi.

Hiss etdik ki, deyəsən rus dili biləni gətirdilər. Oktay abi dedi "Gəl oxuyaq".

Indi də başladıq birlikdə milli mahnılarımızı oxumağa. Uzun-uzadı oxuyandan sonra mənim "mahnı repertuarım bitdi"yi üçün dedim ta nə oxuyaq?

Bu zaman Oktay abi "Şahnaz təsnifi" oxumağa başladı:

"Siz ey ilk eşqimin, şahidi dağlar, şahidi dağlar,
Ətirli baxçalar, çiçəkli bağlar, çiçəkli bağlar!
Deyin hardadır, deyin hardadır, o üzü dönmüş?
Sevən ürəyim, sevən ürəyim onu soraqlar!"

Sonralar yemək məclislərində kefi kök olanda deyərdi "Mustafayev bir Şahnaz təsnifi gedər eee! Biz həmin mahnını oxuyardıq".

Bir həftə  sonra mənim Irandakı famillərim (qohumlarım) sicillilərini (kimliklərini) gətirb təhvil verib bizi zamına buraxdırdılar. Biz də elə həmin gecə silahlarla birlikdə

Arazı keçib  gəldik Naxçıvana.

Bir dəfə də Oktay abi Iranda silah sövdası etmişdi və biz ikimiz Mahabadın ən ucqar sərhəd dağ kəndlərindən birinə getməli olmuşduq. Sonralar o xətdən xeyli silah almışdıq. Əsasən bu məsələləri Oktay abi həll edərdi. Danışığımız da belə idi ki, konspirasiyası üçün bu işə yalnız bir nəfər rəhbərlik etsin. Digərləri isə bu haqda heç nə soruşmur və heç bir sual vermirdi. Yalnız və yalnız görüləcək işləri həyata keçirirdik. Bu ona görə idi ki, kimsə tutulsa belə bu xətt əldən çıxmasın.

Kənddə görüşüb istədiyimiz silahların siyahısını onlara verirdik, onlar da öz terminologiyaları ilə siyahı yazırdılar: Tirbar, muşək, xəzinə, kilaş, bala səddam, ana səddam və s. Gecə saat üçdə eşşəklərini palanlayıb yola düşürdülər. Onların evində bizə ayrılmış otaqda(zatən evləri bir otaq bir qərfana olurdu) 2-3 gün qalırdıq. Çölü və içərisi palçıqla suvanmış, balaca pəncərəsi, alçaq qapısı və divarda bir neçə taxcası olan kiçik otaq yorğun olduğumuzdan bizə beşulduz hotel kimi rahat gəlirdi. Həyətdə də tövlədən, yappa qalaqlarından və fanerkayla yarı örtülü ayaq yolundan başqa bir şey yox idi.  Adətən, gündüzlər kimsə bizi görməsin deyə eşiyə çıxmırdıq. Kənd dağın lap başına yaxın yerdə idi, kəndin ortasında böyük tut ağacı vardı və ağacın dibindən də gur bir çeşmə axırdı.




***Şəkildə Səyavuş Mustafa keçmiş komandiri Oktay Baxşəliyevin məzarı önündə ona əsgəri salam verərkən***

Islam rejiminin tüğyan elədiyi ölkənin bu hissəsində qızlar bulaq başında örtüksüz və çoxlu kiçik hörüklü saçları açıq şəkildə sərbəst dolanırdılar. Oktay abi də qızların hərəkətinə işarə edərək:"Mollalar öz ölkələrindəki yeniyetmə və gənc qızlara söz deyə bilmir, amma Amerikaya xox gəlmək istəyir" deyərək gülürdü.

Bir neçə gündən sonra gedənlər gəlib silahları otağın içində yerə düzərək bizə göstərirdilər. Bizdə silahları bir-bir yoxlayaraq bəyənib almaq istədiklərimizin behini verib razılaşırdıq ki, silahları Iran Culfasının yaxınlığındakı Şücə kəndində bizə verəndə pullarını tam ödəyəcəyik. Indinin özündə də Oktay abinin o adamlarla necə tanış olduğu və bizə silah satmalarına necə razılaşdırdığı barədə məlumatsızam.

Bu sevinc və kədər dolu xatirələr ona görə yadıma düşdü ki, Oktay abi ən çətin, ən qorxulu və ən çıxılmaz vəziyyətdə belə öz təmkini, rahatlığı və inamıyla hər şeyin yaxşı olacağını, problemi tezliklə həll edə biləcəyimizi aşılayırdı.

Oktay bəylə bizim tanışlığımız 1989-ci illərə təsadüf edir. Biz Bakıda Şimali Azərbaycan Azad Tələbə Ittifaqı adlı gizli təşkilat yaratmışdıq. Mən də bu təşkilatın göstərişi ilə Naxçıvandakı şöbəylə görüşməyə gəlmişdim. Naxçıvanda heç gözləmədiyim halda görüşdüyüm dörd nəfərdən ikisi tanışım çıxdı. Bunlar Oktay bəyin qardaşı Kəramət bəy, Sədərəkli Hilal bəy, qonşu Qaraçuq kəndlimiz Elçin bəy, əsgərlik yoldaşım Uzunobalı Arzu bəy (Asəf Quliyevin qardaşı) idi.

Mömin Xatun türbəsinin yanında keçirilən mitinqdə iştirak edəndən sonra Kəramət bəy məni Oktay abiylə, Ar-

zu da Asəf bəylə tanış etdi. Amma nədənsə Kəramət Oktayın qardaşı olduğunu demədi. Axşam Yeni Naxçıvandakı evlərində olarkən Oktay bəy də ora gəldi və mən onda bildim ki, Kəramət bəy Oktay abinin kiçik qardaşıdır. Bundan sonra dostluğumuz başlandı.

1989-cu il noyabrın 11-də keçirilən konfransda Oktay abi AXC Naxçıvan Vilayət Təşkilatına məclis üzvü seçilmişdi. Məclisin ilk iclasında isə onu Könüllü Müdafiə Komitəsinə sədir təyin etmişdilər. Döyüşlərdə bir yerdə olduğumuz üçün dostluğumuz daha da möhkəmləndi.

1988-ci ilin iyulunda milli düşüncəli, gizli dərnəklərdə olan gəncləri bir mərkəzdən idarə etmək üçün Naxçıvan çayının sahilindəki, yəni Şıxmahmuddan Zeynəddinə gedən torpaq yolun kənarındakı meşəyə toplaşırlar. 23 nəfərin iştirak etdiyi bu toplantıda iş bölgüsü aparılır. Sülhəddin Əkbər təklif edir ki, Oktay terrorçu qrup yaratsın və ona rəhbərlik etsin. Oktay bəy də özünə məxsus təmkin və yumorla "Mən rəssamam, özüm də ölüdən qorxuram. Sən də ekspert həkimisən. Bir az əvvəl özün dedin ki, elə indi ölü yarmaqdan gəlirsən. Bəə nətəhər olur ki, mən rəssam ola-ola terror qrupu yaradıb ona rəhbərlik etməliyəm, sən ölü yara-yara ictimaiyyətlə əlaqələr şöbəsinə rəhbərlik etmək istəyirsən? Gəl vəzifələrimizi dəyişək!"-deyir.

Elə həmin toplantıda Asəf Quluyev qoynundan çıxardığı Quranı ortaya qoyur və deyir ki, hamı təşkilatın sirrini heç kimə verməyəcəyi haqqda and içib Qurana əl bassın. Toplantıdakılardan 3 nəfərdən başqa qalanları Qurana əl basıb and içir ki, təşkilatın sirrini heç yerdə, heç kimə

verməyəcək. Birinci Sülhəddin Əkbərov and içmir, deyir ki, mən ateistəm. Gətirdiyiniz kitab mənim üçün bir kağız toplusudur. Ona mən niyə and içməliyəm ki?. Bənənyarlı Ələkbər Hüseyinov deyir ki, mən qatı dindaram. Müsəlman Qurana and içməz. Buna görə də mən and içmirəm. Növbə Oktay bəyə çatanda deyir ki, buraya gələcəyimizi deyəndə Qurana and içəcəyimizi deməmişdiniz. Ona görə qüsul alıb gəlməmişəm. Qüsulsuz da Qurana əl basıb and içmək olmaz. Gedib qüsl alım sonra gəlib hamınızın yanında and içərəm.

Növbəti dəfə Hüseyin Cavid kino-teatrının yanına toplaşanda Oktay bəy özü ilə gətirdiyi Quranı çıxarıb əlini üstünə qoyaraq deyir ki, bu Qurana and içirəm ki, təşkilatın sirrini heç yerdə açmayacam. Amma Sərdarla Sülhəddinin tapşırıqlarına da ağlım kəsməsə əməl etməyəcəm..

Oktay bəy əslən Naxçıvanın ayrı düşmüş Kərki kəndindəndi. Biz Oktay abiylə ailəlikcə dost, qardaş idik. Atası Ismayıl əmi (təəssüf ki, mən rəhmətliyi görməmişəm) Kərkidə doğulsa da Şərur, Sədərək, Vedibasar, Dərələyiz bölgəsinin adlı sanlı kişilərindən olub. O vaxt ermənilərlə olan bütün problemlərin həlli üçün Ismail və Əli qardaşlarını çağırarmışlar. Əmiləri Əli və Qələndər bəyləri isə çox yaxşı tanıyırdım. Hər biri uca boylu, pəhləvan cüssəli, dağ aşıran kişilər idi.

Əli əmi 2006-cı ildə Məkkədə Həcc ziyarəti vaxtı dünyasını dəyişdi və elə Məkkədə də müqəddəs torpağa tapşırıldı.

2007-ci ildə isə rəhmətlik atam, mən, Qələndər əmi və Əli əminin oğlu Orxanla birlikdə Həcc ziyarətinə getdik.

Naxçıvanın axundu Hacı Nəbinin rəhbərliyi ilə Əli əminin müqəddəs torpaqdakı məzarını ziyarət etmək mənə də nəsib oldu.

Oktay bəylə biz çox döyüşlərdə çiyin-çiyinə olmuşduq, çox səngərlərdə kürək-kürəyə verib düşmənlərdən vətəni qorumuşduq.

Ilk döyüşümüz isə 1990-cı il 20 yanvar gecəsi Sədərəkdə olub. Mən Sərhəd hərəkatından sonra Bəy tərəfindən Bakıya çağrılmışdım. 19 yanvar günü Naxçıvan Cəbhəsindən Piket Həsənlə telefonla danışdım və o bildirdi ki, Sədərəkdə atışma başlayıb və Oktay bəy 18 nəfərlə Kərkidə mühasirədə qalıb. Həmin gün Əli Kərimov, Fazil Mustafayev və Nemət Pənahov Nemətin moskviçi ilə məni aeroporta aparıb Naxçıvana yola saldılar. Və mən kəndimizin "Qaraxan" könüllü döyüşçüləriylə Sədərəyə getdik. Silahlarımız isə xalqın milisdən gizlədə bildiyi ov tüfəngləri idi. Sonralar Oktay bəy həmişə deyərdi ki, Səyavuşa həyatda bir dəfə yazığım gəlib. O da nə səngərdəki döyüşündə, nə sərhəd hərəkatında, nə də Arazın buzlu sularını keçəndə olmayıb. Bu, biz Kərkidən çıxanda Sədərəkdə bizi qarşılayanlar arasında Səyavuş bəyin əlində ov tüfəngi görəndə olub. O boyda canlı-cüssəli, pəhləvan adama ov tüfəngilə döyüşmək heç yaraşmırdı.

Sonrakı döyüşlərdə mən RPK (ruçnoy pulemyot kalaşnikova), Irandan gətirdiyimiz Amerika vintovkası olan J3 (jese), snayper silahı SVD (Снайпеğски Винтовка Дğагунова) və əvvəl Irandan, sonralar isə Türkiyədən gətirdiyimiz Çexoslovakiya istehsalı olan çivyosu qundaqlı

kalaşnikovla vuruşsam da Oktay bəy həmişə mənim ov tüfəngimi yada salıb gülürdü. Oktay bəy AKMS əvəzinə AKMSQ, yəni Avtomat Kalaşnikov Modernizirovannıy Skladıvayuşiy Qundaqlı deyirdi..

Hərəkat təzə başlayanda bəziləri özünə çox təmtaraqlı ləqəb, soyadı götürmüşdü. Oktay bəy də zarafatla deyərdi: "Hərə özünə bir ad, ləqəb götürür mənim onlardan nəyim əskikdi, mən də bu gündən oluram Sərdari Milli Qazi Oktay Paşa Ərol Ərdoğan Boz Qurd Gülləkeçməz Kümbəzi (bizim uşaqlar Oktay əmilərini çox istəyirdilər. Hər ad günündə və Novruz Bayramlarında Oktay əmilərini görməyə gedəndə bu adlarını dəfələrlə deməsini xahiş edir, hər dəfəsində də qəhqəhəylə gülürdülər!).

Bu gün sənin yaş günündür abi. Necəsən?

Həmişə Barış Mançonun bu mahnızını zümzümə etməyi sevərdin:

Hava nasıl oralarda, üşüyormusun.
Kar yağıyor saçlarıma bilemiyorsun!

Ne tez keçdi bu 6 ay?

Biz deyəsən elə gördüyün kimi qalmışıq. Hər şey min il bundan əvvəlki kimidi. Günəş çıxır, ay batır, bulud keçir, külək əsir və bir sən yoxsan!

Səndən sonra İbrahimi, Hicranı, Elşadı bu yaxınlarda da Arif bəyi sənin yanına yola saldıq!

Biz də onları və səni yola saldığımız yolun kənarında sallağı oturub növbəmizi gözləyirik.

Sözün düzü elə bir günə gəlib çıxmışıq ki, gedənlərlə qalanların elə də fərqi görünmür.

Bu gün səni canından çox istəyən qardaşın Azər sənə il mərasimi təşkil edib.

Dostlar və qardaşların Kəramət və Azərlə, bacılarımız və bacı oğlanlarımızla birlikdə səni xatırlayır, ruhuna fatihə oxuyuruq. Iki gün əvvəl dostlarla sənin də çox cəfasını çəkdiyin Sərhət hərəkatının (sən ona "simqıranlar hərəkatı" adını qoymuşdun) il dönümünü qeyd edirdik. Qardaşın Azər bəy də ordaydı, hətta rəhmətlik Şahın oğlu Şahsultan balamız da ilk dəfə sıralarımıza qoşulmuşdu.  Sənin adını yad elədim, bir sən yox idin, bir sən çatışmırdın demək istədim, amma sonra ətrafa baxıb gördüm ki, bizi tərk eləyən tək sən deyilmişsən.

Şəhid qardaşlarımızdan və Böyük Bəylə Şahdan (Şahmərdan Cəfərov) sonra Sahib, Cavad, Fətulla, Qəhrəman, Mircabbar ağa, Ələsgər həkim, Böyük qardaşın Məhəmməd, Yaşar, Oruc, Arif, Ibrahim, Elşad, Hicran, Vəli bəylər və neçə-neçə ağabəylərimiz də bizi tərk edib.

Indi siz orda buradakılardan çoxsunuz. Yavaş-yavaş biz də gələcəyik yanınıza.

Biz sizə ürəyimizdə yer ayırdığımız kimi, siz də bizə yanınızda yer ayırın abi. Allah cəmi şəhidlərimizə, sənə və bütün dünyasını dəyişən əqidə, hərəkat və döyüş yoldaşlarımıza rəhmət eləsin.

Yığışacayıq sənin işığına!

İşığını əsirgəmə bizdən abi!

Ruhun şad olsun komutanım!

***14 Mayıs 2022-ci il***

## PƏRVİZ MƏMMƏDZADƏ



Arxadaşlar!

Doğma 3 kəndimizin 10 şəhidinin yaşca ən kiçiyi və son şəhidi Pərvizdir. O, Şuşanın erməni işğalçılarından azad etdiməsinə bir neçə gün qalmış şəhadət şərbətini içib. 2020-ci il noyabrın 6-da vətən havasını son dəfə ciyərlərinə çəkib.

Noyabrın 19-da isə onu ana yurdu olan kəndimizdəki Şəhidlikdə son mənzilə yola saldılar. Ailəmiz Pərvizin ana babasıgillə gor qonşusu olub, həm də qohumuq.

Aramızda yaş fərqi çox olsa da onu cəbhə yoldaşım, silah arkadaşım sayıram. Çünki, o mənim ideyalarım uğrunda vuruşub, onun bu ruhda böyüməsində mənim də əməyim olub. Biz eyni səngərdə olmasaq da, eyni ideyanın səngərində vuruşmuşuq.

Ötən əsrin əvvəllərində, Xurşud nənəm demişkən "ikinci qaçaquşda"n sonra Vedi bəylərindən olan babalarımız Qaraxanbəylini özlərinə məskən seçmişlər. Bu kənd tarixən türklərin məskəni olsa da 1828-ci ildən sonra Ruslar Irandan Qafqaza gətirdikləri ermənilərin bir qismini burada yerləşdirmişlər. Gəlmələr hər yerdə olduğu kimi burada da dinc durmamışlar. 1905-07-ci və 1918-20-ci il-

lərdə, türkləri soyqırıma uğradaraq bu yerləri özününküləşdirməyə çalışmışlar. Lakin istəklərinə nail ola bilməmişlər.

Abbasqulu bəy Şadlinskinin başçılıq etdiyi "Qırmızı tabor" və Naxçıvan Könüllülərindən təşkil edilmiş silahlı dəstələr Vedibasarın, Qəmərlinin, Zəngibasarın, Dərələyəzin, Irəvanın daşnaklardan təmizlənməsində fəal iştirak etdikdən sonra, məsləhət görülmüşdü ki, xarabaya çevrilmiş kəndlərinə dönməsinlər, ermənilərin qorxusundan boşaltdıqları Qaraxanbəyli kəndində yerləşsinlər.

Illər ötür, Sovetin kəsif iyi verən lax təbliğatı ilə "yedizdirilərək" keçmişlərini unutdurulmağa çalışılan böyüklərimiz zaman-zaman dünyasını dəyişir və zəmanə bizim dövrümüzə qədər uzanıb gəlir. Tarix təkrar olunur. Ulu babalarımızın miras qoyub getdikləri torpaqları erməni quldurları yenidən işğal etməyə başlayırlar. Biz də ata-baba yurdumuzu yenidən qorumaq məcburiyyətində qalırıq. Sapı özümüzdən olan baltaların vurduğu badalaqlara baxmayaraq, az imkanlarımızla güclü silahlardan çox güclü vətənpərvərlik qeyrəti və şərəfi ilə silahlanmış bizim nəsil torpaqları qorumaq üçün əlindən gələni də, gəlməyəni də edir.

2001-ci ildə mən həbsdən çıxanda dünyaya gələn Pərviz də daxil, bizdən sonrakı nəsil isə bizdən daha güclü, daha hazırlıqlı, daha profesional şəkildə yetişdirilir və qələbə ilə nəticələnən son nöqtəni qoymağı bacardılar.

Halal olsun!

1990-cı illərin əvvəllərində mən kəndimizdəki məktəbdə dərs deyərkən məktəb müdiriyyətinin qarşısın-

da çəkdirdiyimiz bir şəkilə sizin diqqətinizi cəlb etmək istəyirəm. Şəkildə o vaxt birlikdə çalışdığım, mənə dərs demiş məllimlərimlə yanaşı, mənim dərs dediyim şagirdlərim də yer alır. Sol tərəfdə lap kənarda oturan o məsum qızcığaz isə indi şəhid Pərvizimizin anası olan Pərvanə xanımdır.



Bəli, Pərvanə şəhid anasıdır!

Ola bilsin ki, bu sözlər sizlərə qeyri-adi görünəcək. Amma mən bu sözləri yazanda, kəndin mərkəzi sayılan məhəlləmizdə naxır gedəndən sonra qapılarının ağzını süpürən, on addımlığımızda olan məktəbin həyətində qaçdı-tutdu oynayan, artezianın başında su dolduran, arxın kənarında "çimçilər" düzən və Vilayət (Viloş) əmiylə Məh-

lüqə xalanın ailəsində böyüyən, mənim də dərs dediyim bir qızcığaz gəlir gözümün önünə. Zaman doğrudan da çox sürətlə ötür. O günlərdən illər keçəcək və mən kənddən didərgin düşdüyüm vaxtlarda heç kimin fərqinə varmadığı həmin qızcığaz böyüyəcək, ailə quracaq və iki gül balası dünyaya gələcək.

Pərviz və Pərvin adı qoyulan bu uşaqlar həyatın keşməkeşlərində atasız yaşamağa məcbur olsalar da vətənsevər, qeyrətli olacaqlar. Ulu babaları da ermənilərə qarşı vuruşan Pərvizin damarlarından axan qan, onu rahat buraxmayacaq və nəticədə hərbçi olmaq qərarını verəcək. O, hərbi təmayüllü liseyə qəbul olub oxuyacaq, hərbi təlimlərin sirrlərinə yiyələnəcək. Sonra isə zamanın verdiyi fürsəti əldən buraxmayaraq döyüşlərə atılacaq. Pərvizin keçdiyi döyüş yolu hər gün yeni-yeni qələbələrlə bəzənsə də, onun məqsədi Şuşaya çatmaq və müqəddəs bayrağımızı orda dalğalandırmaq idi. Azğın düşmənin gülləsi nəticəsində Pərviz xəyallarının gerçəkləşəcəyi ana bir neçə gün qalmış, canından da çox sevdiyi vətən torpağını qucaqlayaraq şəhadət zirvəsinə ucalır.

Bu gün biz səni yad edirik şəhidim!

Sən elə bir zirvədəsən ki, o zirvə ancaq seçilmişlər tərəfindən fəth edilə bilər. O zirvə sizə, siz də o zirvəyə layiqsiniz.

Allah bizlərə də şəhidlik zirvəsinə çatmağı nəsib-qismət eləsin!

Amin!




**Şəkildə Pərvanə xanım və mən şəhidimiz Pərvizin ev muzeyində.**

P.S.Bu gün Pərvanə xanımla telefon əlaqəsi quraraq baş sağlığı verəndə məni bir şad xəbərlə müjdələdi.

- Səyavuş dayısı, ayın 9-da şəhidimizin bacısı Pərvinin toyudu. Pərvin, dayı kimi sizin ona xeyir dua vermənizi istəyir.

Çox sevindim.

-Pərvin bala, Allah səni xoşbaxt eləsin. Qəhrəman şəhid qardaşının ruhu həmişə səni hifz eləsin. Şəhid bacısı olmağın nə demək olduğunu mən 32 ildir hər gün öz ailəmdə görürəm.

Sənə və Təbriz balamıza xoşbəxtlik arzulayıram!

Dustaq olduğum üçün gəlməyimə məhduduiyyətlər qoyulub. Icazə ala bilsəm, mütləq toya gələcəm.

***7 kasım 2023-cü il.***

## RAFİQ ZÜLFÜQAROV

Arkadaşlar!

1992-ci ilin may ayında Sədərəyin Mil təpəsi uğrunda şiddətli döyüşlər gedirdi. Hər gün Naxçıvanın şəhər və kəndlərindəki dayaq dəstələrindən könüllü döyüşçülər gəlib səngərdəkiləri əvəz edirdilər. Səhər tezdən Naxçıvan şəhərinin "Şahab" dayaq dəstəsinin döyüşçüləri gəldilər. Mən onlarla görüşdükdən sonra kimin hansı səngərə gedəcəyini təyin etdim (Əsasən döyüşçülər yolda gələndə kimin kimlə bir postda döyüşəcəyini razılaşırdılar.)

Azərbaycan Dövlət Bədən Tərbiyəsi Institutundan tələbə yoldaşım, güləş üzrə məşqçi Rafiq Zülfüqarov (indi Xaçmaz Olimpia Komitəsinin sədridir) da onlarla gəlmişdi. Bunları postlara yola salıb, OMON komandiri Azər abiylə görüşmək üçün Sədərəyə yola düşdüm. Xidməti maşın kimi qaz idarəsinin "buxanka UAZ"-ından (şoferi - Qara uşaqlıq dostum olduğu üçün) istifadə edirdim.

Yolda ikən ratsiya ilə xəbər verdilər ki, Rafiq yaralanıb. Mən geri qayıdıb dağa qalxdım. Dağda hərəkət eləyən vaxt qayaların arxasında rahat gəzə bilirdiksə elə yerlər var idi ki, o məsafəni mütləq qaçaraq keçməliydin. Çünki snayper oranı vururdu. Rafiqi də belə bir keçiddən keçəndə vurmuşdular.

Qərərgahdan Rafiqin yanına yaxın məsafə olmasa da az müddətə necə gəlməyimdən indi də xəbərsizəm. Rafiqi görəndə o, qan itirməkdən ağappaq ağarmışdı. Məsələ onda idi ki, o, atəş tutan keçid yerinin tam ortasında vurulub qalmışdı. Bilmirəm o səhnəni sizə tam anlada bilirəm, ya

yox? Hardasa 10-12 metirlik açıq bir sahədir Rafiq də orta-da sol çiynindən vurularaq yıxılıb qalıb. Ətrafı qan gölünə dönmüşdü. Yaxınlaşanı da snayperlər vururdu. Adını unutduğum bir dostumuz da Rafiqi oradan çıxarmaq üçün gedəndə ayağından vurulmuşdu. Rafiqə ağac, kəmər uzadırdılar ki, yapışsın və çəkib atəş altından çıxarsınlar. Halı olmadığından yapışa bilmirdi.



***Şəkildə soldan Rafiq Zülfüqarov və Səyavuş Mustafa***

Indiki kimi gözümün qabağındadı. Gözlərimiz bir-birinə sataşdı, o anda Rafiq "qardaş ölürəm"- dedi. Həmin anda elə bil hansısa bir qüvvə məni bir saniyə belə dayan-mayan snayper güllələrinin yağışı altına atdı. Bircə o ya-

dımdadır ki, qaçaraq Rafiqə yaxınlaşdım, ayağından və yaralı olmayan qolundan yapışıb çiynimə qaldırdım. Snayper atəşləri altında aşağıya doğru iri addımlarla qaçmağa başladım. Rafiq isə iniltili səslə, "qardaş səni də vurarlar. Məni qoy yerə özün get"-deyəndə:

- Qorxma, mənə dəyməz. Səni kürəyimə almışam ki, arxadan güllə atsalar sənə dəysin, deyə həmişə olduğu kimi zarafat eləyirdim ki, kefi açılsın və komaya düşməsin. Rafiq isə çoxlu qan itirdiyindən artıq məni eşitmirdi.

Sonra məlum oldu ki əsgər çəkməmin dabanında düşmən gülləsi girib qalıb. Şalvarımın arxa tərəfdən diz bükümünü və qarın nahiyəmdən konfulyajı güllə deşib kecib (burda deyirlər ki, Allah saxlıyanda saxlayır!). Atəş tutmayan yerə çatanda belə yavaşımayıb düz qərərgahın arxasında bacımın həyat yoldaşı Süleyman həkimin gətirdiyi təcili yardım maşınına kimi gətirdim. Qan axaraq ikimizin də sifətimizi və əllərimizi boyamışdı. Rafiq çoxlu qan itirdiyindən artıq özündən getmişdi. Maşına qoyanda gözlərini azca açdı. Ondan bildik ki, sağdı.

Naxçıvana gətiriləndən sonra təcili Bakıya apardılar. Professor Çərkəz həkim əməliyyat eləyərək sağalmasına nail olub.

Bu yerdə Professor Çərkəz həkim haqqında da bir neçə kəlmə yazmaq istəyirəm. Allah ondan razı olsun dəfələrlə olub ki, gecə yarısı Bakıda evinə zəng vurmuşam. O da xəstəmiz var deyə, səhər birinci reyslə bütün işini, gücünü buraxaraq, öz hesabına bilet alıb, gəlib əsgərlərimizi ölümdən xilas edib.

***23 Mayıs 2020-ci il.***

## RASİM MƏMMƏDOV



Salam Rasim abi! Məndə səninlə birlikdə olan şəkilimiz yoxdu. Çünki atanla erməni quldurlarına qarşı vuruşduğumuz o qanlı-qadalı günlərdə sən 15 yaşında idin. Atan Sədərəkdə yaralanandan sonra onu Bakıda Eksperimental Xəstəxanaya müalicəyə göndərdik. Sədərəkdə bir az ara sakitləşəndə vaxt tapıb atanın yanına xəstəxanaya getdim. Onda da səni görə bilmədim. Xəbər alanda atan sevinə-sevinə dedi ki, "Komandir oğlum Rasim zabit olmaq istəyir. O, mənim qisasımı ermənilərdən alacaq". Sonra atan Almaniyada müalicədə, mən həbsxanada, sən isə hərbi məktəbdə olduq.

8 il sonra həbsdən azad olanda doğulduğum Qaraxanbəyli kəndinə getdim. Atan əlil arabasında Cəhridən bizim kəndə mənə keçmiş olsun deməyə gəlmişdi 8 il idi o düşmən gülləsindən aldığı yaradan yeriyə bilmir, əlil arabasında gəzirdi. Mənə dedi: "Komandir qardaşoğlun Rasim artıq zabit olub, həm də ərizə verib ön cəbhəyə gedib. Mənim qisasımı erməni quldurlarından mütləq alacaq!"

Sonra yenə ayrıldıq. Mənə canım qədər sevdiyim vətənimdə ailəmi dolandırmağa imkan vermədiklərindən işğalçı deyə damğaladığım Moskvaya (həmişə deyirəm ki, sevdiklərimiz üçün sevmədiyimiz yerdəyəm) çörək pulu qazanmağa getdim. Sən isə əvvəlki yerində, ön cəbhədə idin.

2016-cı il aprel ayının 3-də şəhadət zirvəsinə ucaldığını eşidəndə Bakıdan necə gəldiyimi bilmirəm. Kəndinizdə, sənin yas mərasimin keçirilən çadıra girəndə atanı görmədim. Yasda baş sağlığı verənlərə, qürurla "Vətən sağ olsun" deyən Sərdar,Qurban və Yunis əmilərinlə, bibi oğlun Vuqarla görüşdüm.Qurban bəylə xanımların ağlayaraq, nohə deyə-deyə, sinə döydükləri aynabəndinizdən keçərək (dünyada bu beş addımlıq yolu keçməkdən çətin anım olmamışdı) atan yatan otağa keçdik. Atan sistem altında uzanmışdı. Məni görən kimi sistemi qolundan dartaraq çıxartdı. Etirazıma baxmayaraq "Komandir sənin yanında sistem altında uzana bilmərəm"-dedi.

Çox söhbətlər elədik, atan sevinə-sevinə dedi:" Komandir Rasim mənim qisasımı erməni quldurlarından aldı, indi artıq mən rahat ölə bilərəm". Bu sözləri deyəndə kaş atanın gözünün dərinliklərindəki nuru görə biləydin, Rasim abi. Oğul üçün atanın ondan razı qalmağından böyük mükafat tanımıram mən dünyada. Həm də Əbdül kimi atanın.

Sən çox xoşbəxt adam idin abi. Çünki, o böyüklükdə nəslin davamçısı, o cür atanın övladıydın. Ona görə də sən o ucalığa şəhidlik zirvəsinə ucalmalıydı. 24 il yeriyə bilməyən atan səndən 24 gün sonra şəhidlik şərbətini içdi. Indi siz ata bala Allahın şəhidlər üçün ayırdığı cənnətin yüksək məqamındasınız. Nə mutlu sizə!!!

Şəhidlər vurulduğu zaman deyil, unudulduğu zaman ölür, deyirlər. Bu vətən və bu vətənin qeyrətli oğulları sizi unutmayacaq.

Doğum günün mübarək olsun, Rasim komandir.

***20 May 2020-ci il***

## RÖVŞƏN İSMAİLXANLI

Arxadaşlar!

Bu gün yaş günü olan güləşçi, məşqçi,OMON-cu, döyüşçü, səngər yoldaşım və Naxçıvan Veteranlar Birliyinin sədri Rövşən İsmailxanlıya sağlam və uzun ömür arzulayıram. Taleh həyatın müxtəlif sahələrində həmişə bizim yan-yana olmağımızı istəyib.



***Şəkildə: soldan üçüncü Rövşən İsmailxanlı, dördüncü Səyavuş Mustafa döyüş yoldaşları ilə birgə***

Gördüyünüz iki şəkil həyat məktəbinin Kişilik dərslərindən fraqmentlərdir. Təqribən eyni yerdə, amma 32 il fərqiylə çəkilmişdir bu şəkillər. Birinci şəkil 1992-ci ildə, Naxçıvanın o qanlı-qadalı günlərində Sədərəyin Mil təpəsi uğrunda gedən döyüşlər zamanı çəkilib. Əlimi çiyninə qoyduğum Rövşən abi OMON-da vzvod komandiri, mən isə Naxçıvan MR-ın İdman Komitəsinin sədri olsam da könüllü döyüşçülərin komandiri olaraq savaşa qatılmışıq.

Naxçıvanın bütün bölgələrinin vəzifəsindən, işindən və siyasi mövqeyindən asılı olmayaraq bir yumruq kimi birləşdiyi o zamanlar (rəhmətlik Afiyyəddin Cəlilovun dediyi kimi "ermənilər gələndə demiyəcək ki, sən komunistsən, ya sən cəbhəçisən. Hamımızı bir gülləylə öldürəcəklər) səngərdə çiyin-çiyinə vuruşduq. Hər zaman kürəyimizi qayaya söykəyir kimi bir-birimizə söykəyə bildik. Son anda bir tikə çörəyimiz kimi səngərdə patronlarımızı da yarı böldüyümüz o günlərin əvəzsiz xatirəsidir bu şəkil.

İkinci şəkili isə 18 may 2024-cü ildə Sədərək şəhidlərinin xatirə günündə çəkdirdik. Rövşən müəllimin rəhbərliyi ilə keçirilən toplantıda xatirə lövhəsinin açılış mərasimi də oldu. Şəhid və Milli Qəhrəman ailələri ilə birlikdə birinçi şəkil çəkilmiş yerdən az aralı qoyulmuş Xatirə lövhəsinin önündə şəkil çəkdirdik.

Yaş günün mübarək Rövşən abi!

İnşəallah 100 il biz dostlara görə yaşamalısan, ondan sonra isə özün üçün nə qədər istəyirsən yaşa.




Sənə çan sağlığı və bu gün üzərinə götürdüyün Veteranlar Birliyinin sədri kimi məsuliyyətli vəzifəndə uğurlar arzulayıram.

PS. Rövşən bəy müharibə veteranı olmaqla bərabər, həm də güləş veteranı olaraq, veteranlar arasında Dünya Çempionatının finalçısı kimi idman formasını saxlamaqdadır.

Uğurlar abi.

***5 Haziran 2024-cü il***

## SƏDƏRƏK DÖYÜŞLƏRİ

Arxadaşlar!

1992-ci il, may ayı. 28 il əvvəl mayın 17-dən 18-nə keçən gecə Azərbaycanda çox böyük faciə baş verib. Həmin gün biz Naxçıvanda Laçının erməni separatçıları tərəfindən işğal olunduğunu öyrəndik. Bu o demək idi ki, təkcə Ermənistandan deyil, dünyanın hər yerindən terrorçular rahatca Dağlıq Qarabağa gələ biləcək və silah-sursat gətirəcəklər.

Naxçıvanda isə nədənsə Sədərək boyu bütün postlar boşaldılmış yalnız bir vzvod 10 km. sərhəd zolağını qorumaq üçün saxlanılmışdı. Arqument də bu idi ki, daha ermənilər Naxçıvana hücum etməyəcəklər.

Mən mayın əvvəlində Qənimət Zahidlə birlikdə Başbuğ Alp Arslan Türkeş bəyin dəvətiylə "Türklük günü törəninə" qoşulmaq üçün Istanbula getmişdim (bu görüşlər barədə başqa vaxt yazaram).

Bu zaman Bakıdakı vəziyyətlə əlaqədar Naxçıvandan Xalq Cəbhəsinin böyük bir qüvvəsi Bakıya ezam edilmişdi. Mayın 17-i Naxçıvana qayıtdım və 18-i səhərə yaxın həyəcan siqnalı verildi. Naxçıvan Xalq Cəbhəsinin həyətinə yığışdıq və təcili olaraq 28 nəfərdən ibarət silahlı dəstəylə Sədərəyə getdik.

Sədərəyə çatanda şiddətli döyüş gedirdi. Ermənilər demək olar ki rus istehsalı olan bütün texnika və silahlardan aramsız atəş açırdılar. Rusların zirehli texnikası və hərbiçiləri də erməni silahlılarının arxasında gizdənirdilər.

Lazım gələndə önə çıxıb bizim mühüm nöqtələri vurur, erməni seperatçılarına yol açıb geri çəkilirdilər.

Koroğlu bulağı deyilən yerdə "sport rotanın" komandiri Səfər Əliyevlə görüşdük və vəziyyət haqda məlumat aldıq.

Gecə ermənilər postların boş olduğunu bildiklərindən Mil təpəsi istiqamətində hücum edərək ordakı Sədərək kəndinin könüllüləri və DMK-nin (Dövlət Müdafiə Komitəsi) əsasən Sport rota dediyimiz Idman rotasının və digər rotaların əsgərlərindən ibarət 18 nəfər igidlərimizi şəhid etmişdilər.

Postlarda səhərə yaxın həyəcan siqnalıyla bura gəlmiş Idman rotasının əsgərləri döyüşürdü. Bizim döyüşçülər də postlara bölüşdürüldü.



Bu arada bir məsələni deyim ki, Sədərəkdə Mil təpəsi uğrunda döyüşlərə rəhbərlik edəcəyim o andan başlayaraq 10 gündən çox gedən və 50-yə yaxın şəhid verdiyimiz o günlərdə yadımda qalan hadisələri gün ardıcıllığı ilə yaza bilməyəcəyim üçün yaddaşımda həkk olan hadisələri yazacağam.

Döyüşlərin aramsız getdiyi vaxtlarda düşmən snayperləri bizə çox itki verirdi (kəşfiyyatın gətirdiyi məlumata görə onlar əsasən pribaltikadan gətirilmiş qızlar idi. Onları da döyüş yerinə ağ nivalarda gətirib aparılırdılar. Adlarına da "belıye lifçiki" deyirdilər).

Biz hər saatdan bir düşmənə hücum edib şəhidlərimizin qanı axıdılan sonralar "İdman rotası"nın döyüşçüləri tərəfindən "Qanlı səngər" adlandırılan səngər istiqamətdəki şəhidlərimizə yaxınlaşıb onları götürməyə çalışsaq da itki verməyək deyə hücumu axıra çatdıra bilmirdik.

Digər döyüş bölgələrində qəhrəman OMON-çular və polislər Azər Məmmədovun başçılığı ilə Ucubiz deyilən postlardakı bütün mövqelərdən erməniləri vurub çıxartmışdılar. Təəssüf ki bu döyüşlərdə OMON-çu qəhrəman qardaşımız Ilkin şəhid olmuşdu.

Elə o vaxt artıq igid Millət vəkilimiz Şahmərdan bəy öz "Şərur qartalları" batalyonuyla Cin təndiri, Əjdakan və Beşbarmaq istiqamətində bütün postları itki vermədən geri qaytarmışdılar.

Qırmızı torpaq və Əliqulu uşağı deyilən istiqamətdən tutmuş birinci post olan Koroğlu bulağına kimi Sədərək kəndinin qəhrəman oğulları ( Sədərəklilər bütün döyüş

mövqelərində Naxçıvandan gələn qüvvələrlə çiyin-çiyinə mərdliklə vuruşurdular), DMK-nin əsgərləri və Xalq Cəbhəsinin könüllüləri döyüşürdü. Ümumiyyətlə, bu döyüşlərin nəticəsində düşmənin 70-ə yaxın döyüşçüsü məhv edildi, onlarla texnikası vuruldu və bir nəfər erməni də əsir alındı.

Ordubad, Culfa, Naxçıvan, Şahbuz, Babək, Şərur və Sədərəyin könüllüləri (burda Xalq cəbhəsi sözünü bilərəkdən işlətmədim ki, döyüşlərdə iştirak edən və cəbhəçi olmayan digər döyüşçü qardaşlarımızın haqqına girməyim. Onsuz da o zaman xalqın 90 faizi cəbhəçi idi. Amma yenə də ...) ardıcıllıqla bir gündən bir Sədərəyə döyüşə gəlirdilər. Bütün Naxçıvan bir yumruq kimi düşmənə qarşı səfərbər olmuşdu (Birinci hissə).

## SƏYAVUŞ HƏSƏNOV



Arkadaşlar!

Talehin ironiyasına bax, biz Azərbaycanın kəndlərindən gələn tələbələr vətənimizin paytaxtında, 17-ci Naqornu adlandırılan küçədə erməni Seronun zirzəmisində kirayə qalırdıq. 4 gənc idik: Şərurun Yengicə kəndindən Adil, Adilin qardaşı Səyavuş, Tənənəm kəndindən Cavanşir və mən Səyavuş. Səyavuş Həsənov 20 yanvar günü anadan olmuşdu. (1986-cı ildə biz tanış olanda hələ 20 yanvar hadisəsi baş verməmişdi). Hər dəfə Səyavuş "adaş, mənə sambo pryomları öyrət. Sən bildiklərini mən bilsəm trestdə qabağıma çıxan olmaz" -deyirdi. Sonra mən Naxçıvana, sən isə Tümenə getdin. Ad günündəki faciədən, 20 yanvar 1990-cı ildən sonra vətənə qayıtdın. Səninlə Bakıda son görüşümüzdə ikimiz də komufulyajda, milisin (polisin) döyüş formasındaydıq. Döyüşlərdən, dostlarından ağız dolusu sevinə-sevinə, fərəhlə danışırdın. Doğurdan da sənin qabağında heç bir erməni dura bilmədiyi üçün, sənin üstünə tank göndərdilər. Sən Qarabağda tankı belə yendin və son dəfə vətən dediyimiz Ana torpağı qucaqlayıb şəhidlik zirvəsinə ucaldın!

Sonra...

Sonra sənin şəhidlik xəbərin gələcək. Adillə Naxçıvanda görüşüb aeroportdan yola salacağıq. Bir həftə sonra sənin nəşin alınacaq. Bakıda Şəhidlər Xiyabanında dəfn mərasimi keçiriləcək və Prezident Əbülfəz Elçibəy sənə ölümündən sonra Milli Qəhraman adı verəcək.

Oxuduğun Şərur rayonu Yengicə kənd məktəbinə sənin adının verilməsi, kənddə sənin büstünün qoyulması, dostlar tərəfindən Baksol yolunda adına bulaq tikilməsi, sən şəhid olandan iki ay sonra qızının doğulması, sən şəhid olanda iki yaşı olan oğlun Həsənin toyu, və hər il sənin ziyarətinə gəlməyimiz gəlib, keçir gözlərimin önündən. Bütün bu hadisələrdə sən də orda idin. Amma biz səni görmürdük…

Allah sənə rəhmət etsin, igidim!

***25 Haziran 2020-ci il.***

## SƏYYAD ƏHƏD OĞLU



Arxadaşlar!

Bu həmin şəhid Səyyaddır ki, atası Əhəd kişi İkinci Dünya Müharibəsində Çexoslavakiyada gedən döyüşlər zamanı partlayışdan gözlərini itirmişdi. Çexiyada yaşayan almanlardan olan Erika (Naxçıvanda hamı onu Erika deyə çağırırdı. Doğru adı necəydi bilmirəm) hərbi hospitalda xəstə baxıcısı işləyirmiş. 16-17 yaşlı alman qızı Erikaya yaralı və iki gözü kor olan Əhədi evinə aparmağı tapşırırlar. O, çox çətinliklə tapşırığı yerinə yetirir.

Müharibənin vurduğu yaralar cəbhə bölgəsindən çox –çox uzaqlarda olan Naxçıvana da öz təsirini göstərmişdi. Aclıq, qıtlıq, xəstəlik baş alıb gedirdi. Naxçıvana gəldiyi ilk günlərdə Erika görür ki, tapşırığı yerinə yetirib geri qayıtsa baxımsızlıqdan Əhəd düynasını dəyişəcək. Beləliklə, o, geri qayıtmır, Əhədin qulluğunda durur, yaralı və iki gözdən kor Əhədlə evlənir. Sovet təbliğatının təsiri ilə almanlara nifrət hissi aşılandığından Erikaya, bu xeyirxah qıza adamlar xoş baxmır. Lakin o bütün tənələrə, atmacalara dözür. Alman qızı ilk doğduğu oğluna Səyyad adını qoyur. Əhəd əminin gözəl qarmon çalması və it boğuşdurarkən səslənməsi ilə bağlı söhbətləri bu gün də Naxçıvanda danışılır. Gözləri görməsə də itinin boğulduğunu hiss

edəndə necə gur səslə səslənirmişsə məğlub olmaqda olan it qalibə çevrilirmiş.

İllər ötür Əhəd əmi dünyasını dəyişir. Uzun yazışmalardan sonra Erika xala öyrənir ki, Çexoslavakiyada yaşayan valideyinləri müharibədən sonra Batı Almaniyaya köçüb. Sovet hökümətinin icazəsiylə Erika xala Batı Almaniyaya gedir. Uzun illər görmədiyi valideyinlərinin, qohumlarının məğlub Almaniyada Sovetlər Birliyində yaşayanlardan qat-qat firəvan yaşadığını görür. Ona Almaniyada qalmasına, övladlarını da yanına gətirməsinə yüksək səviyyədə təklif gəlsə də onu qəbul etmir. Kasıb, lakin mehriban yaşayan Naxçıvanlıların yanına qayıdır.

Atası dünyasını dəyişəndən sonra alman anasının himayəsində böyüyən Səyyad böyüyəcək ərsəyə çatacaq və o da qohumlarının dəvəti ilə Batı Almaniyaya gedəcək, ona da orada qalmağı təklif edəcəklər. Ana balanın bu təklifi qəbul etmədiklərinə, firəvan həyatı seçmədiklərinə çoxları heyrət edəcək. Onda çoxları bilmirdi ki, Səyyadı Naxçıvana cəkən vətən torpağı var. Bəlkə bunu heç Səyyadın özü də bilmirdi. Şərəfsiz qonşularımızın Naxçıvana hücumu vaxtı silaha sarılıb torpaqları qorumağa qalxanların ön sıralarında Əhəd əminin övladları və nəvəsi də olacaqdı.

Səyyad çox şən, deyib-gülən və zarafatcıl adam idi. Həmişə zarafatla deyərdim ki, “ay Səyyad, biz Ana Vətənimizi qorumaq üçün vuruşuruq. Sənin ki, ananın vətəni Almaniyadır. Sən niyə bizə qoşulubsan?"

Rəhmətlik də cavabında deyərdi: “Anamın doğulduğu yer Almaniya olsa da anam vətən kimi Naxçıvanı seçdi. Al-

maniyaya geri dönmədi. Mənim də, oğlumun da,qardaşımın da ata ocağı Naxçıvandır. Biz ata ocağımızı qoruyuruq".

1988-89-cu illərdə Naxçıvanda Daxili Işlər Naziri işləmiş Ramil Usubov Moskvanın tapşırığı ilə əhalidən ov silahlarını yığdırmışdı. Milisdə işləyənlər də bunun hansı faciəyə yol açacağına əhəmiyyət vermədən kölə kimi əmrə tabe olmuşdular.

1990-cı ildə ermənilərin hücumu vaxtı əli yalın qalan əhali "dar gün üçün" gizlədib saxladığı silahları ortaya çıxartmışdı. O silahlardan biri də kor Əhədin hökumətdən gizləyib oğlanlarına yadigar qoyduğu beşaçılan idi.

Səyyad bu silaha atamın yadigarıdı deyirdi. Səyyad elə sərras atırdı ki, hətta bir dəfə Əshabi Kəhfin düzündə könüllü döyüşçülərin növbəti silahla davranma, atəş açma və s. təlim məşq toplanışında "General" adlandırdığımız komandir Sahib Hüseynovla mərcləşib nişan vurmağa başlayırlar. Ilk öncə butulkadan başlayan nişangah ən sonda Səyyadın cibindən çıxartdığı fındıqla sonlanır ki, fındığı da Səyyaddan başqa heç kim vura bilmir. O gündən də Səyyadın ləqəbi Fındıq oldu. Adının qarşısındakı fındıq sözü cəbhəcilərə Sovet Ittifaqı Qəhrəmanı fəxri adından daha qürurlu görünürdü.

Sədərək və Mil təpəsi uğrundakı şiddətli döyüşlərdə mən komandir kimi daima döyüş bölgəsində olur şəhərə qayıda bilmirdim. Mil təpəsinə yaxın olan Heydərabad qəsəbə məktəbini də özümüzə qərargah eləmişdik. OMON, Dövlət Müdafiə Komitəsi, Sədərək könüllüləri, polislər və Naxçıvanın bütün bölgələrindən gələn könüllü döyüşçülər

isə bir gündən bir postu daha doğrusu səngəri təzə gələnlərə təhfil verirdilər.

Səyyadın iki gün dağdan aşağı enmədiyini eşidib "Qanlı səngərə" (şəhidlərimizin qanıyla sulandığı üçün "Sport rota" dediyimiz "Idman rotasının" igid döyüşçüləri həmin səngərə bu adı vermişdilər) Səyyadın postuna gəldim. Pulemyotu döyüşə hazır vəziyyətə gətirmişdi.

Niyə aşağı enib şəhərə qayıtmadığını və dincəlmədiyini soruşanda, məni qucaqlayıb hönkür-honkür ağladı və "Komandir 50-100 metirliyimizdə qalan 18 nəfər şəhidimizi götürməyincə mən aşağı enməyəcəyəm!"-dedi

Həqiqətən də Səyyad kişi kimi dediyinin üstündə durdu və aşağı enmədi. 25 may 1992-ci il günorta saatlarında şəhid oldu və döyüşçü dostları Səyyadın nəşini dağdan aşağı endirdilər…

Allah rəhmət eləsin.

Onu da deməsəm olmaz. Səyyad kimiləri döyüşür, vətəni qoruyurdu. Qaçıb siçan deşiyinə girənlər isə döyüşçüləri ruhdan salmaq üçün “onu arxadan vurdular”, kimi şaiyələr yayırdılar. Səyyad şəhid olanda oğlu da onunla bir səngərdə vuruşurdu. O, atasının necə vurulduğunu görmüş və atasının nəşini döyüşçü dostlarıyla birlikdə atəş nöqtəsindən çıxarmışdı.Yalnız Səyyadın şəhid olması ilə bağlı deyil, atdığımız hər addımla bağlı şaiyələr yayır, mübariz insanları ruhdan salmağa, onların ailələrini qorxutmağa çalışırdılar.

Lakin dedi-qoduçuların bütün səylərinə baxmayaraq vətənpərvər və cəsur oğullar Naxçıvanı qoruyurdular.

***25 Mayıs 2024-ci il.***

## ŞAH LƏQƏBLİ ŞAHMƏRDAN

***Bütün yaralar qaysaq bağlayır, Şahın yarası hələ də qanayır.***

**Əbülfəz Elçibəy**



Arxadaşlar!

ŞAH!

Bu sözün günümüzün Azərbaycan türkcəsindəki anlamı, istiqlalçı millət vəkili, "Şərur qartalları" Müdafiə Batalyonunun qəhrəman komandiri, Naxçıvan Sərhəd Qoşunlarının ilk milli komandanı, vətənpərvərlik, kişilik, qeyrət və mərdlik simvolu olan Şahmərdan Məhəmməd oğlu Cəfərov deməkdir!

Valideyinləri ona Şahmərdan adı qoymuşdular. Milli Azadlıq Hərəkatı isə onu Şah kimi tanıtdı.

Əbülfəz Elçibəy"Bütün yaralar qaysaq bağlayır,Şahın yarası isə hələ də qanayır"deyirdi, Prezidentin Naxçıvandakı səlahiyyətli nümayəndəsi və Azərbaycan parlament sədrinin birinci müavini Afiyəddin Cəlilov da mənə xitabən "Komissar Şaha da xəbər elə, Iğdıra müqavilə bağlamağa gedəcəyik"-deyirdi.

"Bəy başınız sağ olsun, Şah bu gecə çentralnıda (həbsxanaların mərkəzi xəstəxanası) rəhmətə gedib"-deyən Azyaşlıların Islah Əmək Düşərgəsinin (1995-ci ildə azyaşlıla-

rın koloniyasını bölüb yarsında bizi saxlayırdılar) rəis müavini Rafiq müəllim də, bir sözlə hamı ona Şah deyirdi.

O, doğurdan da zəmanəmizin Şahi idi. Istər döyüşlərdə, istər Xalq Cəbhəsində, istər parlamentdə həmişə sözünü Şah kimi deyərdi. Bu gün düşmənə sinə gərən, döyüşlərdə qartal kimi pərvaz vuran, başına pullar qoyulan ancaq, düşmən deyil, öz alçaq və namərdlərimizin gülləsindən xaincəsinə açılan atəşin qurbanı olan Şahımızın əbədiyyətə qovuşan günüdür!

Sonra...

Sonra sənin xəbərini həbsxanada alıb, acizliyimizi 7 gün keçirəcəyimiz yas mərasimiylə ovundurmağa çalışacağıq.

Sənin ölündən də qorxurdular. Cənazənin Bakıdan yola salınmasına və Naxçıvanda qarşılanmasına adamların çox yığılacağından qorxanlar nəşini xəlvətcə gecə yola salsalar da,aeroportdan şəhərə kimi, azadlıqda olan dostlar sənə olan son sədaqət borcunu izhar eləmək üçün səni çiyinlərində daşıyacaqlar. Canından da çox sevdiyin Şərur və kəndinizdə dəfn mərasiminin keçirilməsi, həbsdən çıxan kimi səni ziyarətə gəlməyim!

Və əbədi ayrılıq!

Bilirəm, ruhun şad deyil Şah!

Amma olacaq abim, özü də mütləq olacaq, komutanım!

***29 haziran 2020-ci il.***

## TALEH HƏSƏNOV



Arxadaşlar!

Şəkillərdə Taleh Həsənov və mən. 35 il əvvəl və indi! Deyə bilərsiniz ki, nə olsun?

O olsun ki, o vaxt yəni 1988-ci ildə biz tələbə idik. Bədən Tərbiyəsi institunda oxusaq da axşamlar hələ təzə-təzə tikilməkdə olan Yeni Günəşlidəki uşaq bağçasında axşamlar qarovul dururduq. Ən əsası isə müharibə başlamamışdı və Talehin çənəsi və şəkildə telefon tutan protez əlləri də düşmən minaatanı ilə üzülərək itirilməmişdi, özününküydü.

Taleh abi, Qazağın işğal altında olan Aşağı Əskipara kəndindəndi. Müharibə başlayanda özü kimi igid və qeyrətli kəndlilərindən ibarət könüllü dəstə yaradıb vətən uğrunda vuruşurdu. O, döyüşlərin birində minaatanla vurulur, əlləri, çənəsi və bədəni mina qəlpələrindən yara alır. Qollarını dirsəkdən xilas etmək mümkün olmur.

Çənəsi və bədəninin başqa üzvləri isə Allaha şükür ki, Almaniyada mütəxəssislər tərəfindən uzun müalicədən sora bərpa olur. Sonralar qolu olmadığı halda başqa bir tələbə yoldaşımız Şahnaz ablayla ailə qurur və Allah Taala Talehə iki olmayan qollarının yerinə iki oğlan övladı verir. Taleh hələ də ailəsi ilə Yasamalda yataqxanada yaşayır.



*5 mart 2023-cü il.*

# YETİM QƏHRƏMAN



*Şəkildə soldan Yetim Qəhraman və Mir Cabbar ağa Naxçıvanda. Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Ramizin dəfnində.*

Arxadaşlar!

Elə indicə Naxçıvandan çox sarsıntılı bir xəbər aldım. Qəhrəman abimiz koronovirusdan rəhmətə gedib. Bilirsiniz Qəhrəman kim idi (düzü ha fikirləşdim nə soyadını bilirəm nə də ata adını. Heç yaşını da bilmirəm. Biz beləy-

dik, kimsəni ata babasına görə yox, özünə görə, gördüyü işə, əməlinə görə tanıyıb qiymət verərdik!)?

Qəhrəmana cəbhəçilər Yetim ləqəbi qoymuşdular. Hamımız Yetim Qəhrəman deyirdik. Bəzən də El atası, Millət atası, Xalqın atası da deyirdik.

Qəhrəman Naxçıvan şəhərində Cəbhənin həyətindəki çayçını işlədirdi. Çayçı sözünü eşidib başqa fikirə düşməyin haaa!

Qəhrəman həmin çayçıdan Sədərəkdən tutmuş, Şərurun Havuş, Yaycı, Babəkin Buzqov, Kərməçataq, Şahbuzun Şada, Batabat, Kükü, Culfanın Qazançı, Ordubadın Göy-göl, Soyuq, Kotan, Kilidinə kimi bütün döyüş bölgələrindəki könüllülərimizi, yeməklə təmin eliyir, hansı postda neçə nəfərin və kimlərin olduğunu komandirlərdən yaxşı bilirdi. Bəzən özü də döyüşlərə qatılardı. Elə çəlimsiz idi, deyirdin üfürsən yıxılar. Amma içindəki qeyrət onu ən ağır döyüşlərə də aparırdı.

Rəhmətlik Böyük Bəy Naxçıvana gələndə "Qəhrəmanın çayından içməsəm getmiyəcəm"deyirdi.

Qəhrəman bir çox döyüşlərdə bizimlə çiyin-çiyinə döyüşəndə, onunla bir posta olmaq üstündə uşaqlar dava edərdilər. Fanatik dindar deyildi. Namazını, orucunu qəzaya uğratdığı vaxtlar da olurdu. Titizliklə "namazımın qəzasını qılacam", "orucumun qəzasını mütləq tutacam" deməzdi. Orucluq vaxtı döyüş doslarından seçilməmək üçün onlarla birgə yemək də yeyərdi.

Güllə səsləri kəsiləndə səngərdə Qurandan ayələr danışır, hədislər söyləyir, dini rituallardan söhbət edərdi

(sonralar Həcc ziyarətinə də getdi). Hamımız Qəhrəman abini çox istiyirdik. O, bizim həm atamız, həm qardaşımız, həm dostumuz, həm də silahdaşımız idi. Bu dəqiqələrdə məlumat verdilər ki, hələ cənazəsini ailəsinə vermirlər. Necə dəfn olunacağı da bilinmir. Bilinən odur ki, bir abimiz, bir silahdaşımız da Qarabağ deyə-deyə dünyasını dəyişdi. Bir döyüş yoldaşımız da döyüşsüz köçdü bu dünyadan. Ölüm haqdır. Hamımız öləcəyik. Amma necə ölmək mühüm məsələdir. Allah Hacı Qəhrəman abimizə əməli salehlərin məqamından yer ayırsin, İnşaallah!

***19 Haziran 2020-ci il.***

## YUSİF MİRZƏYEV



Arxadaşlar!

1993-cü ilin bu günü Milli qəhrəmanımız Yusif Mirzəyevin Ağdərə uğrunda döyüşlərdə qəhrəmancasına şəhadət zirvəsinə ucaldığı gündür. Yaxşı yadımdadır ki, dostum Şəmistan Əlizamanlı mənə zəng vurdu ki, Bəy, biz sabah "Yusiflə gəlirik".

Axşam Xıncov məhləsindəki ata evlərinə getdim. Əsilləri Böyük Düz kəndindən olsa da sonradan bura köçmüşdülər. Gecədən qarşılanma hazırlıqları görüldü, yaxalara vurmaq üçün kiçik şəkilləri çap edildi.

Yusifin cənazəsinin qarşılanmasına çıxanların sayını deyə bilmərəm.Amma onu deyə bilərəm ki, Böyük bağdan Xıncov məhləsindəki evlərinə, oradan da Şəhidlər xiyabanının yanındakı Respublika Sarayına kimi cənazəsini çiyinlərimizdə apardıq. Mən bilən Naxçıvandakı Respublika Sarayında ilk dəfə Yusif Mirzəyevə vida mərasimi təşkil etdik.

Beləcə and yerimiz olacaq bir məzar da yarandı Naxçıvanın Şəhidlər Xiyabanında. Prezident Əbülfəz Elçibəyin fərmanı ilə ona Milli Qəhrəman adı verildi. Şəmistan Əlizamanlıyla hospitalda yatarkən yazdıqları "Igid Əsgər" mahnısını Şəmistan bəy Yusifimizə həsr elədi.

Həmişə Naxçıvana gedəndə təyyarədən enərək ilk ziyarətinə getdiyimiz şərəf abidəsi  Şəhidlər Xiyabanı olur.Burada uyuyan hər şəhidin isə əsasən dostlarımız olaraq bir xatirəsi uyuyur qəlbimizin dərinliklərində.

Ruhun şad olsun şəhidim, Şuşamız düşməndən azad olunub!



***Şəkildə soldan Yusif Mirzəyev və Şəmistan Əlizamanlı***

***19 Şubat 2023.***

## MƏHBUS GÜNDƏLİYİNDƏN
## AXIR ÇƏRŞƏNBƏ




Arxadaşlar!

İl 1998, ay mart, gün isə bu gün, yəni Axır çərşənbə günü!

Yer: Həmişəki kimi...Qobustan Qapalı həbsxanası. Birinci korpus, birinci mərtəbə 4 nəfərlik kamerada tək mən.

Dünyanın ən dəhşətli yerlərindən olan məşhur “Qobustan karsının" sökülərək ləğv edilməsi tələbiylə aclıq aksiyamın 16-cı günü (aclıq aksiyamın 18-ci günü həmən karsı söküb ləğv elədilər. Mən də aclığı dayandırdım). Korpusun baş nəzarətçisi Şuşalı Seyid Səməddən iki ədəd kibrit qutusu istədim. (Səməd və qardaşı ikisi də Qapalı həbsxavada işləyirdilər. Səməd qaçqınlıqdan qabaq Şuşa həbsxavasında da işlədiyindən,dustaqlarla çox mülayim davranır imkanı daxilində bütün məsələləri yaxşılıqla yola verməyə çalışırdı. Həbsdən çıxandan neçə il sonra Xudafərin şadlıq sarayında övladının toyunda da iştirak etmişəm)

"Bəy, siz ki, siqaret çəkmirsiniz?" (başqa məhbuslardan fərqli olaraq mənə həmişə siz deyə müraciət edirdi)- deyə bir kibrit qutusu gətirdi.

Axşam yoxlanışı bitəndən sonra kameranın ortasında beton döşəmənin üstündə kibrit çöplərindən bir "tonqal" düzəltdim. Kükürtlü hissələrini yuxarı qoydum ki, tez yanıb bitməsin. Alışdırdım və əvvəlcə şəhid olmuş qohum və dostlarımın, sonra ailə üzvlərimin, daha sonra isə bütün qohum əqraba və dostlarımın hamısının əvəzindən "tonqalın" üstündən "hoppandım"(rəhmətlik anam Novruz bayramlarında yanımızda olmayan ailə üzvlərimizin əvəzindən bizi tonqaldan tullandırardı).

Bunu elədikcə, öz-özümə fikirləşib gülürdüm ki, indi mənim bu hərəkətimi kameraya çəkib azadlıqda kimə göstərsələr hamı deyəcək ki, Səyavuş türmədə dəli olub. Bu günkü 6 aylıq həbsimi, 7 aylıq qandallı ev dustaqlığımı və

mənə verilən 4 il icbari cəzamı nəzərə almasaq. 22 ildir həbsdən çıxmışam və dünyanın harasında oluramsa olum, Ilaxır çərşənbəsində tonqal qalayır, həbsxanadakı həmin günü yadıma salır və şəhidlərimizin, dünyasını dəyişən qohum və dostların əvəzindən tonqaldan tullanıram.

Hər il bir şeyə də təəssüflənirəm ki, adını çəkib, əvəzinə tonqalın üstündən tullandığım adamların sayı ildən ilə artmaqdadır.

P.S. Bəs sizin həyatınızda hansı qeyri adi ilaxır çərşənbə olub?



*Həbsxanadan sonar Sibirdə keçirdiyim ilaxır çərşənbələrindən biri*

***15 mart 2023-cü il.***

## ATAM VƏTƏN XAİNİ DEYİL

Arxadaşlar!

Il 2000, məkan Qobustan Qapalı Həbsxanası, hadisə 4 ayda bir verilən ailəvi görüş.

Bilmirəm bilərəkdən, yoxsa bilməyərəkdən Qobustan Qapalı Həbsxanasını elə yerdə tikiblər ki, orada yaşayış milyon il öncə qayalar arasında, mağaralarda gün keçirmiş əcdadlarımızın yaşayışından elə də fərqlənmir. Fərqli cəhətləri ondan ibarətdir ki, mağaradakılara nə vaxt yatdın, nə vaxt durdun, haraya getdin, haradan gəldin deyən yox idi. Onların əsas qayğısı necə yemək əldə etmək idi. Həbsxanada isə yemək əldə etmək üçün gün boyu ov dalınca qaçmaq, vəhşi heyvanlara tələ qurmaq lazım gəlmirdi. Insan yeməyi üçün normal sayılmayan balanda ilə dustaqlar təmin edilirdilər. Amma onların yatmağı da, yuxudan durmağı da, günəşə baxmağı da, gəzməsi də, hətta təmiz hava alması da başqalarının əlindəydi.

Düz Qobustan qayalarının aşağı hissəsində tikilən həbsxananın 3-cü korpusunun 2-ci mərtəbəsində (içi "ömürlük" adlanan ömürlük azadlıqdan məhrum olunan məhkumlar saxlanılan korpuslar daxil, 1-ci və 3-cü korpusdan başqa qalan korpuslar bir mərtəbəlidir) "sançast"deyilən, dustaqların əsasən pullu təbəqəsinin pul verib yatdığı yerdən qayaların arasında ağappaq muzey kompleksi görünür. (Həbsdən azad olunandan sonra Qobustan Qapalı Həbsxanasındakı dostları ziyarətə

gedəndə oraları gəzərək neçə il uzaqdan uzağa, pəncərədən seyr elədiyim yerlərlə tanış olanda bildim ki,o "ağ ev" dediyimiz tikili muzey imiş).



*Şəkildə: oğlum Əsgər ata həsrətilə mənim portretimi öpərkən*

Prezident Elçibəyin əmriylə DIN-dən alınıb Ədliyyə Nazirliyinə verildikdən sonra Penitensiar xidmətdə aparılan islahatların ən əsaslarından biri ondan ibarət idi ki, kameraların pəncərələrindəki "jalüzləri" sökmüşdülər. (Cəbhə hakimiyyətdən gedəndən sonra "jalüz"süz dəmir barmaqlıqlı pəncərələrdən ətraf görünməsin deyə korpusların ətrafında birinci mərtəbələrin hündürlüyü qədər divar hördülər. Həbsxananın rəhbərləri Xalq Cəbhəsinin hakimiyyətindən öncə də, sonra da işləyirdilər. Xalq Cəbhəsinin hakimiyyəti illərində onlar inanılmaz dərəcədə mülayimləşmişdilər. Xalq Cəbhəsi hakimiyyətdən gedəndən sonra dəhşətli qəddarlaşdılar.)

Bunun sayəsində sançastın pəncərəsindən Qobustan qayaları, birinci korpusun ikinci mərtəbəsindən isə Bakı-Salyan yolu və onun arxasında isə Xəzər dənizi görünürdü.

Hər gün səhər tezdən dənizdən günəşin çıxmasına baxır, axşamlar isə rayonlara gedən maşınların ağ, Bakıya gedən maşınların qırmızı işıqlarını seyr edirdim.

Həmişə də fikirləşirdim ki, görəsən bu maşınların içində kimlər var, hara gedirlər, nə fikirləşirlər, istədikləri vaxt getdikləri istiqamətdən dönüb əks tərəfə gedə və yaxut maşını saxlayıb yerə düşmələrinə heç bir qadağa və nəzarət yoxdur?

Görəsən ağıllarına gəlirmi onların işığını Qobustan Qapalı Həbsxanasının 1-ci korpusunun 2-ci mərtəbəsinin 32-ci kamerasından kimsə izləyir? (Indinin özündə də o

yolu keçəndə maşının "avariynilərini" vurmaqla Qobustandan mənə baxanlara "salam" göndərirəm)

Ilk dəfə bu hisslər məndə hələ Binədəki 9-cu zonun karsında yatarkən baş qaldırmışdı.

Deməli rəhmətlik Prezidentimiz Əbülfəz Elçibəy dünyasını dəyişən gün səhər saat 6-da məni yuxudan oyadıb karsa apardılar.O gündən Qobustana aparılanadək 6 aya yaxın müddət əzablı günlərim başlandı.(guya həbsxanadakı başqa günlərim əzabsız imiş)

Yayın cəhənnəm istisi karsın üstündəki qırı əridib ordan da beton örtüklərə keçir gecədən xeyli keçənə kimi də kamera o qızmış beton örtüyün hesabına nəfəs alınmayacaq dərəcədə qızırdı.

Kameranın hündürlüyü bir qarış olan pəncərəsindən axşamlar yaxınlıqdakı donuz fermasından bir mlyon ağcaqanad amansıscasına içəriyə hücum çəkdiyi zaman hardasa yaxınlardakı Binə kəndində şıdırğı toy çalınırdı.

Müğənni:

Səbər saat yeddidə,
Qırmızı nol yeddidə,
Dal qapını açdılar,
Qızı götürüb qaçdılar- oxuyurdu.

Mən də dəmir şponkanın (şponka kameranın divarında quraşdırılmış dəmir çarpayıya deyilir. Səhər podyom vaxtı nəzarətçilər çöldən şponkanı qaldırıb zəncirlə divara bağlayırlar ki, dustaq gün ərzində onun üstündə otura, uzana bilməsin. Axşam adboyda isə zənciri açıb şponkanı endirirlər ki dustaq onun dəmir lövhəsi

üzərində yatsın) üstündə ağcaqanadlarla "ölüm-dirim savaşı" apara-apara mahnıya qulaq asır və öz özümə gülümsəyib fikirləşirdim ki, görəsən kimin toyudu, oynayan neçə nəfərdi, kimdilər və görəsən heç ağıllarına gəlirmi ki, onlar oynadığı və qoşa nağaranın sürətli və ahəngdar ritmi ilə müşaiyət olunan mahnı karsda bir dustaq tərəfindən də dinlənilir?

Nə isə hərdən içimdə baş qaldıran belə sentimental hisslərdən ayılıb gələk Qobustan qapalı həbsxanasına.

1999-ci il yanvarın 8-də baş vermis, keçmiş general Vahid Musayevin, bir neçə dustağın və bir zabitin ölümüylə sona çatmış "buntuna" qədər nəzarətçi dustaq münasibətləri elə də dərin ziddiyət təşkil etmirdi.

Korpusun starşınasına, yaxut hansısa bir zabitə və hətta üç gündən bir işə çıxan nəzarətçiyə pul müqabilində kamerada lazım olan üz qırxan, sabun, şampun, ərzaq, qəzet və s. aldırmaq olurdu. Hətta pulla gündə bir saat olan proqulkanı (dustaqların üstü dəmir armaturlarla bağlanmış və dam örtüyü olmayan kameralara növbə ilə çıxarıldığı gəzinti yeri) uzatmaq və ya iki dəfə gəzintiyə çıxarılmaq, kameraya hava gəlməsi üçün "karmyoşkanı" (kameranın dəmir qapısı üzərində yemək verilmək üçün xüsusi düzəldilmiş nəfəslik) açıq saxlatmaq mümkün idi.

Buntdan sonra isə bütün bunlar mümkünsüz olmuş, dustaqlara qarşı amansız münasibət və "qayğı" tətbiq edilməyə başlanmışdı. Elə vaxtlar olurdu ki, tək saxlanıldığım kamerada onsuz da bir dənə olan böyrəyimdən pristup tuturdu. Betonun ustündı qıvrıla-

qıvrıla sabah səhər proverkasını gözləmək məcburiyyətində qalırdım ki, proverka vaxtı həkim gəlib mənə baxsın. Heç yerə əlim çatmayan və ağrılardan doğrandığım həmin vaxtlar Allaha üz tutub yalvarırdım ki, ″Allahım özün bilirsən ki, mən ölümdən qorxmuram. Amma belə ölüm mənə yaraşmır. Həbsxananın bir küncündə böyrək ağrısından ölmək mənə utancdır. Heç olmasa möhlət ver gedim ermənilərdən qisasımı alım, öləndə də bir neçə düşmən öldürərək kişi kimi ölüm″.

Qanunla tənzimlənən görüş və sovqat gətirilməsi belə tamam kəsilmiş, bayırla əlaqə yox dərəcəsində olmuşdu.

"Burjuylar" (pullu dustaqlar) daxil, bütün dustaqlar "balandaya" otuzdurulmuşdu. (Adətən kələm borşundan və "pşeniçnı kaşa"dan (cücə yemi) ibarət olan, dustaqlar üçün hazırlanmış, səhər günorta və axşam "balandiyorşik"lər (yemək paylayan "xozoda srok çəkən" dustaq) tərəfindən dəmir arabayla daşınıb yekə qazanlarda böyük kəfkirlə paylanılan "yemək" (yemək deyə biləriksə)

Hətta "svyaznoy" deyilən bütün korpus boyu kameradan kameraya keçməklə uzadılmış istilik atapleniyalarını əvəz edən boru vasitəsi ilə qonşu kameralarla danışmaq (bu borular vasitəsi ilə hətta 4-5 kamera aralı olan dustaqlar bir birləriylə danışa bilirdilər.

Danışıq prosesi isə belə həyata keçirilirdi.

Məsələn 1 nömrəli kameranın dustaqları 4 nömrəli kameranın dustaqları ilə "svyaza " (danışığa) çıxmaq istəyirlərsə boruya dəmir qabla və yaxut qaşıqla 4 dəfə

vururlar. 4 saylı kameradakı dustaq isə "dördüncü kamera eşidir "səsini göndərirsə.Bundan sonra danışıqlar başlanır.

Danışan dustaq dəmir kruşkanın arxa tərəfini borunun üstünə dayayıb var gücü ilə kruşkanın içinə istədiyi sözləri deyir və sözü bitdikdən sonra "priyom" (bu sözünün bitdiyinə işarədi) deyərək əks tərəfin cavadını dinləmək üçün kruşkanı çevirib indi də ağız tərəfini boruya dayayır, qulağını kruşkanın arxasına tutmaqla deyilən sözləri asanlıqla və anlaşılan şəkildə dinləyə bilir.

Bu danışıq güclü ağ çiyər və ağır nəfəs bahasına başa gəlsə də, dustaqlar arasında rabitəni saxlamağa kömək edən vasitəydi) belə karsa salınmaqla cəzalandırılırdı.

Bayaq "görüş" məsələsindən söz salmışkən həbsdə "yatdığım" (cinayət aləmindəkilərin bu yatmaq sözündən xoşu gəlmir. Onlar bu sözün yerinə oturmaq sözünü işlədirlər) 8 il ərzində içəridə özümü nə qədər, sınmaz, əyilməz, qorxmaz olaraq aparsam da bir görüşdəki indi yazacağım məsələ məni çox sarsıtdı.

Hadisə belə vaqe oldu.

Mən tutulandan ay yarım sonra dünyaya gələn və şəhid, Milli Qəhrəman dayısı Mir Əsgərin adını daşıyan oğlum artıq 8 -ci il idi ki, atasız böyüyür və ataların ancaq "türmədə" olduğuna özünü inandırırdı. (Bir gün həyətdə oynadığı uşaqların atası gələrkən, uşaqlar "Atam gəldi" deyərək atalarının üstünə qaçdıqları zaman ağlayaraq evə gəlmiş və anasına "Nooolsun, onların da ataları axşam türməyə gedəcəklər da" demişdi.

Hətta mən həbsdən çıxıb evə getdiyimiz vaxt yol boyu qabaqda gedən maşının arxa şüşəsindən baxaraq məndən gözünü çəkmirdi ki, mən birdən maşından düşüb geri qayıdaram.

Həbsxanadan çıxıb bir başa Elçibəyin məzarını ziyarətə getdiyimiz zaman da yenidən həbsxanaya qayıdacağımdan qorxaraq əlimi buraxmırdı.

Ilk gün çox yorğun olduğundan tez yuxuya getdi. Səhər yuxudan duranda məni yatağımda görüb sevincərək atılıb düşə-düşə nənəsinin üstünə qaçaraq: "Ay nənə atam bizdə qalıb" deyə qışqırmışdı.

Danışmağa başlayandan və ağlı kəsəndən, 4 aydan bir görüşə gəldikləri vaxt onunla özəl olaraq "kişi söhbətimiz" olurdu. (Bu da ondan ibarət idi ki, babasından, nənəsindən və anasından ayrılıb görüş otağının başqa bir tərəfinə çəkilir və ikilikdə "kişi söhbətimizi" həyata keçirirdik. Doğurdan da bu söhbətimiz haqqında heç kimə və hətta anasına belə heç nə deməyəcəyinə söz verir və sözünə də əməl edirdi.)

Kişi söhbətlərimiz isə adətən bundan ibarət olurdu.

- Vəziyyət necədi?

- Hər gün yuxudan duranda, məktəbə gedəndə və məktəbdən gələndə sənin şəkilini öpürəm.

-Evdə Ana ağlayır?

-Hə.(bir dəfə isə “ana ağlayır?” sualıma “yox”cavabını verəndən sonra,anasına tərəf dönüb uşaq saflığıyla ”ay ana ,sən öyrətdiyin kimi elədim.Sənin ağladığını atama demədim ki,ürəyi sıxılmasın”demişdi)

- Niyə?

-Səni istiyir da.

-Bəs o ağlayanda sən nə edirsən.

-Görürəm o ağlayır mən də ağlayıram.

-Sənə demişəm axı "kişi ağlamaz"

-Çalışıram ağlamayım, amma ana ağlayanda dözəmmirəm.

Son dəfə isə söhbətlərimiz belə oldu.

-Ata, mən təzə məktəbimizdəki uşaqlardan çox McDonald"sa getmişəm.

Məktəbi dəyişmisən?

-Hə.

-Niyə?

Çiyinlərini çəkir və növbəti sualı o mənə verir və dünyanı başıma fırladır.

-Ata, niyə sən "vətən xainisən"?

-Onu sənə kim dedi?

-Köhnə məktəbdəki müəllim uşaqlara deyirdi ki, "Əsgərlə oynamayın, onun atası "vətən xainidi"!

Onda bildim ki, oğlumun məktəbini mənə də demədən nəyə görə dəyişiblərmiş. Gözlərim qaraldı, huşumu itirmək dərəcəsinə gəldim. Elə sarsıntı keçirdim, elə bildim ürəyim dayanacaq.

Sanki eşitdiyim "Əsgərlə oynamayın, onun atası vətən xainidi"! cümləsi Qobustan qayalarında əks-səda verdi." Bir anlığa düşündüm ki, qapalı həbsxanadan qaçım. Vətənin azadlığı və müstəqilliyi uğrunda mübarizədən qaçıb siçan deşiyinə gizlənən, yaltaqlıq, satqınlıqla

balalarına ruzi qazananların hamısını əllərimlə boğub öldürüm. Bəlkə vətən satqınlardan, qorxaqlardan, ikiüzlülərdən bir az təmizlənə. Sonra özümə gəldim. Bildim ki, burada qaçmağa cəhd etsəm məni öldürəcəklər. Oxuduqlarımı, eşitdiklərimi ürəyimdə götür-qoy etdim. Tarixən belə olub. Satqınlar vətən uğrunda döyüşənləri xəyanətkar, satqın adlandırıblar. Qorxaqlar qəhrəmənlara böhtan atıblar.




***P.S. Bir zaman "Mənim atam vətən xaini deyil!" deyə hayqıran balaca Əsgərim indi böyüyüb Türk Dünyasının Birliyi uğrunda mənim mübarizə yoldaşım olub.***

Oğlum isə hey danışır bunun doğru olmadığını mənim dilimdən eşitmək istədiyi üçün dil boğaza qoymurdu.

-Ata, sən erməniləri öldürmüsən hə? Ermənilər pisdilər, onlar Mir Əsgər dayımı öldürüb. Mən böyüyəndə erməniləri öldürəcəm və s.

Dayanmadan soruşur, sual verir və cavab istəyirdi.

-Sənin adını daşıdığın Mir Əsgər dayın Milli Qəhrəmandır, erməniləri öldürüb və mən də onun komandiri olmuşam!

-Yess!

-Mənim atam" vətən xaini deyil"!

**8 Ocaq 2024-cü il.**

# ELÇİBƏYİN ÖLÜMÜNDƏN QORXANLAR

Arxadaşlar!

Həbsxana gündəliyindən səhifələr.

İl 2000, ay avqust, gün 22. Yer 9 saylı İƏM-nin 2-ci barakının baş tərəfindəki şponka. (İƏM-islah əmək müəssisəsi. Yəni həbsxana. Barak-yəni yatdığımız yataqxana. Şponka -yəni iki mərtəbəli dəmir çarpayı). Vaxt səhər saat 5 radələri.

Həbsxana rəisinin əməliyyat üzrə müavini məni yuxudan qaldırır (podyom hələ verilməyib deyə 40 nəfərlik barakda bütün dustaqlar yatır)ki,"Rəis səni çağırır".

Əynimi geyinib müavinin arxasınca idarəyə tərəf gedirəm. Amma nədənsə, mən DPNK-nın (dejurnı pomoşnik naçalnika koloniya. Niyəsə indiyə kimi adı rusca deyilir) otağının yanından "trivoqayla" bütün işçilərin yığışdığı rəisin otağına yox, karsa (dustaqların cəzalandırılmaq üçün salındığı yer. Türmə içində türmə) aparılıram. Səbəbini soruşuram. DPNK (həmin vaxt Prezident köməkçisi Əli Həsənovun qaynı Cəbrail idi.Sonralar Salyanın polis rəisi oldu)çiyinlərini çəkir. 2 metir eni, 3 metir uzunu olan tək adamlıq kamera. 1 ədəd Şponka (oturmaq mümkün olmasın deyə qaldırılıb zəncirlə divara qıfıllanan, dəmirdən düzəldilmiş lövhə) və yanında pas atmış su kranı olan, çirkabdan ağ rəngi min bir rəngə çalan, üfunət iyi verən hər tərəfi açıq Sever (tualet).



***Həbsxanadakı istirahət guşəmiz. Soldan; Cavanşir (Naxçıvan OMON-u), mən, Eldar (Malış OMON), Fazil (OMON), Mehman (tərbiyəçi-zabit), Nəsimi (Nehrəm), Ilqar Səfərov.***

Nə baş verdiyini, niyə karsa salındığımı heç cür anlaya bilmirəm. Günortadan sonra Yevlaxlı dustaq rəhmətlik Çingiz kişi pəncərədən "Başın sağ olsun bəy, Əbülfəz Elçibəy rəhmətə gedib"-dedi. Bu xəbər həyatımı tarımar etdi. Mənim üçün həyatın mənası heçə endi. Bundan sonra nə olacağının, nə baş verəcəyinin heç farkında olmayacam.

Bütün varlığımla, canımı, qanımı, gəncliyimi, bu günümü, gələcəyimi verməyə razı olacam ki, təki bu xəbər yalan olsun.

Maləsəf!

Bir də həbsxanadan buraxılıb Bəyin məzarını ziyarət edəndə keçirdəcəm o, xəbəri eşidəndə keçirdiyim hissləri.

Bu xəbərdən sonra huşumu itirib yıxılacam. Sonra məlum olacaq ki, yıxılanda başım şponkaya dəyib yarılıb. Huşsuz qaldığım vaxt çoxlu qan itirmişəm.



***9 saylı İslah Əmək Müəssisəsi. Soldan İsa Sadıqov, mən və İsgəndər Həmidov***

Rəisə xəbər göndərəcəm ki, yasda iştirak etməyimə baş idarədən icazə alsın. Srokumun (cəza müddəti) sonuna kimi Krıtıda (ağır şəraitli, kamera tipli Qapalı həbsxana. Bizdə Sovet vaxtı Şuşada olub. İndi Qobustandadı) yatmağa razıyam.

Xahişimə cavab gəldi ki, "istəyinizə can başla əməl olunacaq amma, təkcə ikinci hissəsinə".

Əvvəlcə iki dəfə 7 sutka, sonra isə 15 sutka karsda qaldım. "Naruşeniyalarım" da o oldu ki, Xəlil Rzanın, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Rüstəm Behrudinin vətənpərvər şerlərini uca səslə oxuyub karsdakı məhbusları (adətən məndən başqa heç kim olmurdu) narahat etmişəm. Sonra iki dəfə bir aylıq PKT (pomeşeniye kamernoqo tipa), sonra üç aylıq BUR (barak usilennoqo rejima), sonra saxta məhkəmə, daha sonra isə 3 illik Qobustan qapalı həbsxanasında cəza çəkmə hökmü.

Ruhun şad olsun Böyük Bəy!

***22 avqustos 2021-ci il.***

# HƏBSXANADAN ALİ BAŞ KOMANDANA MÜRACİƏT

*Arxadaşlar!*

*44 günlük vətən müharibəsi vaxtı Kürdəxanı Istintaq Təcridxanasında həbsdə olduğum vaxt Ali Baş Komandan kimi Azərbaycan Prezidentinə müharibəyə göndərilməyim üçün müraciət etmişdim.*

*Müraçiətin tam mətni indi əlimdə olmasa da təxminən belə idi.*

*Azərbaycan Respublikası Prezidenti,*
*Ali Baş Komandan İlham Heydər*
*oğlu Əliyev cənablarına.*

*Keçmiş səhra komandiri,*
*məhbus Mustafayev Səyavuş*
*Firudin oğlu tərəfindən*

*MÜRACİƏT*

*Cənab Ali Baş Komandan,*

*Əziz Azərbaycan xalqı və Qəhrəman Azərbaycan Ordusu sizi Qarabağın azad olunması uğrunda qazandığımız qələbələr münasibəti ilə təbrik edirəm!*

*Çox təəssüf edirəm ki, xalqımızın belə bir Qələbə günlərində mən sizə həbsxanadan müraciət etmək məcburiyyətindəyəm.*

*Cənab Ali Baş Komandan siz bildirirsiniz ki, ordumuzun yüz minlərlə əsgəri, on dəfə bundan da çox ehtiyat döyüşçüləri var.*

*Vətən Müharibəsi getdiyi bu məsuliyyətli günlərdə mənə Qarabağ qazisi və keçmiş Səhra komandiri kimi yüzlərlə məhbus sizə müraciət etməyimi xahiş edir ki, istənilən vaxt vətənin müdafiəsi uğrunda, torpaqlarımızı xain düşməndən azad etmək üçün ən çətin döyüş bölgələrində və hətta "cəza batalyonunun" tərkibində belə vuruşmağa, qələbə çalmağa və vətən uğrunda şəhid olmağa, qələbədən sonra sağ qalarıqsa cəzamızın qalan hissəsini çəkməyə hazırıq.*

*Şəxsən öz adımdan onu da deməyi özümə borc bilirəm ki, həbsxana betonlarının altındakı torpaq, həbsxana barmaqlıqlarından görünən səma və həbsxana binasının üstündə dalğalanan üç rəngli bayraq da mənim üçün Vətəndir.*

*Qollarıma qandal vuran nəzarətçi isə sabah düşmənə qarşı çiyin-çiyinə vuruşacağım səngər yoldaşım və silahdaşımdır.*

*Cənab Ali Baş Komandan sizdən acizanə sürətdə xahiş edirəm ki, mənim bu müraciətimi müsbət cavablandıraraq döyüşə getməyimizə əmr verəsinuz.*

*Sizin əmrinizi gözləyirik Cənab Ali Baş Komandan!*

*Qələbə bizimlədir!*

*Qarabağ Azərbaycandır!*

*İmza: məhbus Səyavuş Firudin oğlu Mustafayev.*
*1 saylı Kürdəxanı İstintaq Təcridxanası.*
*2- ci korpus. 2- ci mərtəbə.57- ci kamera.*
*10 oktyabır 2020 çi il.*

## HƏBSXANADA BİTƏN ÇİÇƏK



9 saylı Binə həbsxanasından Qobustan qapalı həbsxanasına aparılmamışdan qabaq zonda çəkdirmişdim bu şəkili. Sonra bir yazı da yazmışdım. Çox duyğusal bir yazıydı. Qobustanda olarkən yazdığım gündəliklərimi rəhbərlik oğurladı. Bu çiçək haqqında yazdıqlarım da getdi. Dəqiq yadımda olmasa da təqribən belə idi.

Həsxanada bitən çiçək!

Dünyada milyonlarla çiçək bitir. Meşədə, çöldə, baxçada, evdə və s. Amma sənin taleyinə həbsxanada bitmək düşüb.

Niyə?

Bunu sənmi istəmisən ya alnınamı belə yazılıb? Görən sən həbsxanada xoşbəxtmisən, bədbəxtmisən? Heç olmasa həbsxanada bitdiyini bilirmisən?

Həbsxanada bitən çiçək!

Səninlə şəkil çəkdirmək keçdi ürəyimdən. Sənin ömrün bir ildir. Bu bir illik ömrünü də həbsxanada keçirməyə məcbursan. Bəlkə də məcbur deyilsən, bu yolu özün seçmisən, elə mənim kimi. Mən də burda olmaya, burdakı əzab əziyyəti, məşəqqəti, həsrəti çəkməyə bilərdim, amma onda o mən, mən olmazdım.

Həbsxanada bitən çiçək!!!

Bəlkədə burda daha xoşbəxtsən. Səni əzən yox, tapdalayan yox. Səninçün nə fərqi var ki, harda bitmisən. Həbsxanada tikanlı məftillər arasında, ya da başqa bir yerdə. Azad olmaq istəyirmisən heç?

Bəlkə də mənim bu sualımı sən başa düşmürsən. Çünki, azadlığın nə olduğunu sən heç bilmirsən axı!

Eyni mənim gözünü açandan məni yalnız həbsxanada görən oğlum kimi. Mənim 6 yaşlı, şəhid, Milli Qəhrəman dayısının adını daşıyan oğlum da, elə bilir hamının atası axşamlar həbsxanaya gedir.

Həbsxanada bitən çiçək!

Yaxşı ki sən bütün bunları bilmirsən. Görən bilsəydin nə olardı? Onu bilmirəm.

Onu bilirəm ki, biz ikimizdə həbsxanadayıq. Sənin bundan xəbərin yox, mənimsə həsrətim çox!

Sən harda yaşadığını bilmədiyin üçün, gündən-günə parlayır, açılırsan. Mənsə "niyə burdayam?" sualına cavab axtarra-axtara gündən-günə soluram. Fərqimiz isə ondadır ki, mən məhbusam, sənsə yox.

Həbsxanada açan çiçək!

Əlvida! Məni Qobustan qapalı həbsxanasına aparırlar.

Görəsən orda da çiçək varmı, həm də qapalı həbsxanada açan çiçək?

***18 avgustos 2023-cü il.***

## XƏLİL RZA ULUTÜRK



Arxadaşlar!

Xəlil Rza ucalığı elə bir zirvə idi ki,onu aşağılamaq istəyənlər şairin durduğu zirvəyə baxanda "papaqları"yerə düşürdü. O, da əyilib "papağını" götürmək istəyənlərə yardım əlini uzadırdı.

1988-ci illin noyabr-dekabr aylarında o zamankı Lenin (indiki Azadlıq) meydanında səhərə kimi oçaq başında söhbət edirdik. Danışanda kim bir rus sözü işlədirdisə ondan 10 qəpik çərimə alırdı.

Bir dəfə xeyli sual-cavabdan sonra mənim danışığımda rus sözü tapa bilmədiyini görüb "Qoç Koroğlu (mənə həmişə belə müraciət edirdi) de görüm eskalatora nə deyirlər?" Mən: "Tərpəşən pilləkən" deyəndə o sevindi və ürəkdən güldü. Dedi: "Koroğlusan ki, Koroğlu!"

Meydan dağıdılandan sonra bizi aparıb məhşur Bayıl həbsxanasına saldılar. Həbsxananın üçüncü korpusunda kameralarımız üz-üzə olduğundan "kormyoşka" deyilən kamera qapılarındakı xüsusi pəncərədən bir-birimizlə danışa bilirdik.

Onların kamerasında Əbülfəz Elçibəy, Tağı Xalisbəyli, Xudu Xuduyev və başqa bir neçə nəfər saxlanılırdı.

On gün sonra bizi Salyandakı Xələc türməsinə apardılar, Elçibəylə  Xəlil Rzanı buraxmaq istəyəndə onlar: “Sonuncu tutulan adam buraxılmayınca biz burdan çıxan deyilik demişdilər!”

Ruhuna salam olsun Ustad!

***21 Ekim 2023-ci il.***

# İLK HƏBSİM
## (Meydan hadisələri)



Arxadaşlar!

Dirçəliş günümüz mübarək!

Mənim ilk həbsim bu günlə bağlı olub. Bu günün yaranmasının iştirakçısı kimi, bu yazını yazmaq qərarına gəldim ki, səbəbkarları tanıyaq, tanıdaq və unutmayaq!

Meydan hərəkatı! Il 1988, ay noyabr, gün 17. (ağlıma da gəlməzdi ki,5 ildən sonra məhz bu gün 8 il müddətinə həbsxanaya salınacam)

Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni şovinistləri demək olar ki, Azərbaycan hökümətinə tabe olmaq istəmirdilər. Onlar sakit yaşamaq, qonşuluq münasibətlərini öncəki kimi davam etdirmək istəyən soydaşlarını da zor gücünə mitinqlərə qatır, silahlı dəstələrə üzv yazır, Ermənistandan və xarici ölkələrdən silahlı muzdlu döyüşçülər gətirirdilər. Qorbaçovun yenidənqurma və aşkarlıq siyasəti gizli fəaliyyət göstərən, tərcümədə durna mənası verən

“KRUNQ” (Kontur Revolyuçionnıy Upravleniya Naqornoqo Karabaxa) Cəmiyyətinin açıq-aşkar fəaliyyətə başlamasına şərait yaratdı. Onlar demokratik bir təşkilat kimi fəaliyyət göstərmir, şovinistcəsinə Azərbaycanlıları dədə-baba torpaqlarından sıxışdırıb çıxarırdılar.

Erməni şovinistlərinin murdar niyətinin qarşısını almaq üçün Azərbaycanda da bir canlanma başlamışdı. Biz tələbələr “Yurd” Birliyi adlı təşkilat yaratmışdıq. Ermənı şovinistlərinin Azərbaycan hökumətinin icazəsi olmadan Şuşa yaxınlığındakı Topxana meşəsində, canlı təbiət abidələrini məhv edib özləri üçün nəsə tikmək istəyinə etiraz əlaməti olaraq Bakıda, o dövrdə Lenin meydanı adlandırılan yerdə mitinq keçirməyi qərara aldıq.

Əsas aparıcı qüvvə Azərbaycan (indiki Bakı) Dövlət Universiteti idi. Qərara aldıq ki, onlar universitetin tədris korpuslarından və yataqxanalarından çıxaraq Politexnik və Inşaat və Memarlıq Institutlarına doğru hərəkət edəcək, həmin ali məktəblərin tələbələri ilə birləşib Kommunist (indiki Istiqlal) küçəsinə enəçəklər. Burada da Xalq Təsərrüfatı Institutunin tələbələri ilə birləşib Sabir bağına, ordan da Qoşa Qala qapısının qarşısından keçib Neftçilər prospektinə çıxaraq Lenin meydanına gedəcəyik. Kosnservatoriyanın, Tibb, Incəsənət, Pedaqoji və Bədən Tərbiyəsi institutlarının tələbələri də orada onlara qoşulacaqlar.

Hər institutda Milli Azadlıq uğrunda mücadilənin təşkilatları formalaşırdı və rəhbərləri isə bunlar idi: ADU da rəhmətlik Əlisəfa Qədirov (28 yaşında avtomobil qəzasında həlak oldu), Tibb Inistutunda Badam adlı qız (sonra-

lar onu heç görmədim), Əli Quliyev (sonralar Nəsimi rayonunun Icra başçısı oldu, mühacirətdədir) və Qoşqar Təhməzov (indi Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədridir), M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı Institutu və Xarici Dillər Institutunda rəhmətlik Ülvü Bünyadzadə (20 yanvar faciəsi zamanı şəhid oldu), Konservatoriyada Kamil Şahverdiyev (sonra Rəşid Behbudovun kürəkəni oldu) və Qasım Şeyxov, İncəsənət İnstitutunda tələbə-rejissor Vaqif Əhmədov (Birinci Qarabağ Müharibəsində şəhid oldu) və Elçin Mirzəbəyli (indi millət vəkilidir), Azərbaycan Neft Kimya Inistutunda Daşqın Ağalarov (sonralar Azərbaycan Neft Şirkətində müavin işlədi, mühacirətdədi) və Azər Rəşidoğlu (publisis, yazar ), Politexnik Institutunda Oqtay Qasımov (sonralar Azərbaycan prezidentinin köməkçisi oldu) və Mehdi Mehdiyev (sonralar Bələdiyyə Polisinin rəisi oldu), Tahir Məmmədov (sonralar Prezident Qvardiyasının komandiri oldu, Gəncə çevrilişi zamanı Surət Hüseyinovun adamları tərəfindən güllələndi), İnşaat və Memarlıq İnstitutunda Cahandar Bayoğlu, Bədrəddin Quliyev (sonralar hər ikisi partiya başkanı oldu), Şəmsəddin Umudov (sonralar müdafiə Komitəsinin rəhbərlərindən oldu), Xalq Təsərrüfatı İnstitutunda Fərəməz Allahverdiyev (sonralar Şərur rayon Xalq Deputatları Sovetinin sədri oldu, həbsxanada yatdı), Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda Səyavuş Mustafayev, yəni mən idim. (sonralar Naxçıvan Idman Komitəsinin sədri, Naxçıvan Daxili İşlər Naziri və nazirin birinci müavini işləyəndən sonra 8 il həbdə oldum.)

Mitinqin iştirakçıları Qoşa Qala qapısına çatana kimi, hər şey planlandığı kimi gedirdi. Oraya çatanda gördük ki, əsgərlər və milislər yolu kəsib.

Öncədən belə razılaşmışdıq ki, əsgərlər yolumuzu kəssə müqavimət göstərməyək. Gənclik meydanında (qala qapılarının qabağı) yerə oturub gözləyək. (Bunun üçün hətta hərə bir qəzet də götürmüşdü).

Yerə oturandan sonra gördük Sovet hərbiçiləri üstümüzə gəlir. O zaman biz də əsasən idmançılar olaraq onların üstünə yeridik və əsgər kordonunu ortadan yardıq.

Elə sevinirdik ki, sanki böyük bir qələbə qazanmışdıq (indi o vaxtkı hissləri ifadə etmək heç də asan deyil). Bu sevinc sədalarıyla Kukla teatrının qabağından Neftçilər prospektinə çıxdıq və demək olar ki, bir nəfəsə Lenin meydanına doğru qaçmağa başladıq. (Elə qaçırdıq ki, sanki meydana çatanda azadlığa qovuşacağdıq. Baxmayaraq ki, azadlıq sözünün özü o vaxt meydana qaçanların çoxu üçün belə məhcul bir anlayış idi).

Meydana çatdıq və o zaman gördük ki, Sovetlər Birliyində Kremlin Qızıl Meydanından sonra ikinci böyük meydan olan Bakının Lenin meydanı üçün toplanan 700-800 nəfər çox azdır.

Mitinqçilərə Ənvər adında orta yaşlarında bir nəfər rəhbərlik edirdi. (Mən şəxsən o vaxta kimi onu tanımırdım. Orada öyrəndim ki, Akademiyanın Coğrafiya Institutunun elmi işçisidir)

Azərbaycan Sovet bayrağını isə Sakit adlı Tovuzlu Universitet tələbəsi aparırdı. (Bilməyənlər üçün deyim ki,

Sovet Azərbaycanının bayrağı, altından göy rəngli zolağı olan və üzərində oraq-çəkic şəkili çəkilmiş qırmızı parçadan ibarət idi). Ilkin və əsas tələbimiz ondan ibarət idi ki, Topxana meşəsindəki ağacların kəsilməsi dayandırılsın. (Ermənilər orda ağacları kəsib yerində hansısa bir zavod tikmək istəyirdilər).

Sonrakı tələblər dəqiq yadımda olmasa da, Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv olunmasından tutmuş Akademik Aqambekyanın Fransadakı bəyanatına kimi məsələlər vardı.Ilk gündən başlayaraq Meydandakı yadımda qalan şüarlar bunlar idi: "Topxanada iş gedir, Bakıda nümaiş gedir!", "Domsovetə yatdılar, Topxananı satdılar!", "Öldü var, döndü yox!", "Hava yaman soyuqdu, Ermənilər toyuqdu", "Azərbaycan bir olsun, mərkəzi Təbriz olsun!" və s.

Bu tələbləri, əsasən də Topxana məsələsini həll etmək üçün hökümətə 3 saat vaxt verilməsi qərara alındı.

Verilən müddət keçsə də bizə heç bir cavab gəlmirdi.

Bu minvalla axşam düşdü. Biz meydanda qalmalı olduq. Qaranlıq düşdükcə təbii ki, hava da soyumağa başladı. Bu zaman "Dom Sovetin" arxa tərəfindəki qastranomun qabağındakı taxta yeşikləri gətirib meydanda ocaqlar qaladıq.

O dövrdə Lenin meydanında ocaq qalayıb ətrafında oturmağı vəzifədəkilər hökümətə qarşı üsyan kimi dəyərləndirsələr də bizim qarşımıza çıxmağa, bizi bu fikirdən daşındırmağa cəsarətləri çatmadı. Təxminən 12-13 tonqalın hər birinin ətrafında onlarla adam vardı.

Əsas təbliğat da orda gedirdi.

Hatəmi Təntəkin və tərəfdarları Cənubi Azərbaycanda Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə yaradılmış Azərbaycan Demokrat Firqəsindən, onların mübarizəsindən danışırdılar.

Zərdüş Əlizadə Xalq Cəbhəsi proqramını təbliğ edir və makinada yazılmış mətnini paylayırdı.

Ishaq adlı bir nəfər saz çalıb dastan söyləyirdi.

Meydanın təşkilatçısı olan "Yurd" Birliyinin, əsasən ADU-nun tələbələri Əlisəfa, Qorxmaz, Qənimət, Əli, Seymur, Fazil, Qüdrət, Bahəddin, Qələndər, Rahim və b. hələ çoxumuzun haqqında bilgisi olmayan Azərbaycan Demokratik Respublikasının yaranmasından, tarıxindən və rəhbərlərindən və Sovetlər tərəfindən dağıdılmasından danışır, onu təbliğ edirdilər.

Çox maraqlı və maraqlı olduğu qədər də müəmmalı bir səhnə alınmışdı.

Bizə bir nəfər nə polis və nə də başqa hüquq mühafizə orqanlarından gəlib deyən olmadı ki, a bala, niyə burda tonqal qalamısız, siz kimsiz, burda neyləyirsiz ,nə istəyirsiz? Bu məsələ bu gün də mənim üçün qaranlıqdır.

Səhər günün çıxmasını ocaqların başında qarşıladıq. Təxminən saat 10.00-dan sonra meydana hər tərəfdən insanlar sel kimi axmağa başladı.

Əvvəlcə Letinant Şmit adına (sonralar adı Səttarxan qoyulan bu zavod təxminən indiki Heydər Əliyev Mərkəzinin yerində idi) Zavodun işçiləri meydana gəldilər, sonra Şin Zavodu, el arasında "Pinqvin" (Zavodun düzəltdiyi

soyuducu maşınların üzərində Pinqvin şəkilləri olduğuna görə belə adlanırdı) adlanan maşınqayırma zavodunun, Gəmi Təmiri Zavodunun və b. təşkilatların fəhlə və işçiləri meydana axın etdilər.

Növbəti günlər ölkə üzrə tətil elan edilmiş bütün iş yerləri dayandırılmış və imkanı olan hər kəs meydana toplaşmışdı.

Ölkədə Mərkəzi Komitə və başqa dövlət idarələrinin üst qatlarındakılar xaric, özünəməxsus bir doğmalıq, birlik yaranmış adamlar çox mehribanlaşmış və bir birlərinə isinişmişdilər. Meydanda bir birlərini tanımayan adamlar qucaqlaşıb öpüşür, dost-qardaş olurdular. Meydanda mitinqlər davam elədiyi müddətdə Bakıda heç bir kriminal hadisə baş vermədi.Sanki cinayətkarlar da bu hadisələrin nə ilə nəticələnəcəyini gözləyirdilər.

Sovet rejimininin yaratdığı rüşvət, saxtakarlıq, ikiüzlülük və yertlibazlıq insanların əksəriyyətinin canını boğazına yığmışdı. (hərçəndi ki, 30 ildən sonra bu hallar hələ də davam etməkdədir) Nicat axtarıcıları meydana axışır, deyilən hər sözü, hər cümləni acgözlüklə dinləyir, Sovet adlı bəladan xilas olmağın yollarını arayırdılar.

Bu mənada tribunadan Sabir Rüstəmxanlının "Bizlər bu meydana Bakılı, Şəkili, Şirvanlı, Naxçıvanlı kimi toplaşdıqsa da, burdan Azərbaycanlı kimi ayrılacağıq" deyimi dillər əzbəri olmuşdu.

Bütün bunlarla bərabər hər kəs əlindən gəldiyi qədər meydana yardım etməyə çalışırdı.

Adamlar yardım üçün gətirib pul verirdilər. (Nemətin sağ əli sayılan Rəsul adlı Səttarxan Zavodunun işçisi mey-

danda açıq-aşkar verilən pulları toplayır, qoltuğunda gəzdirdiyi dəftərə də pulu verən adamların ad və soyadını yazır, verdikləri pulun məbləğini göstərən, ayın tarixi yazılmış və özünün imzasıyla qəbz əvəzinə verdiyi bu sənədlər sonra çoxlarının başına bəla olacaqdı. Bəzi uzaqgörənlər isə nə ad yazdırır, nə də qəbz alırdı, sadəcə pul verib gedirdi.

(Botanika İnstitutunun aparıcı elmi işçisi, kəndlimiz və qohumum Mais Qasımovun işlədiyi kollektivdən topladıqları pulu Rəsula verməsinə mən yardımçı olmuşdum).

5 dekabrda meydan dağıdıldıqdan sonra müstəntiqlər həmin pulu müsadirə etdilər. Nemətin deydiyinə görə müstəntiqlərdən gizlədilmiş pulların bir qismi "yoxa çıxmış", cuzi bir hissəsi isə 20 yanvar hadisələrindən sonra Nemət Rəhim Qaziyevlə birlikdə Naxçıvandan Irana keçərkən istifadə edilmişdir.

Biz Lenin meydanına gəldiyimiz ilk günlər natiqlar meqafonlardan istifadə etmək zorunda idilər. Sonrakı günlərdə tribunaya mikrafonlar, meydana səsucaldıcılar qoyuldu.

Şairlər, yazıçılar çıxış edir hərə bir cür xalqa ürək sözlərini çatdırırdı. Adamlar Bəxtiyar Vahabzadəni çiyinlərində meydana gətirib tribunaya qaldırdılar.

O vaxt çox böyük sensasiya sayılan "Ömür kitabı"nı yazdığına görə hamı tərəfundən sevilən Sabir Rüstəmxanlı meydanı idarə edirdi.

Neməti (fəhlə olduğu üçün itirəcək heç nəyi yoxdur düşüncəsiylə)çiyinimizə alaraq tribunaya qaldırdıq. Sovet-

lərə qarşı sərt danışığı ilə, xalqın ürəyindən keçənləri deməyi ilə, söylədiyi şeirlərlə, bir sözlə alovlu nitqi ilə natiqlərin hamısını kölgədə qoydu. Normal orta təhsil belə ala bilməmiş fəhlə liderə cevrildi. Nemətə bu gün olan mənfi münasibətimə baxmayaraq deməliyəm ki, meydan hadisələrində Nemət xalqın qəhrəmanına çevrilmişdir. (Mənfi münasibətim də ondan ibarətdir ki, mənim fikrimcə Nemət hələ də 88-ci ildə qalıb). Hər gün də Tofiq Fikrətin dillər əzbəri olan "Millət şarkısı" şerini deyərək, həmin şeri mitinqin himninə çevirmişdi:



Çeynəndi yetər varlığımız cəhl ilə qəhrə
Doğrandı mübarək vətənin bağrı səbəbsiz.
Birlikdə bu gün tapmalıyıq dərdinə çarə
Can qardaşı, şan qardaşı, qan qardaşıyıq biz.
Millət yoludur, haqq yoludur tutduğumuz yol

Ey haqq, yaşa ey sevgili millət yaşa var ol!
Zülmün topu var, gülləsi var, qələsi varsa
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.
Göz yumma günəşdən nə qədər nuru qaralsa
Sonməz əbədi hər gecənin gündüzü vardır.
Millət yoludur, haqq yoludur tutduğumuz yol
Ey haqq, yaşa ey sevgili millət yaşa var ol.

Mitinqin dinc yolla dağıdılmasının mümkün olmadığını görən hökumətin xüsusi xidmət orqanlarının əlilə meydanda təxribat yaradılacağı xəbəri yayıldı. Onun qarşısını almaq üçün  mühafizə dəstəsi yaratmaq məsələsi ortaya atıldı. Biz idmançılardan, Əfqanıstanda xidmət etmiş döyüşçülərdən və Nürəddin abinin rəhbərlik etdiyi gənclərdən ibarət mühafizə dəstəsi (sonralar bu dəstə Boz Qurd adlı batalyonda birləşdi) yaradıldı.Əsasən tələbə yoldaşlarımdan ibarət idmançılara  mən, tribunanı qoruyan dəstəyə, hərəkatçıları və ictimai xadimləri yaxşı tanıyan Nürəddin bəy, "Əfqanlar" adlandırdığımız dəstəyə Xudu Xuduyev rəhbərlik edirdi.

Güləşçi dostum Arif Babayev  Dinamo Idman Cəmiyyətinin Bulvardakı "Yay zalının" ( indiki Park Bulvar ticarət mərkəzinin yerindəydi) yataqxanasında qaldığından bəzən Neməti yatmağa ora aparırdıq. Sonra isə meydanda çadırlar qurulmağa başladı.

Ayrı ayrı rayonlar, müəssisələr, idarələr və hətta institutlar öz çadırlarını  qurur, çadırda yemək hazırlayır, gələn insanlara xidmət etməyə çalışırdılar.

Meydana ölkənin hər yerindən maşın-maşın yardımlar edilir,ərzaq gətirilir, hətta bulvarın kənarındakı hovuzlar qoyun-quzuyla dolu olurdu.

Natiqlər tribunadan Sovet hökümətinə qarşı çıxışlar edib şüarlar səsləndirdikcə insanlar cuşa gəlirdi.

Sonra Xalq Təsərrüfatı İnstitutunun tələbə birliyinin rəhbəri Fərəməz Allahverdiyev başda olmaqla bir neçə gənc aclıq aksiyasına başladılar.

Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun dediyi: "Çto za qolodayuşiye, kotorıy kajdıy ças v tualet beqaet" (Bu necə aclıq eləyənlərdir ki, hər saat başı tualetə qaçırlar) sözləri gülüş hədəfinə çevrildi və dillər əzbəri oldu.

Meydan öz axarı ilə davam edib yaşadıqca insanlar bir birinə qarşı mehribanlaşır, doğmalaşır ümumi düşmənə qarşı birləşir, yeni-yeni məlumatlar almağa çalışır, Sovet hökümətinin bu hadisələrə qarşı necə reaksiya verəcəyinin intizarı ilə yaşayırdı.

Mərkəzi televiziyalar Bakıda mitinqə toplaşan yüz minlərlə insanı "narkoman və bir dəstə təxribatçı" adlandırırdı. Bu da insanların hökumətə nifrətini daha da artırır, onları sıx birləşib mübarizə aparmağa sövq edirdi.

Ermənistandan qovulan müsəlmanların nümayəndələrinin meydana gələrək tribunadan Ermənistanda hərbiçilərin və milis işçilərinin gözü qarşısında erməni quldurlarının onlara verdiyi işgəncələrdən danışmaları bütövlükdə ermənilərə və mərkəzi hökumətə nifrəti artırırdı.

O vaxt meydandakıların çoxunun yaxşı tanımadığı Əbülfəz Əliyev (Elçibəy) əsasən dırnıslı əkiz qardaşlar Əli və Qəribin qurduğu Ordubad çadırında olur, tribunada az-az görünür, adamlar arasında daha çox olmağa, hər vəclə insanlara Sovet hökümətinin vəhşi mahiyyətini aşılamağa çalışırdı.

Meydanın sevimlisinə çevrilmiş Xəlil Rza Ulutürk də daha çox tribunada deyil insanların arasında olardı. Tribunadakı hər dəfəki çıxışına da "3 milyon 800 min kvadrat kilometirlik Azərbaycandan sizə salam gətirmişəm" sözləriylə başlayardı. Özünə məxsus bir oyun-yarış da keçirirdi. Müxtəlif sözlərin Azərbaycan Türkcəsilə necə deyildiyini soruşur. Bilməyənləri 10 qəpik cərimələyirdi.

Bir dəfə mənimlə az qala yarım saat sual cavab elədi. Nə soruşdusa azərbaycanca adını düzgün dedim. Axırda dedi eskalatora nə deyirlər?

Dedim: "Tərpəşən pilləkan".

Bərkdən gülərək əllərini bir birinə çırpdı və "Koroğlusan ki, Qoç Koroğlu!" dedi. (O vaxtlar mənim şələ kimi bığlarım vardı, üclarını buraraq yuxarı qaldırırdım)

Bir gün Sabir Rüstəmxanlı məni çağırıb meydandakı Sovet Azərbaycanın və Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağından başqa bütün bayraqları yığmağı tapşırdı.

Bu o vaxt idi ki, mərkəzi televiziyada meydandakı üstündə ərəb əlifbası ilə yazılar olan qara və yaşıl bayraqları çəkib nümayiş etdirərək, meydandakıların Iran meyilli olduqlarını və islami dövləti yaratmaq istədiklərini demişdi.

Mən də idmançıları götürüb bütün bayraqları yığışdırdım. Həmin gün Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağını gəzdirərək ciddi cəhdlə bayraq haqqında ətrafdakılara məlumat verən bir cavan oğlanla, Daşqın Ağalarovla tanış oldum. Daşqın Ağalarov o vaxt Azərbaycan Neft və Kimya Institutunda oxuyurdu.

Meydanın hardasa 10-cu günü olardı Sovet əsgərləri meydanı əhatəyə aldı.

General polkovnik Timoxinin rəhbərlik etdiyi qoşun Bakıya yeridilsə də meydanın möhtəşəmliyini görərək oranı dağıtmağa cəsarət etmədi.

Meydanı mühafizəçiləri olaraq mən və bir neçə nəfər Timoxinlə görüşə getdik. Elə meydanın yanında Sovet əsgərlərinin  əhatəsində görüşümüz oldu. Söhbət əsnasında general ona başqa cür məlimat verildiyini,"Bakıda qan su yerinə axdıdıldığını" dediklərini söylədi.

Soyuqda paltarlarını qurşağadək soyunaraq əllərində başları üstündə yelldən "Biz ölərik meydanı tərk etmərik" deyə hayqıraraq az qala sıraya düzülmüş, dəbilqəli, qalxanlı rus əsgərlərini "udmağa" hazır olan gəncləri göstərərək: "Im tolko pistalet day, do Moskvı daydut" (Bunlara tək tapança ver, Moskvaya kimi gedib çıxarlar) Sonra da özünün əsgərlərini göstərərək: "A eti doxlıe kuriçı, tak i zdoxnutsa" (Bu büzüşmüş cücələr isə beləcə də boğulub öləcəklər)" dedi.

Hərbiçilər meydanın ətrafına zirehli texnika düzərək giriş çıxışlarda adamların üst-başını yoxlayır, güya təxribat olmasının qarşısını almağa çalışırdılar. Əslində nəzarət

etmək adıyla Fövqəladə vəziyyət elan edilməsindən istifadə edərək insanları meydana gəlməsini əngəlləməyə çalışırdılar.

Insanların gündüz meydana gəlməsinə küçələrdə əngəl törədilmirdi. Axşam saat 22.00-dan səhər saat 08.00-a kimi hərbiçilər və milislər küçələrdə postlar qurur, hərbi maşınlarla gəzişir, evdən çölə çıxanları tutub səhərə kimi polis şöbələrində, kinoteatrlarda və s. yerlərdə yaratdıqları müvəqqəti saxlama məntəqələrində incidirdilər. Mən də iki dəfə fövqəladə vəziyyətin qurbanı oldum. Bir dəfə Lenin prospektində, dəmiryol vağzalından yuxarıda yerləşən Şəfəq kinoteatırının zirzəmisində, ikinci dəfə Bayıl qəsəbəsindəki mədəniyyət evinin zalında səhərə kimi saxlandım.

Ikinci dəfəki saxlanmamın tarixcəsi maraqlı olduğu üçün o haqda yazmaq istəyirəm.

Uzun müddət meydanda olduğumuzdan dayım gilə getdim ki, yuyunum. Oradan qayıdanda qaranlıq düşmüşdü. Əsgərlər tərəfindən yaxalanmamaq üçün əsas yollara çıxmadan binaların arasıyla Dom Sovetin arxasına kimi gəlib çıxdım. Oradan isə meydana keçmək istəyəndə əsgərlər məni tutub boş avtobusa mindirdilər. Həm çox yorğun, həm də yuxusuz olduğum üçün arxa oturacaqda idman papağımı gözümə çəkib yatdım.

Bir azdan səs-küyə oyandım. Avtobusa mindirilən bir dəstə gənc bir biri ilə zarafatlaşır, necə tutulduqlarını danışıb gülürdülər.

Arxada uzandığımı görüb başladılar mənə sataşıb gülməyə. Deyirdilər: "Buna bax, elə bil evlərində qu tükündən olan yorğan döşəkdə yatır".

Papağımı qaldırıb baxanda biri "Ə, bu bizim Səyavuşdu ki!" deyərək mənə yaxınladı. Gördüm mənimlə Pribaltikada əsgəri xidmətdə olmuş, Azərbaycan Neft və Kimya Institutunun tələbəsi, dostum Şahbaz Mirzəliyevdi.

Avtobus adamlarla dolandan sonra bizi Bayıl qəsəbəsindəki hansısa bir mədəniyyət evinə apardılar. Orada gördük ki, mədəniyyət evinin zalı ağzınadək adamla doludur. Bizi də onların yanına saldılar. AzNKI-nin tələbələri hardansa bir ağ mələfə, kraska, şotku tapdılar. Oraya "Fövqəladə vəziyyətin qurbanları sizinlədir" şüarı yazdılar. Iki bel sapı da tapıb mələfəni qıraqlarından ona bağlayaraq transparet düzəltdilər. Səhər saat 8.00-da bizi azad edəndə həmin şüarla mədəniyyət evindən Lenin meydanına kimi gəldik. Meydandakılar bizi görüb qarşıladılar və alqışladılar. Tanımadığımız adamlarla uzun illərin dostları kimi görüşdük.

Bakının küçə və meydanlarında gündüz də, axşam fövqaladə vəziyyət vaxtı da silahlı əsgər və zabitləri, hərbi texnikanı görmək olurdu. Bu da adamlarda bir qıcıq yaradırdı. Bizi qoruduğu deyilən Sovet ordusundan indi dinc əhalini qorxutmaq üçün istifadə edirdilər.

Hərbiçilər ya insanların dirənişinin güclü olduğundan qorxaraq, ya da Moskvadan əmr gəlmədiyindən meydanı dağıtmağa cəhd etmirdilər. Yuxarılar isə fikirləşirdi ki, adamlar danışıb-danışıb ürəklərini boşaltdıqdan sonra iş-

lərinin-güclərinin dalınca gedəcəklər. Heç kimin, hətta mitinq təşkilatçılarının da ağlına gəlmirdi ki, insanlar bu qədər dirəniş göstərə bilərlər.

Son günlər meydanın qansız-qadasız boşaldılması mühüm məsələyə çevrilmişdi. Dəfələrlə meydanın boşaldılması barədə tribunadan çıxışlar edilsə də adamlar meydanı tərk etmək istəmirdi.

Yadımdadır ki, bir gecə Nemət Pənahovu Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin binasıa apardılar. O gələnə kimi biz narahatlıq keçirdik. Elə bildik Nemәti həbs ediblər. O, çox gec qayıtdı. Gələndən sonra dedi ki, bu gündən meydnı boşaltmalıyıq. Hərə öz evindəki isti yorğan-döşəyində yatmağa getsin. Adamların dirənişini görəndən sonra sözünü dəyişdi.

Hətta belə bir hadisənin şahidi oldum ki, Qafqaz Müsəlmanları Idarəsinin Şeyxülislamı Allahşükür Paşazadə tribunada danışdıqdan sonra özü ilə gətirdiyi Quranı Kərimi  göstərərək adamları Qurana and verərək dedi ki, gəlin meydanı boşaldaq. Nemətlə birlikdə tribunadan enib adamları arxalarınca aparmağa başladılar.

Meydan demək olar ki, boşalmışdı. Bu zaman arıq, uzun boylu, başında Bakı kəndlərində daha çox geyilən Qədeş "aerodrom kepka"sı  olan bir kişi Bakı ləhcəsiylə uca səslə:

"Alə, hara gedirsüz, alə?

Noooldiii…?

Biz ölərük meydanı tərk etmərük diyürdüz?" deyə səsləndi. Onun bu çağrışından sonra Nemətlə Allahşükürün arxasınca gedənlər geri qayıtdılar.

Dekabr ayı girmişdi. Havaların soyuq keçməsi və meydanın sonunun necə bitməsindən narahatçılıqlar artdığından son günlər meydan əvvəlkinə nisbətən səngimişdi.

Ayın 4-də Əbülfəz bəy mənə dedi ki, ola bilər bu günlərdə meydanı dağıtsınlar. Çalışın qadınları, uşaqları və yaşlıları buradan çıxardın. Onlara bir şey olmasın.

Biz də imkan daxılında onun dediyinə əməl etməyə çalışdıq.Qaranlıq düşəndə meydanda təxminən 400-500 adam qalmışdı. Onlar da tribunanın ətrafına yığılmışdı. Kənarda mühafizəçi gənclər olmaqla dairə şəkilində toplaşmışdıq.

Ortada Əbülfəz bəy, Xəlil Rza, Tağı Xalisbəyli, Nemət Pənahov və b. durmuşdular. "Abşeron" mehmanxanası tərəfdəki zirehli maşınların içindəki adam Azərbaycan Türkcəsində mikrafonla mitinq iştirakçılarına meydanı boşaltmağı xahiş edirdi. O, bildirirdi ki, meydanı sakitcə boşaltsalar heç kim cəzalandırılmayacaq.

Nemət isə meqafonla onlara cavab kimi şeir deyir, adamların xahişiylə kəlmeyi-şəhadət oxuyurdu. Adamlar da ona qoşulub xorla kəlmeyi-şəhadət oxuyurdular.

Gecə saat 2-3 radələrində qalxanlı, dəyənəkli hərbiçilər meydana girməyə başladı. Dənizdən də katerlər sahilə yaxınlaşdı. "Morpexlər" (dəniz piyadaları) bulvara çıxdılar və vahimə yaratmaq məqsədiylə səs-küylə oradakı çadırları vəhşicəsinə dağıtmağa başladılar.

Sonra ″Dom Sovetin″ içərisindən tribunanın sağ və sol tərəflərində olan dəmir barmaqlıqlı qapılardan hərbiçilər çıxaraq tribunanın ətrafını əhatəyə aldılar.

Ən sonda isə "Inturist" mehmanxanası tərəfdəki hərbiçilər dəyənəklərini qalxanlarına vura-vura bizə doğru gəlməyə başladılar.



Arxalarınca da tırtıllı hərbi maşınlar gəlirdi. Maşınların üzərinə narıncı işıq saçan projektorlar quraşdırmışdılar. Oraya baxanda adam heç nə görmür, sanki bir anlıq kor kimi olurdu.

Biz, meydanın mühafizəsini təşkil edənlər də adamların ətrafında yerə oturmuşduq. Hətta adamlardan kimlərsə, hardansa Qorbaçovun da şəkilini tapıb əllərində

tutmuşdular. Onlar fikirləşirdi ki, Qarboçovun şəklini görən hərbiçilər onları vurmazlar.

Hərbiçilər bizə yaxınlaşanda kimin Qarbaçovun portretini tutmasına, kimin xüsusi xidmət orqanlarının tapşırığı ilə gəlməsinə, kimin müqavimət göstərmədiyinə baxmayaraq vəhşi kimi qarşılarına keçənlərin harasına gəldi dəyənəklə vurmağa başladılar. Zərbələrin təsirindən adamlar bir birlərinin üstünə çıxmağa, irəli getməyə başladı.

Sonra bildik ki, "Abşeron" mehmanxanası ilə Dəniz vağzalının arasında hərbiçilərdən canlı divar düzəldərək koridor yaradıblar.

Bu koridorla "Faşistlər, vəhşilər, alçaqlar" qışqıraraq, hərbiçiləri, Sovet hökümətini, qurluşu söyə-söyə irəlliləyirdik. Bizi qabaqlarına qatıb Corab Fabrikindən Qaqarin körpüsünə dönən yerdəki meydana kimi apardılar. (Indi həmin yerdə Port Baku mərkəzi yerləşir.) Körpünün qabağının zirehli texnikalar ilə kəsildiyini, hərbiçilərdən canlı divar düzəldildiyini orada gördük.

Əbülfəz bəy:"Neməti aradan çıxardın" dedi.

Mən Neməti orada olan "təcili yardım "maşınına mindirərək yerə uzatdım. Üstünə adyal saldım və bizimlə sonadək qalan qızları mindirib ayaqlarını Nemətin üstünə qoymağı tapşırdım. Bu yolla Neməti aradan çıxardıq ki, tutulmasın.

Bizi bir adamın keçə biləcəyi qədər məsafə qoyulmuş zirehli maşınların arasından keçirib "varanoka" (məhbusları daşıyan maşın) mindirdilər və Bayıl həbsxanasına (Azərbaycan müstəqilliyini elan edəndən bir neçə il sonra

Bayıl həbsxanası söküldü, orada geniş abadlıq işləri aparıldı. Həmin yerdə sonralar indiki bayraq meydanı tikildi.) apardılar.(sonralar məlum oldu ki,əsasən varanoka deyil avtobuslara mindirilənlər yolda avtobusu saxlatdırıb qaçmağa nail olmuşdular)

Bayıl həbsxanası haqda doğru-dürüst bilgisi olmayan bizlərə həbsxananın adı qorxulu səslənsə də, özü elə də vahiməli yer təsiri bağışlamadı. Onu bilirdik ki, haqq sözümüzü dediyumiz üçün burdayıq. (Yatsam yuxuma da girməzdiki ki, azadlıq uğrunda mübarizə apardığıma görə Azərbaycan Müstəqilliyini elan edəndən sonra, yəni 1993-cü il noyabrın 17-də yenidən həbs olunacam. Həyatımın ən çiçəklənən dövrünü, 26-34 yaşlarım arasındaki 8 ilimi bu həbsxana divarları arasında keçirməli olacam).

Meydandan gətirilən 15-20 tələbə və gənci 10 nəfərlik kameraya saldılar. Orada heç bur yataq ləvazimatı olmayan dəmir çarpayılar vardı. O qədər yorğun və əzgin idik ki, kimin necə, nə təhər yatdığını bilmədik. Gündüz ayılanda bildim ki, Əbülfəz bəy də bizimlə üzbəüz kameradadır. Aclıq etmək istədiyimizi ona bildirdikdə O, sərt şəkildə bizim təklifimizə etirazını bildirdi. Sonralar bildim ki, meydandan 542 nəfər həbsxanalara aparılıb. Onların 70,2 faizi fəhlə, 14,8 faizi tələbə, 11,5 faizi işsiz, 0,3 faizi qulluqçu idi. Proletar höküməti fəhlələri çox "sevdiyi"ndən onlara "məhəbbətini" həbsxanaya doldurmaqla bildirmişdi.Hətta tutulanlar arasında ermənilərin olduğunu da deyirdilər.

Iki gün sonra, yəni dekabrın 7-də kameradakı radiodan xəbər tutduq ki, Spitakda zəlzələ baş verib. Zəlzələ Azərbaycanlılar oradan çıxarılandan sonra baş verdiyinə sevinərək bu xəbəri Əbülfəz Bəyə deyəndə o: "Allah da bizim tərəfimizdədir" dedi. Bir neçə gün sonra isə Azərbaycandan zəlzələdə zərər çəkənlərə köməyə gedənlərin təyyarəsinin qəzaya uğadılmasını eşidəndə çox üzüldük.

Dustaqlara verilən yemək adlandırılan "balanda"nı yemək mümkün deyildi. Tutulduğumuz günün səhəri həbsxana rəisi olan uca boylu, sarı çil-çil sifətli polkovnik, milliyətcə lak olan Hüseyin Ömərov kameramıza gəldi. Bizi aclıq etməkdən çəkindirərək, çox mədəni və xoş üzlə salamlayaraq: "Siz bizim xalqımızın qaymaqlarısınız, siz hələ bundan sonra çox yaşamalısız" dedi.

Bu sözlər millətindən, vəzifəsindən, daşıdığı rütbəsindən asılı olmayaraq hər kəsin milli azadlıq yolunda bir olduğunun və hamının bu Sovet-rus boyunduruğundan azad olmaq istədiyinin bariz nümunəsi idi.

Kameramıza kolbasa və çörəkdən ibarət ilk yemək sovqatı gətirilməsini heç vaxt unuda bilmərəm. Deyilənə görə onu aspirantlar yataqxanasında yaşayan gənc alimlər göndərmişdilər.Gətirilən ərzağı aramızda bərabər olaraq bölüb yeyirdik.

Bayırla əlaqə qura bilmədiyimizdən meydan dağıdılandan sonra şəhərdə nələr baş verdiyindən, kimlərin tutulduğundan, bir sözlə ölüb-itəndən xəbərimiz yox idi.

Moskvadan gəlmiş Sauşkin soy adlı rus müstəntiq bizi dindirirdi. Öz aramızda belə izahat verməyi qərara almış-

dıq ki, heç bir gizli təşkilatın üzvü deyilik, meydana da ordan keçdiyimiz vaxt gec olduğundan fövqəladə vəziyyət qadağasına düşməyək deyə girmişdik (Son günə kimi fövqəladə vəziyyət meydanın içindəkilərə tətbiq edilmirdi).

Müxtəlif profillərdən şəkillərimizi çəkib, barmaqlarımızı mürəkkəbə batıraraq izini götürmələri bizdə 37-ci illərin təəssuratını yaratsa da əhval-ruhiyyəmiz saz vəziyyətdə idi.

Ilk günlər heç kim ah-vay eləmir, sızıldamır, düşdüyü vəziyyətdən şikayətlənmir, başımıza daha nələrin gələcəyini bilməsək də günümüzü deyib-gülmək və zarafatlaşmalarla keçirurdik.

Vaqif Əhmədov proqulkada şeir deyir, biz də dövrə vuraraq gəzə-gəzə dinləyir, Rauf Səlimbəylinin maraqlı söhbətlərinə qulaq asa-asa günümüzü keçirirdik.

Bir neçə gündən sonra dediklərinə görə əsasən Bakı kəndlərindən, daha doğrusu Şüvəlan türməsinə yaxın olan ərazilərdə yaşayanları seçib Şüvəlan həbsxanasına "etap" apardılar.

Bizi isə hələ də arayıb-axtaran yox idi. Hər gün "karmyoşka"dan Əbülfəz Bəylə, Xəlil Rzayla, Tağı Xalisbəyliylə danışır, onların tövsiyyə və tapşırıqlarını kameradakı dustaq yoldaşlarımıza çatdırırdım.

Ayın neçəsi olduğunu Bayıl türməsi bizə unutdurmuşdu. Neçə gün burda olduğumuzu isə rejissorluq fakultəsinin tələbəsi, sonralar dost olduğumuz, müharubədə şəhid olan Naxçıvanlı Vaquf Əhmədovun təşəbbüsü ilə qapının yanındakı divara cızdığımız xəttlərdən bilirdik.

Günlər keçdikcə həbsxanada olduğumuz əvvəlki günlərin romantik duyğuları yavaş-yavaş yerini qayğılı hisslərə ötürür, talehimizin necə olacağı, neçə il iş verəcəkləri, evdəkilərin bizdən xəbər tutub-tutmamaları, inistutdan qovulub-qovulmayacağımızın natahatçılıqları yaranmağa başlayırdı.

Bir tərəfdən də dəmir çarpayıların üstündə heç nə olmadan dekabr ayının soyuğunda yatmaq sağlamlığımız üçün heç də yaxşı əlamət deyildi.

Baxmayaraq ki, hər gün kameradakı uşaqlara məcburi səhər gimnastikası elətdirir, imkan daxilində daha çox mütəhərrik olmalarına çalışırdım.

Bütün bu fiziki əzab əziyyətlərdən daha çox mənəvi əziyyət verən, Sovet əxlaq kodeksinin kuliminasıya nöqtəsi sayıla bilən və nədənsə "sever" adlandırılan, gündəlik bioloji və fizioloji tələbatlarımızı ödəməli olduğumuz tualet proseduru idi.

Belə ki, kameranın qapısındakı "qlazok"dan (gözlük) günün bütün saatlarında "bir başa görünüş"ilə görünmək məcburiyyəti daşıyan, hər tərəfi açıq və üfunət iyi verən bu "məişət predmeti" rus sovet əxlaqı üçün elə də problem sayılmasa da, bizim Türk milli mentalitetimizlə bərabər müsəlman və islam adət və ənənələrimuzə heç uyğun gəlmirdi.

Nə isə!

Hardasa 15-20 gün sonra gecə saat 2-3 radələrində bizi qaldırıb kameralardan çıxartdılar. 10-12 nəfər üçün nəzərdə tutulan "varanoka" zorla 40-50 nəfər dürtərək bilmədi-

yimiz istiqamətdə, bilmədiyimiz yerə apardılar.Yolda zarafatla bir birimizə Ağcaqum çöllərinə güllələnməyə aparıldığımızı deyib gülürdük.

Səhərə yaxın çatdığımız məkanın günorta Salyanın Xələc türməsi olduğunu öyrəndik.

Buradakı şərait Bayıla nisbətən daha qənaətbəxş idi. Baraklada setka çarpayılar, döşək, adyal, ayaq yolu və hətta voleybol meydançası da vardı.

Bir neçə gün burda qaldıqdan sonra, ilin son günü və həm də qəsdən, axşam qaranlığında bizi həbsxanadan buraxdılar.

Yolda durub Bakıya getmək üçün maşınlara əl etdiyimiz vaxt, bizə yazığı gələn bir KamAZ sürücüsü bizi Qaradağa qədər gətirdi. Ordan isə başqa bir maşınla Bakıya Gənclik metrosunun yanına, mənim üçün dogma və əziz olan Azərbaycan Bədən Tərbiyəsi İnustitutunun yanında olan yataqxanamıza gəldim.

Yataqxanaya gəldiyimi eşidən tələbələr başıma toplaşaraq məni sevunclə qarşıladılar. Gecə səhərə kimi yatmayıb söhbətləşdik. Mən həbsxanada baş verənlərdən, onlar institutda olanlardan danışdıq. Bildim ki, mən həbsdə olduğum bir aya yaxın müddətdə tələbə yoldaşlarım Taleh Həsənov (Qazağın Əksipara kəndindən olan otaq yoldaşım idi, sonralar müharibədə iki qollarını itirdi), Əli Bayramlıdan Mətanət (indi Gəncdə universitetdə dərs deyir), Naxçıvanlı, məşq və tələbə yoldaşım Asif Əsgərovun (indi Nəsimi rayonunun icra başçısıdı) başçılığı ilə tələbələr hər gün institutun həyətinə yığışır, heç biri hədə və qorxu-

lara baxmayaraq “Səyavuşa azadlıq!” deyərək dərsə girmirmişlər. (Hətta rus sektorunun tələbələrini də dərsə girməyə qoymurlarmış.)

Axırda rektorumuz Ağacan Əbiyev (Allah canını sağ eləsin, çox demokratik və alicənab rektor idi. Onun sayəsində heç bir tələbə o vaxt institutdan qovulmadı) öz xidməti “Volqa” maşınını verib Asifgil o, maşınla Xələc həbsxanasına mənim dalımca gəlibmişlər.

Beləcə mənim 1988-ci il noyabırın 17-dən dekabrın 5-nə kimi meydan hadisələri, eləcə də dekabrın 5-dən 31-nə kimi olan həbsxana həyatım haqqında yadımda qalanları yazıya köçürülmüş oldum.

Çox istərdim meydan hadisələrində tutulanlar şərtləşib həmin gün Azadlıq meydanına yığışsın. Ötənləri yada salaq. Bu gənc nəsil üçün də bir örnək olar.

P.S Hövsələsi çatıb bu yazıyı oxuyanlara təşəkkür edirəm!

**5 aralık 2023-cü il**

## QAPALI HƏBSXANADA QİYAM

Arxadaşlar!

Bilirəm yazı uzun olduğundan oxumayacaqsınız (düzü mən də eləyəm), amma tarix üçün yazdım ki, qalsın.

Il 1999, ay yanvar, gün 8.

Yer Qobustan Qapalı Həbsxanası. Birinci korpus, kamera nömrəsi yadımdan çıxıb. Yəni 25 il əvvəl bu gün. Bu gün həm də mənim üçün ona görə əlamətdardır ki, 1993-cü ilin noyabr ayının 17-də həbs olunduqdan 51 gün sonra, yəni 8 yanvar 1994-cü ildə oğlum Əsgər dünyaya gəlmişdi. Ona şəhid Milli Qəhrəman dayısı Mir Əsgərin adını qoydum.

Dörd aydan bir verilən görüş gününü də həmişə yaş günündən bir gün sonraya saldırırdım. Həbsdə olduğum 8 ildə demək olar ki, hər il Əsgərin yaş günündə dostlarım Oktay, Qorxmaz və Şahbaz iştirak edirdilər. Müxtəlif vaxtlarda isə Arif Rəhimoğlu, Əli Şamil, Isa Qəmbər, Əli Kərimli, Fazil Mustafa, Nəriman, Arzu, Əbülfət və b. dostlar iştirak edirdilər. Ona görə də 4 ay həsrətlə bu günü gözləyirdim ki,oğlumla görüşəm.

Axşam kameramızın qapısı açıldı.

Vahid Musayev (Surətin çevrilişiylə əlaqədar həbs olunmuş general) kameraya daxil oldu."Sizə aministiya verirəm, çıxın!"dedi.Kamerada 4 nəfər idik.Ağsaqqal Adil Hacıyev( Ayaz Mütəllibovun hakimiyyəti vaxtı Dövlət Katibi vəzifəsində işləmişdi.Tovuzluydu).Əvəz(OMONcu

idi, Rövşən Cavadovun qohumuydu). Yusif (Əslən Naxçıvanlı idi, Yevlaxda böyümüşdü)

Mən "Biz sənin hökmünlə tutulmamışıq ki, sənin amnistiyanla çıxaq" deyib Vahid Musayevi kameradan qovdum. Qapı açıq qaldı.

Sonra səs-küy, hay-haray düşdü Qobustan Qapalı Həbsxanasına. Məlum oldu ki, Vahid Musayev və bir neçə dustaq, dustaqlardan birinin pristupu tutduğunu bəhanə edərək növbətçi zabiti kameraya çağırıblar ki, həkim gətirsin. Həkim gələndən sonra isə onları girov götürüb kamerada bağlayaraq açarı və silahı götürərək səssizcə qaçmaq istəyiblər. Həbsxananın giriş hissəsində olan vışkaya qalxıb ordakı əsgəri baltayla vuraraq silahını götürür və karaul yerləşən otağa girmək üçün pilləkənlə "zapretə" eniblər.

Hesablamaları da çox dəqiq apardıqlarından bilirmişlər ki, karaul növbəsi postları yeni dəyişib və karaul otağına giriblər. Bir təsadüf bunların planını pozur. Təsadüf də ondan ibarət olub ki, Sovet dövründən qalıb orda işləyən bir rus praporşiki naçalnik karaul imiş və karaulu dəyişib geri qayıdanda əsgərləri qabağa buraxıb tikanlı məftillərin arasına "peşova" çıxıbmış. Ona görə də karauldan sonra gələndə pilləkənlə iki nəfərin aşağı endiyini görür. Tapançadan atəş açaraq adamların birini yaralayır və karaulu silahlanmağa səsləyir.

Gələnlər geri qayıdaraq təzədən həbsxananın həyətinə girirlər. Planının həyata keçmədiyini görən Vahid Musayev ömürlük məhbus yatanlar daxil olmaqla, bütün kameraları açmaq əmri verir və həbsxananın içərisindəki bütün

zabit və şəxsi heyətin hamısını girov götürərək kameraya doldurur.

Mən də bütün siyasi dustaqlara xəbər çatdırdım ki, biz bu işə qoşulmuruq və heç kim bunların dalınca getməsin. Imkan daxilində kameralarından çıxmasınlar. Çıxmaq istəsələr mənim kamerama gəlsinlər. O cümlədən də kəndlimiz və dədə-baba kirvəmiz, cinayət aləmində Adoş Naxçıvanski adı ilə məhşur olan Ədalət Qasımov və Hici ləqəbli Naxçıvanlı avtoritet Hicran da mənim kamerama gəldilər.

Az sonra kameramız ağzına kimi-əsasən rəhmətlik Şahmərdan bəyin döyüşçüləri olmaqla bütün siyasi məhbuslarla doldu (ikinci korpusda olan Isgəndər Həmidov və Fəhmin Hacıyev kameralarından çıxmadılar).

Artıq gecə saat 1-2 olardı. Karaul silahlanaraq həbsxana perimetrini qapatmış, bayırdan gələn səslərdən aydın olurdu ki, texnika və o cümlədən ağır texnika cəlb edilmişdir. Vahid Musayevlə kimsə bayırdan qışqıraraq danışıqlar aparırdı (sonradan məlum oldu ki, danışan həbsxananı mühafizə edən komandir Rövşən adlı kapitan imiş. Rövşəni şəxsən tanıyırdım Qarabağ qazilərindən idi. Rövşən özünü girov verməklə baltayla vurularaq ölüm ayağında olan yaralı əsgərini geri almağı təklif edir. Vahid də razılaşır. Əllərini arxadan qandalla bağlatdıran Rövşən qiyamçılara girov gəlir. Bunlar isə Rövşəni girov götürsələr də ölüm ayağında olan yaralı əsgəri vermirlər). Bu vaxt Vahid yenidən əlində avtomat bizim kameramıza girdi. Avtomatı düz mənim sinəmə dayayaraq qışqıra-qışqıra: “Niyə dustaqları mənə qoşulmağa qoymursan”-deyir (artıq

planının baş tutmadığını bilir. Gözləri qıpqırmızı hədəqədən çıxmış və anlaqsız hərəkətlər edir). Mən isə ondan da bərk qışqıraraq:- “Vahid, mən tankın altından sağ çıxan adamam, sən məni avtomatla qorxuda bilməzsən. Avtomatını alıb dalına… Özün cəhənnəm o uşaqları yazıq eləmə” deyirəm.

Yanımdakı dostlar da bir işarəyə bənddirlər ki, Vahidi tərksilah edib parçalasınlar. Gözləmədiyimiz halda Vahid geri dönüb, "Artıq gecdir"- deyərək karidorla geri getməyə başladı. Mən arxadan "Vahid, biz cəbhəçiyik, biz silahlı mübarizə yox, siyasi mübarizə aparırıq. Özünə görə yanındakı uşqaları qırğına vermə yazıqdılar"- dedim (demək olar ki, qeyri-təbii halda dediyim bu son cümlələr məni sonrakı aylarla aparılan istintaqda, qiyamın iştirakçısı olmadığım halda, qiyamın təşkilatçısı və rəhbəri olduğumu sübut etmək üçün tapşırıq almış, istintaq qrupunun ciddi cəhdlərinə baxmayaraq, qonşu kameralardakı dustaqların ifadələrində öz əksini tapdığı üçün böyük bir şərdən azad etdi).

Qiyama qoşulanlardan Yaşka adlı yeri, yurdu və milləti bəlli olmayan dustaq, (deyilənə görə vışkadakı əsgəri o baltayla vurmuşdu) Ağdam OMON-unun komandiri Faiq Baxşəliyev,qonşu kamerada adam öldürmək üstündə yatan, Naxçıvanda vağzal tərəfdə yaşayan adını unutduğum bir oğlan(anası dəmiryol məktəbində dərs deyirmiş,mən həbsxanadan çıxanda bizə gəlmişdi və oğlunun ölümünün səbəbini öyrənmək istəyirdi) və adlarını bilmədiyim bir neçə dustaqla bərabər

girov götürdükləri komandir Rövşən də Vahid Musayevlə birlikdə dünyasını dəyişdilər. (ölüm səbəbini isə sonralar hərə bir cür danışırdı)

Elə dustaqlar da var idi ki, əvvəlcə küyə düşüb onlara qoşulmuşdular, sonradan isə vəziyyətin pis olduğunu görərək yenidən qayıdıb kameralarına girmişdilər. Onlardan biri də Fizuli rayonundan olan Yapon ləqəbli, haqqında heç də yaxşı şeylər danışılmayan batalyon komandiri idi.

Yapon hadisələrin sonu pis olacağını görəndə bizim kameraya gəldi və"bəy mən onlarla getməyə qorxuram mən indi nə edim?" dedi.Mən də gedib öz kamerasına girməsini məsləhət gördüm.Gedəndən sonra üz-üzə olan kamerasından "yasin surəsini" bizdən istədi.Səhərə yaxın həyətdə bunta qoşulub sağ qalanları soyundurub korpusun qabağında elə döyürdülər ki,"vayyy Anaaa" sədaları Qobustan dağlarında əks-səda verirdisədə, təpik və şillə-yumruqla müşaiyət olunan "sənin Ananııı..." cavabı ondan da bərk əks-səda verirdi.

Belə bir psixoloji təzyiqə tab gətirməyən Yapon kameralarından uca səslə Yasin oxumağa başladı.Səhər isə məlum oldu ki,Yasin oxuyandan sonra gərginliyə dözməyərək adyalı başına çəkmiş və lezva ilə əl və boyun damarlarını kəsərək qan axmadan, səsini çıxarmadan dünyasını dəyişmişdi.

Səhər onların kamerasında yatan, dediyinə görə Gəncə batalyonlarının birinin adını unutduğum komandirlərindən biri, kameralarından məni səslədi və

Yaponun damarlarını doğrayaraq özünü öldürdüyünü xəbər verdi.Sonra adminstrasiyadan gəldilər və meyidi sürüyüb koridora qoydular.

Yaponun ölü namazını mən öz kameramızdan uca səslə qıldım və bütün kameralardan da Amin deyən dustaqlarla birlikdə Yapondan ayrıldıq.Yaponun meyidini günortadan sonra gəlib götürüb apardılar.

Həə. Gələk hadisənin gedişinə.

Sonra cavan bir dustaq gəldi məni çağırdı. Yaxınlaşanda mənə bir "ksiva" uzatdı və "böyük qardaş" göndərib dedi (böyük qardaş cinayət aləmində "vor zakonlara" bizim dildə desək "qanuni oğrulara" deyilir).

Həmin vaxt Lotu Yunis də Qobustanda srokdaydı (cəza çəkirdi) və məlum idi ki, böyük qardaş deyəndə onu nəzərdə tuturdu. Bildirim ki, Qobustandakı karsı sökdürmək üçün 18 gün aclıq eləmişdim və başqa "za obşi delo "(birgə işimiz üçün) məsələlərdə əlaqə saxlayırdıq deyə bir birimizə qarşılıqlı hörmətimiz var idi "oğru Yunislə". (O vaxtadan Günlər keçdi, mən həbsxanadan çıxıb Moskvada yaşadığım vaxt, telefonuma görünməyən nömrədən zəng gəldi. Cavab verəndə xəttin o, başında Lotu Yunis olduğunu bildim. Demə azadlığa çıxıb o da Moskvaya gəlib və dostum Şamaxılı Ədalət bəylə bir yedə olanda söhbət məndən düşüb və Yunis mənimlə danışmaq istəyib.

Hal əhvaldan sonra sabah məni restorana dəvət elədiyini dedi. Səhərsi gün Ədalət abiylə deyilən restorana getdik ki, restoranın qapıları bağlıdı.Sonra qapıları

içəridən açdılar və məlum oldu ki, restoranı bağlatdırıb qonaqlıq verirlər.

Oğru Yunis, Oğru Rəşad və Oğru Mamed( mən həbsxanada Oğrulardan Mirseymuru, Kulini, Otarı və Rövşəni görsəm də Mamedlə Rəşadı ilk dəfə idi ki, görürdüm. Onlar haqqında qismət olsa sonrakı yazılarımda yazaram inşaallah.) masanın bir tərəfində əyləşmişdilər. Məni isə üzbəüz tərəfdə tək əyləşdirdilər. Restoran demək olar ki, bunların adamları ilə dolu idi. (yəqin ki, o oğlanlardan bu yazını oxuyanlar da olacaq. Düzdü adlarını bilməsəm də salamlayıram onları da)

Yunis ayağa durub: Mamed Səyavuş bəy Qobustan krıtısında "za obşi delo" aclıq eləyəndə, mən yemək yeyəndə utanırdım."Tak şto" Səyavuş dastoynu srok oturub, bax (baş barmağını yuxarı qaldıraraq) belə qardaşımızdı.

Oğru Mamed isə mənimlə salamlaşaraq "Siyavuş qardaş Yunis sizin haqqınızda bayaqdan siz olmayanda bizə çox yaxşı sözlər dedi. Mən də deyirəm ki,gecə-gündür, 24 saat dünyanın harasında olsaz bir dənə zənginiz kifayətdi ki, siz bizimkilərdən yana əlinizdən gələni etdiyiniz kimi, biz də sizdən yana əlimizdən gələni edək.

Sonralar Nijni Novqorodda görüşdük Oğru Yunislə. Bakıda isə Maştağadakı Görüş restoranında Ədalət bəylə oğlunun kiçik toyunda iştirak elədik.

Lotu Yunis ləqəbli Yunis Nəzərov 2023- cü il 21 sentyabrda dünyasını dəyişdi. Yasamalda evlərində tutulan yasında və

Xırdalan qəbirsanlığında dəfnində də iştirak elədim. Allah rəhmət eləsin).

"Ksivanı" açıb oxudum. Lotu Yunis yazılmışdı ki, "Bəy biz, poryadoçnı arestantlar bu bunta qoşulmuruq. Sən nə deyirsən?"

Qaydaya görə "ksivanı" oxuyub geri qaytarmalı olduğum üçün onu oğlana geri qaytardım. "Qardaşa de ki, Səyavuş deyir ki, biz siyasi dustaqlar da bu bunta qoşulmuruq". Oğlan getdi (cavan oğlan idi, indi adı yadımdan çıxıb amma deyəsən kliçkası "vosmoyski" idi. Inşaallah indi sağ salamat olar. Onu da salamlayıram). Üstündən bir müddət keçdikdən sonra həmin oğlan bir də gəldi. Cibindən açar çıxardıb dedi ki, Böyük qardaş deyir ki, Bəyə de dustaqlara desin ki, kameralarına girsinlər. Sonra da qapıları bağlayın.

Mən karidora çıxdım, karidor dustaqlarla dolu idi. Neçə illər yan-yana kameralarda oturan dustaqlar bir-birləriylə görüşür, kimsə yerlisini axtarır, hətta sonralar deyilənə görə fürsətdən istifadə edib bəzi "razborkaları" da həyata keçirirdilər. Hələ o vaxt "oğru"olmayan idmançı həyatımızdakı "Gənclik metrosu"ətrafındakı sərgüzəştlərimizdən tanış olduğumuz Otar və Kuli də bizim korpusun ikinci mərtəbəsində "otururdular".

Hamının eşidəcəyi səslə ucadan:- "Ay canaat! Yunis qardaş "praqon" (xəbər) göndərib. Deyir ki, hamı kameralarına girsin. Bir neçə saniyənin içində koridor bomboş oldu. Açarı gətirən adama verib kameraları bağlamasını tapşırdım.

Mən kameramdakı dostlarımızı da öz kameralarına yola salandan sonra, həmin dustaq bütün kameraların qapılarını bağlayandan və bizim kameranın da qapılarını bağlayandan sonra sağollaşıb getdi.

Vaxt elə bil donmuşdu...

Buntovşiklər dustaqların onlara qoşulmadıqlarını görüb adminstrasiyaya girdilər. Hərdən də çöldən danışıq səsləri gəlirdi. Arabir qadın səsləri də eşidilirdi. Bunt eliyənlərdən kimlərinsə ailələrindən qadınları gətirib içəridəkiləri sakitləşdirməyə çağırırdılar.

Səhərə yaxın maşın səsləri gəldi və çox güclü bir gurultu dalınca da atəş səsləri Qobustan qayalarında əks-səda verdi (hadisələrin bu hissəsini yazmaq istəmirəm).

Allah haqq edənlərə rəhmət eləsin.

***8 Ocak 2024-cü il.***

# QOBUSTAN HƏBSXANASINDAKI KARSI NECƏ SÖKDÜRDÜM

Arxadaşlar!

Bu gün Siyasi Repressiya və Aclıq Qurbanlarının Anım günüdür. Dostum və əqidədaşım Məhəmməd Israfiloğlunun "SLON" (Соловеöкий Лагеğü Особого Haçнaчение) adlı yazısındakı müsavatçıların 1920-ci illər Rus-Sovet həbsxanalarında çəkdikləri məşəqqətlər haqqında yazdığını oxuduqdan sonra bu yazını yazmaq qərarına gəldim.

Il 1998. ay mart, gün 21, yer Qobustan Qapalı Həbsxanası, korpus 1, kamera 32.

Dünən axşam aclıq etməyimin 17-ci günü kamerada "tonqal" qalayıb üstündən tullanandan (kibrit çöplərini tək saxlandığım kameranın ortasında kükürdlü hissələrini yuxarı olmaqla, yığaraq alışdırıb özüm üçün "Novruz bayramı tonqalı" qalayıb üstündən tullanmışdım) sonra gecə gec saatlara kimi, yata bilmədim.

Bunun əsas səbəbi aclıq etdiyim 17 gün ərzində bədənimin xeyli halsızlaşması, mədəmdəki dözülməz ağrıların başlanması idisə, ikinci səbəbi uşaqlıq illərimdən indiyə kimi, məktəb, institut, mübarizə, müharibə illərindən tutmuş, müxtəlif həbsxanalarda Bayıl, Şüvəlan, Maloletka (ilk vaxtlar həbs olunan polis əməkdaşlarını saxlamaq üçün xüsusi zon olmadığından bizi Aeroport yolunun üstündəki Maloletka deyilən Uşaq Islah Əmək Koloniyası adlanan zonda cəza çəkən az yaşlı məhbuslarla bir yerdə

saxlayırdılar), 9-cu zonda və Qobustanda keçirdiyim Novruz bayramlarının bir-bir gəlib gözüm önündən keçməsi olmuşdu.

Aclıq etməyimin səbəbi isə siyasi tələb deyil krıtı adlanan Qobustan Qapalı Həbsxanasında rəisin dustaqların hüquqlarına və qanunlara məhəl qoymaması idi.

Həbsxananı öz "mağara qanunları" ilə idarə etməsi, məhbusları döyməklə, söyməklə cəzalandırması və ən əsası da "kars" adlanan yerin "karantin" adıyla özünün gəlir mənbəyinə çevirməsi idi.

Belə ki, hər həftə bütün zonlardan "naruşitel" adıyla əvvəl 7+7+15 sutka, sonra 1 ay "BUR" ( barak usilennoqo rejima), daha sonra 3 ay " PKT"( pomeşeniya kamernoqo tiipa) cəzalarıyla 5-6 ay zonların karslarında saxlanılmış dustaqlar krıtıya düşən kimi "pullu və pulsuz" kateqoriyalarına bölünürdülər.

Pullulardan elə gələn kimi 500 manata qədər, yəni "damara görə " dedikləri pulu alıb kameralara göndərirdilər.Pul almaq isə belə həyata keçirilirdi. Rəis özü və yaxut əməliyyat üzrə müavin dustaqları bir-bir qəbul edir, onlardan nə qədər pul qopara biləcəyini müəyyənləşdirirdilər.

Təbii ki, 6 ay zonun karsında yatan dustaqlar bir neçə " şmondan" (yoxlamadan) keçəcəyini bilir və üstlərində pul gətirmirdilər. O zaman dustağa "çöllə əlaqə" imkanı yaradılaraq telefonla dustağı dediyi adamla danışdırır və o adam "taksanı" uzağı iki günə çatdıracağına "dil olandan" (söz vermək) sonra dustaq kameralara göndərilir ki, bunların da "obşi" 10-12 nəfərlik, "kvartirant" 6-8 nəfərlik,

“normalnı" 4 nəfərlik və "burjuy" 2 nəfərlik kamera növləri olaraq hərəsinin öz qiyməti var.

Pulsuzlar isə "karantin"ə doldurulurdu. Karantin isə korpuslardan ayrı tikilmiş bir mərtəbəli binadan ibarət idi. Bina elə tikilmişdi ki, burada "press" (nazor və zabitlərin dustaqları döyməl描ərinə verilən ad) veriləndə qışqıran dustağın səsi korpuslarada eşidilməsin.

Heç pəncərəsi və nəfəsliyi olmayan bu yerdə gündüz və yaxut gecə olduğunu ancaq və ancaq tavanın günəş istiliyinin boğucu hərarətindən hiss etmək mümkün idi. İnsan yaşayışı üçün heç bir şərait nəzərdə tutulmayan qaranlıq kameralarda nəinki "qoyka yaxut şponka" (kravat), heç ayaq yolu da nəzərdə tutulmamışdı.

Qapının yanında qoyulmuş ayaq yolunu əvəz edərək "paraşa" adlanan deşik vedrə isə illərlə daşıdığı insan yaşayış tələbatının son ehtiyaclarının bolluğundan üfunət iyi verməyiylə bərabər kamerada ən lazımlı və karsın simvoluna çevrilmiş əşya adını daşımaqda idi.

Bütün zonlarda və əlalxüsus krıtıya gələcəyini bilən dustaqlar gəlməmişdən 3-4 gün əvvəl yemək yemirdilər ki, həmin bu "paraşaya" çox ehtiyac duymasınlar.

3 metr eni, 4 metr uzunu və pəncərəsi olmayan bu kameraya salınmış onlarla dustaq demək olar ki, illərlə boş qalmayan bu kameraya salındıqdan 2-3 gün sonra nəmişlikdən, hava çatışmazlığından, üfunətdən çox asanlıqla vərəm, qotur və digər dəri xəstəliyinə tutulurdu.

Bu rəzalətdən qurtarmağın isə bir yolu var idi ki, o da rəis tərəfindən qoyulmuş 200 manatlıq "taksa"(pul) idi.



***Qobustan qapalı həbsxanasının Qobustan dağından ümumi görünüşü***

Əks təqdirdə hətta həftələrlə burda qalıb ömrü böyu qurtara bilməyəcəyi xəstəliklərlə baş -başa yaşamalı idin.

Təbii ki, buna yaşamaq demək mümkünsə.

Mən də o rəisin pul qazanmaq, dustaqların isə "ölüm makinası" olan həmin "karsı" sökdürmək üçün "ölüm aclığı"nın 18-ci gününün məşəqqətlərini yaşamaqdaydım. Birdən kameramın qapıları şaqqıltı ilə açıldı:

-Rəisin yanına!

Adətən kamera qapıları açılanda dustağı hara aparacaqlarsa həmin yerin adı çəkilir. Filankəsov filankəs etapa, görüşə, sançasta, hamama, proqulkaya və s. Mən isə "odinoçnı kamerada" (tək adamlıq) saxlanıldığım üçün adımı çəkməyə ehtiyac yox idi.

Ayağa qalxmaq istədim.Gözlərim qaraldı və yenidən oturdum. Starşına və DPNK (dejurnı pomoşnik naçalnika kalonii) qollarıma girib məni kritinin qapı tərəfində olan rəisin kabinetinə apardılar. (o vaxt DPNK Tovuz rayonundan Surxay adlı çox mərifətli bir mayor idi. Krıtıda yatanlar bilir ki, Surxay məllim kimi yaxşı DPNK Qobustana gəlməyib bundan sonra da gəlməyəcək. Həbsxanadan çıxandan çox sonralar AMAY şirkətində Təhlükəsizlik xidmətinin rəisi işlədiyim vaxt pensiyaya çıxmış Surxay məllimi və o vaxt həbsxanadan tanıdığım bir neçə nəfəri yanımda işə götürmüşdüm və indi də uzun müddətdir ki, dostluğumuz davam edir)

Rəisin kabinetində "qrajdabski formada" iki nəfər var idi. Biri penitensiar xidmətin rəisi, general mayor Aydın Qasımov idi. Pəncərənin qabağında duran ikinci adamı isə tanımırdım.

Qanun üzrə əllərim arxamda özümü təqdim elədim. “Qanunda nəzərdə tutulmayan,qeyri qanuni silahlı dəstə yaratmaq üstündə 8 il həbs cəzasına məhkum edilmiş Mustafayev Səyavuş Firudin oğlu. (Nədənsə dustaqlar bu təqdimatı etməkdən çəkinirlər. Amma mən hər dəfə kiminsə qəbuluna gedəndə çox fəxarətlə və uca səslə bu şəkildə özümü təqdim edirdim. Ola bilər bu ondan irəli gəlirdi ki, mən məhkum olmağımdan utanmırdım).

Bunun da müxtəlif izahları var ki, birinci yerdə mən özümü günahkar saymır və sonralar imtina etdiyim siyasi məhbus hesab edirdim. Baxmayaraq ki, mənə verilən ittihamı da özüm boynuma alırdım. Ittiham isə ondan ibarət

idi: "Dövlətçilikdə nəzərdə tutulmayan qeyri-qanuni silahlı dəstə yaratmaq".Bunu isə mənim boynuma almamağım, yaxut danmağım mümkün deyildi axı.Əksinə mən bu hərəkətimlə fəxr edirdim.Naxçıvan qarışıq bütün Azərbaycan və hətta Moskva və Yeravanda da lazım olan adamlar bilirdi ki, mənim silahlı batalyonum var idi və mən bu batalyonun başında ermənilərlə vuruşurdum. Indi isə belə bir silahlı dəstəmin olduğuna görə və bu dəstəylə ermənilərə qarşı vuruşduğuma görə 6 il idi ki, həbsdə yatırdım.

Həbsxanalarda yatan dustaqlarda ümumiyyətlə "günahsızlıq sindromu" deyilən bir psixoloji hal mövcuddur. Demək olar dustaqlardan az adam elədiyi cinayəti boynuna alır.

Hətta mən söhbət etdiyim "ölüm üstündə yatan" çox dustaqlar belə öldürdüyü adamın hadisə yerində olmayacağı təqdirdə bu qətlin törədilməyəcəyi kimi alibilər fikirləşib tapmaqdadırlar.

Aydın müəllim qabağa gələrək mənimlə əl verib görüşdü. (Bu əl verib görüşmə ola bilsin ki, başqa dustaqlarla edilmirdi, amma mənimlə görüşməyə gələn, yaxut mən görüşməyə gətirildiyim yüksək çinli məmurlar Ədliyyə Naziri, Əfv Komissiyasının sədri, Respublika Prokurorunun müavini və onlarla deputat mənimlə əl verib görüşürdülər)

Onsuz da ayaq üstə zorla durduğumu görüb oturmaq üçün yer göstərdi:

-Səyavuş, gəl sən bu bayram günü aclığını dayandır dedi.

-Aydın müəllim, mən tələbimi yazılı olaraq vermişəm və tələbim yerinə yetirilməsə ölənə kimi aclıq edəcəyimə qəraq vermişəm -dedim.

Həyətə baxan pəncərənin qabağına keçib pərdələri açdı:

-Bura bax,dedi.

Mən pəncərədən həyətə baxanda sarı rəngli bir ekskovatorun kovuşuyla "karsı" sökdüyünü gördüm. Elə bil gözlərimə işıq, dizlərimə taqət gəldi. Tez qeyri-ixtiyari durub pəncərəyə yaxınlaşdım.

Doğurdan da "ölüm makinası" olan karsı sökürdülər. (Karsı sökülən rəis isə sonralar mənim krıtıda yeganə döşəməsi taxta pol olan kameramı boşaltdırıb oranı kars elətdirdi).

-Indi necə aclığını dayandırırsan? deyə Aydın müəllim mənə baxdı.

Sevinərək::

-Bəli, deyə cavab verdim.

-Onda bizim yanımızda bu şəkərburanı ye deyərək masanın üstündə indi fikir verdiyim Novruz bayramı şirniyyatlarının içindən bir şəkərbura çıxardıb mənə verdi.

Mən də özümü qalib gəlmiş qəhrəman kimi hiss edərək o şəkərburanı yedim. (Düzdür 18 gün aç qalan mədə bağırsaq sistemimdə bu şəkərburanın sonralar verəcəyi fəsadlar, həmin andakı "Triumflu qələbəmi"qeyd edən vaxtı aldığım  zövq və ləzzətin qarşısında çox kiçik məsələ idi)

Ondan sonra Aydın müəllim tanımadığım adama tərəf dönüb gülərək:

-Dəmir müəllim sənin təriflədiyin Səyavuş budur dedi və adamı təqdim etdi:

-Dəmir müəllim mənim dostumdu və Bayıl həbsxanasının rəisidi. Buraya, səninlə görüşməyə gəlməyi özü məndən xahiş eləyib.

Dəmir müəllim, mənə yaxınlaşıb əlimi sıxdı:

-Səyavuş, neçə il əvvəl sən Naxçıvanda işləyəndə Gəncədən sənə salam göndərmişdim, yadındamı? deyə mehriban bir nəzakət və ehtiramla məndən soruşdu.

-Bəli, dedim

-De görüm, o məsələ necə oldu.

-Işdə idim. Katibə növbətçinin iki nəfərin qəbula gəldiyini dedi. Mən də qəbul elədim. Gəldilər və dedilər ki, Bəy, biz Naxçıvan adamıyıq və şoferik. Gəncədə bir restoranda beş altı adam oturub yemək yeyirdik. Bir nəfər bizə yaxınlaşıb Naxçıvanlı olduğumuzu soruşdu. Bizdə təsdiqləyəndən sonra dedi ki, Sizdə bir Daxili Işlər Nazirinin müavini Səyavuş Mustafayev var. Gedəndə ona deyin ki, Gəncədən polis rəisinin müavini Dəmir deyir: "O Səyavuş kişi adamdır!" Soruşdum ki, o adam niyə bunları dedi?

Dedilər ki, daha heç nə demədi və bizim hesabımızı verib getdi.

Dəmir müəllim yaxınlaşıb dedi:

"Bəli, düz deyirsən, yaxşı ki, yadından da çıxmayıb. O salamı göndərən Dəmir mənəm".

Dedim: "Nə üçün salam göndərdiyinizi isə heç indi də bilmirəm".

Dedi: "Eşitdim ki, sən Naxçıvan sərhəddində Türkiyəyə gedən əxlaqsız qadınların pasportlarını alıb cırırsan ki, xaricə gedə bilməsinlər. Ona görə özüm də Naxçıvana gəlmək istəyirdim. Işin çoxluğundan gedə bilmədim. Təsadüfən restoranda o şoferləri gördüm və onlarla sənə minnətdarlığımı bildirdim. Sonra Aydın Qasımova tərəf dönərək, Aydın müəllim, Səyavuşu Bayıla göndərin, onu orda gözümüz üstündə, lap lazım olsa öz kabinetimdə saxlayaram.Belə kişilər milyonda bir dünyaya gəlir."

Sözün düzü belə bir performansla qarşılaşacağıma hazır deyildim. Rəisin yanına gətiriləndə fikirləşirdim ki, rəis yenə əvvəl qışqırıb bağıracaq, sonra yağlı dilini işə salaraq, Cəbhə hakimiyyəti tərəfindən vəzifəyə təyin edildiyini yada salacaq, sonra da məni aclığı dayandırmağa sövq edən min cildə girəcək.

Indi isə rastlaşdığım bu səhnə mənə aclığımı yadımdan çıxarmış, türmələrin türməsi sayılan kırıtıda ölüm aclığı edərək dünyayla vidalaşmağı göz önünə gətirdiyim bir vaxt baş verirdi. Heç görmədiyim, tanımadığım bir adam hardansa peyda olur və mənə illər öncə hüquq-mühafizə orqanlarında nazir müavini işlədiyim vaxt elədiyim yeganə "qanunsuz", lakin ölkədə rezonans yaradan,ləyaqəti və kişiliyi olan hər kəs tərəfindən rəğbətlə qarşılanan hərəkətimi hələ də unutmamış hətta buna görə məni mükafatlandırmaq adıyla "öz həbsxanasına" dəvət edib yaxşı

yaşamaq adıyla "Peyqəmbər yandırılanda qarışqanın su yokmək misalı" əlindən gələn yaxşılığı etməyi təklif edirdi.

Deməli, dünya əsil "kişilərdən" xali deyildir. Paqon altında olan, "dört divar" arası sayılan həbsxana zülmətlərinin içində də şərəfli kişilər var imiş. Baxmayaraq ki,həbsxanada "çörək ağacı" olan karsı sökdürdüyüm həbsxana rəisi sonralar nəzarətçini üzümə durduraraq ona beş manat rüşvət verməyim adıyla mənə verilmiş 8 illik həbsimə əlavə 3 il yarım da verdirərək “sözünün üstündə durdu” və qisasını məndən birə beş aldı.

Doğrusu, mən heç bilmirəm ki, Dəmir müəllim məhşur Bayıl türməsində işlədiyi müddətdə dustaqlarla necə davranıb? Qanunlara hansı dərəcədə rəayət edib və indi bu sətirləri yazdığım vaxt yəni həbsxanadan çıxdığım 23 ilə yaxın müddətdə heç qarşılaşmadığım nə Aydın Qasımov, nə də Dəmir Gözəlov hardadılar, necədilər, nə işlə məşğuldurlar? Amma o vaxt mən "Cəhənnəmin dibində" olduğum zaman mənə göstərdikləri o hərəkətlər ömrü boyu yadımdan çıxmır və həmişə həbsxanadan söz düşəndə bu adamlar haqqında müsbət danışıram.

Krıtıda ölüm maşını adlanan karsı sökdürməklə etdiyim belə bir "kişi" hərəkəti dustaqların xoşuna gəlsə də həbsxanaların idarəciləri arasında cılız qisasçılıq hissini alovlandırdı.Ona görə də mən Qobustan qapalı həbsxanasından Binəyə 9 saylı Zona qayıdandan bir il keçməmiş yenidən Qobustana həm də bu dəfə 3 il müddətə göndərildim.

Krıtıda başıma gələn başqa bir hadisə haqqında da yazmaq istəyirəm.

Qobustan Qapalı Həbsxanada 1999-cu il yanvarın 8-də keçmiş general Vahid Musayevin başçılığı ilə bunt olandan bir müddət sonra sançastda yatan zaman yanıma bir "suka" salmışdılar. Bu adamın hərəkətlərindən, danışığından həmən kim olduğunu başa düşsəm də üstünü vurmurdum. O vaxt krıtıda oturan "Lotu Yunis" tərəfindən də mənə "ksiva" gəlmişdi ki, "ehtiyatlı ol, yanına "setka" atıblar".( bu setka məsələsi yadıma bir hadisəni də saldı. Deməli OMON hadisəsi vaxtı gecəylə Bayıldakı ikinci korpusu tamam boşaldıb tutulan OMON-larla doldurdular.

Həmin vaxt da biz məhkəməyə çıxırdıq. Rəhmətlik İbrahim bəy mənə dedi ki, çalış OMON-lar haqqında məlumat topa ki, neçə nəfər və kimlər Bayıldadı. Anaları yanıma gəlir oğlanlarını soruşub axtarırlar. Kimin öldü-kimin qaldısından xəbər yoxdur. Mən də nadzora pul verib adboydan sonra bunlar olan kameralara plasmas butulkada su göndərirəm. Butulkanın qapağında gizlətdiyim kağıza da yazıram ki, "Mən Səyavuşam. Kamerada neçə nəfərsiniz adlarınızı yazın. Bayırda valideyinləriniz narahatdılar." Demək olar ki, bütün kameralardan cavab gəlib. Bir kameradan səs çıxmır ki, çıxmır.

Bizimlə Ali məhkəməyə Kifayət adında Gəncəli bir orta yaşlı qadın da aparılırdı. ( Kifayət xanım bu yazını oxuyacaqsa onu da salamlayıram) Ondan öyrəndim ki, ikinci mərtəbədə bu qadın saxlanan kamera birinci mərtəbədəki həmin cavab verməyən kameranın üstündə

yerləşir.Soruşdum “praxod” ( əlaqə) varmı aşağıyla? Dedi var. Ksiva yazıb Kifayətə verdim ki, bunu onlara çatdır və sabah da cavabı alıb gətirərsən.

Səhərisi gün Bayılda “abezyannikdə”(giriş qapısına yaxın məhkəməyə aparılanlar saxlanan kamera) Kifayət gülərək bizə belə bir əhvalat danışdı.Deyir proxodu açmışıq. Aşağıdakılardan soruşuram ki,” kameranızda setka( yəni işverən, suka) yoxdu? Onlar da mənə deyirlər ki,” setka yoxdu kulok var! Kulok olar?” Bu məsələ sonralar bütün həbsxanalarda gülərək xatırlanırdı)

Ona görə də mən bu sukaya heç fikir vermirəm, özüm üçün kitablardan ingilis dili öyrənirəm. Bu da bütün günü donquldanır, paqonları söyür, hər şeydən şikayətlənir, mənim də onun fikrinə şərik çıxmağıma çalışırdı.

Günlərin bir günü guya yanına gələcəkmişlər və gəlmədiklərinə görə ailə üzvlərini söyməyə başladı. Anası haqda "topal qancıq, elə bil məni bu doğmayıb e, it doğub"- deyəndə nə qədər özümü ələ almağa çalışsam da, əsəblərimə sahib ola bilmədim və buna bir yumruq ilişdirdim.

Ağzı-burnu qanadı və guya üz-gözünü yumaq üçün "severə" (kamerada açıq vəziyyətdə düzəldilmiş ayaq yoluna “sever” deyirlər. Elə tikilir ki, dustaq orda oturduğu vaxt belə “qlazokdan" baxan nəzarətçi dustağı görsün. Hörməti və pulu olan dustaqlar nəyinsə müqabilində adminstrasiya ilə danışıb ayaq yolunun qabağına hündürlüyü bir metrə yaxın pərdə çəkirlər ki, oturanda görünməsin) girdi.

Bir az orda qurdalanandan sonra qapıya yaxınlaşıb nəzarətçini çağırdı. Nəzarətçi gəlib qapını açdı və bunu harasa apardı. Üstündən on dəqiqə keçməmiş qapı açıldı rəisdən başqa müavinlər, DPNK, "oper","rejim" starşına və bir neçə nəzarətçi kameraya doluşdular. Nə baş verdiyini soruşanda, dedilər ki, guya mən bu "sukanı" bıçaqlamışam.

Demə bu gəda, mən onu vurandan sonra gizlicə "taçilka"nı (kamerada kəsici və deşici alətlər qadağan olduğundan dustaqlar xörək qaşığının tutacaq yerinin bir tərəfini yerin betonuna sürtərək itiləyir və ondan bıçaq kimi istifadə edirlər) götürüb və "severdə" qarnından dərisini qaldıraraq dərini deşib və "toçilkanı" pəncərədən həyətə ataraq gedib deyib ki, mən onu bıçaqlamışam.

Düzdü bu cinayəti sübut etmək elə də asan deyildi. Qaşıqdakı əl izi, zərbənin istiqaməti, vurulma məsafəsi və s. mənim vurmadığımı sübut edə bilən alibilərdir, amma harda və kimə nəyi sübut edə bilərsən?!

Heç nədən üzümə durub rüşvət vermək adıyla əlavə 3 il yarım iş verəndən sonra belə fürsəti kim əldən verər ki. Rəisin yanına gedə-gedə yolda bu fikirlər başımda fırlanırdı və əslində öz- özlüyümdə ən azı 5-8 il əlavə iş veriləcəyini gözüm önünə almışdım. Bir ümidim ona idi ki, karsını sökdürdüyüm və mənə 3,5 il əlavə cəza verdirən rəis “bunt”dan sonra belə, işdən çıxarılmasa da başqa yerə göndərilmişdi. Təzə gələn rəis isə Seyid idi.

Məni rəisin kabinetinə gətirdilər. Rəis hamını kabinetdən çıxartdı. Ikimiz qaldığımız vaxt baxanda gördüm ki,

"toçilka" dediyimiz qaşıq da masanın üstündədi. Məndən təxminən 4-5 yaş böyük olan və bədəncə fiziki sağlam olan,cavan oğlana oxşayan rəis sakit və təmkinlə soruşdu:

-Səyavuş onu niyə vurmusan?

-Anasını söydü mən də vurdum.

-Kimin anasını?

-Öz anasını

-Öz anasını söyüb də, onun anasından sənə nə?

-Rəis ana anadı.Anasını söyən də qurumsaq.

Rəis ayağa durdu və qaşığı göstərərək dedi:

-Bununla vurmusan?

-Yox. Yumruqla

-Deyir bəs məni bıçaqladı sonra da bıçağı pəncərədən atdı?

Bu məsələdə sizə anlatmaq istədiyim rəislə olan bir saata qədərki, dialoqumuzun sonu belə bitdi ki, axırda rəis məndən soruşdu:

-Kişi kimi mənə de ki, "rəis sən öl" mən bu bıçaqla onu vurmamışam!

Dedim:

-Rəis “sən öl demirəm" ikimizin də canı mən o gədəni bu bıçaqla vurmamışam, yumruqla vurmuşam. Məsələ bununla da bitdi.

Bitdi deyəndə ki,dekabırın soyoğunda odjimaniyayla keçirdiyim 10 gün karsda yatmaq, bu işin qabağında elə bitmiş kimi bir şey sayılır. Çatdırmaq istədiyim odur ki, dustaqların deməyinə baxmayaraq az da olsa həbsxanada

da paqon daşıyanlar arasında "kişilər" özü də sözün əsil mənasında "kişilər" var!

P.S Həbsxanadan sonra Moskvada yaşadığım vaxt.Bakıda görüşdüyüm köhnə dostumuz sosioloq Əhməd Qəşəmoğlu mənə rəis Seyiddən (demə bacanaq imişlər)salam deyərək söylədi ki,Seyid deyir:

-Biz bilirik ki,siz bilirsiniz ki, biz bilirik!

Mən də cavab göndərdim ki:

Siz bilirsiniz ki,biz bilirik ki,siz bilirsiniz!

Həmin Rəis indi yəqin ki,pensiyaya çıxmış olar.Inşaallah elə bir kişi adamla məmnuniyyətlə görüşərdim.

P.S.S Norveçdə 77 nəfəri öldürən  Anders Berinq Breyvik saxlandığı kamerada özünün kitabxanası, idman salonu, istirahət otağı, yataq otağı və s var. Birinci şəkildəki onun istirahət otağıdır.





Ikinci şəkildəki isə təxminən bir o qədər silahlı erməni düşməninizi öldürən mənim həbsxanadakı kameramdan bir görüntüdür. Qobustan qapalı həbsxanasında tək saxlandığım eni 2,5 metr, uzunu 3,5 metr olan kameram.(şəkili Qırmızı Xaç cəmiiyətinin üzvləri çəkib)

***31 Mayıs-3 Haziran 2024-cü il.***

# LOTU BƏXTİYAR



Arxadaşlar!

Zamanında bu adı eşidəndə çoxlarının dodağı uçuqlayır, biriləri yuxusunu qarışdırır, bəziləri də "siçan deşiyini satın alırdı".

Amma mən sizə deyim ki, Bəxtiyarın nə vahiməli antropoloji sifət cizgiləri, nə hündür boyu nə də qabarmış əzələləri var idi. ( təkcə yanağının bir tərəfində kəsik izi var idi)Orta boylu, tipik Azərbaycan kişisinə məxsus normal fizioloji qurluşlu, üzündən çox gözlərinin dərinliklərində illərlə Sibir türmələrində çəkdiyi əzab-əziyyətin işarələri olan çox maraqlı, maraqlı olduğu qədər də sirli bir adam idi.

Həmsöhbət olanda tanımasaydın heç deməzdin ki, qarşındakı adam adı kriminal aləmdə dillər əzbəri olan Lotu Bəxtiyardır. Çox sakit və aram-aram danışardı. Danışdıqları sözlər və cümlələrin hamısı məntiqə əsaslanırdı. Hərdən söhbət vaxtı ona baxıb fikirləşirdim ki, bu adam anadan fitri istedadla doğulub.

Əgər siyasətlə məşğul olsaydı mühüm siyasi karyera qazanardı, hərbi karyera dalınca getsəydi mütləq general rütbəsinə qədər yüksələrdi, idmanla məşğul olsaydı şübhəsiz Olimpiya çempionu olardı.(Tək-tək adamlar haqqında dediyim bu sözlər sanki, Bəxtiyarın boyuna

biçilmişdi.)Çox təəssüf ki, kriminal yolla gedib və Lotu olub. Mən təəssüflə qeyd elədiyim bu kriminal yol isə onlarla adamın taleyini xilas etməyə xidmət edib.

Tanışlığımız isə belə olub.

1993-cü il noyabrın 18-də Naxçıvan Baş prokuroru İsa Nəcəfovun kabinetindən polis rəisi Sahib Mirzəyevin xidməti maşınına oturub öz ayağımla həbsxanaya gedəndən bir neçə gün sonra məni xüsusi təyyarə ilə Yevlaxda eniş edib bir neçə saat gözlətdikdən sonra Bakıya Şüvəlan türməsinə gətirdilər.

Şüvəlanda 5-6 ay saxladıqdan sonra məhkəməmiz başlayanda Bayıl türməsinə köçürtdülər. (Şüvəlanda isə dustaqlar Şuşa Krıtısından gələn nadzorlardan çox kameralarda olan bitdən-sirkədən əziyyət çəkirdi)

Məhkəməmiz bitdikdən sonra 4 il iş verib Maloletka deyilən azyaşlıların türməsinə (o vaxt polis əməkdaşları üçün xüsusi türmə olmadığından bizi azyaşlılara məxsus İslah Tərbiyə Müəssisəsində saxlayırdılar) göndərdilər.

Həmin vaxt dostlarımız olan siyasi dustaqlar və OMON-cularla "qara dustaqlar" (onlar özlərini "poryadoçnı arestantlar"adlandırırlar) arasında münaqişələr başlamışdı.

Sonra Binədə 2 saylı həbsxananın "prom zon"unu (islah-əmək müəssisələrindəki, istehsalat üçün ayrılan yer) ayırıb 9 saylı Adminstrativ İslah Əmək Müəssisəsi yaradaraq, biz polis və yüksək çinli hərbiçi dustaqları ora köçürdülər.

Mən də o vaxta kimi heç üzünü görmədiyim və kəlmə kəsmədiyim Bayıl türməsində "oturan" (cinayət aləmindəkilər cəza çəkməyə "oturmaq" deyirlər) Lotu Bəxtiyara bu məsələ barədə xəbər (ksiva) göndərdim ki, bu konflikləri yoluna qoymaq üçün bizim kriminal və siyasi dustaqların başçıları kimi görüşməyimiz lazımdır.

Bəxtiyar mənim göndərdiyim xəbərdən məmnun olub Bayıla gəlməyimi və orda görüşməyimiz təklifini göndərdi (əslində isə bu cür məsələlər adətən "krestdə" (məhkumlar üçün ayrılmış mərkəzi xəstəxana)həyata keçirilir. Ona görə ki, hansı rejimdə, hansı izolyatorda, yaxut həbsxanada oturmağından asılı olmayaraq xəstəlik zamanı dustaq mütləq mərkəzi xəstəxanaya aparılır).

Bütün "sxodkalar" (hər hansı bir məsələni cinayət aləminin başçılarının yığılıb müzakirə etməsi və bu məsələ haqda yekun qərar qəbul etməsinə deyilir) və " razborkalar" (cinayət aləminin hansısa bir zon və yaxut türməsindəki "obşakının" və yaxut "polojeniyaya baxanın" kiminsə məsələsini müzakirəyə qoymasına deyilir) da orda aparılır.

Məsələsi "razborkaya çıxarılan dustaq "krestə" çağırılırsa, həmin dustaq nəyin bahasına olur olsun çağırılan vaxt orda olmalıdır (çox vaxt imkanı olan dustaqlar pul verib gedir, imkanı olmayanlar isə, qaşıq udur, özünü doğrayır, yaxut da ayağını kəsib kəsikdə donuz tükü yerləşdirərək bədənində imfeksiya yaradır və ölümcül halda olsa da krestə, başqa sözlə "Çentralnı"ya aparılmağına nail olur ki, "fuflo" ( yalançı) çıxmasın.Fuflo çıxmağın dustaq üçün nə dərəcədə əhəmiyyətli olduğunu çentralnıdan

zona etap edildiyim zaman gördüyüm bir hadisə mənə bir daha sübut etdi.

Bir dustağı demək olar ki, zorla varanoka soxub etap eləmək istəyirdilər. O da qışqıraraq bu səhnəni izləyən rəisə heç olmasa ən azından bir gün burda qalmalı olduğunu ( yəqin ki, razborkası var idi) bildirirdi. Bütün bunların bir fayda vermədiyini görəndə düz mənim yanımda varanokun qapısı ağzında dişlərinin dibində gizlətdiyi lezvanı çıxartdı( deməli bu vəziyyətin baş verəcəyini bildiyi üçün qabaqcadan hazırlıq görübmüş)və qarnını açaraq doğramağa başladı.Əvvəlcə ağ piy qatının kəsikləri görünsədə sonradan qan fışqıraraq axmağa başladı və oğlan ağrıdan arxası üstə yerə yıxıldı.Rəis isə bu səhnəni teatıra baxır kimi izlədikdən sonra nadzorlara göstəriş verdi və onlar da həmin dustağı üstləri qan olmasın deyə əllərindən tutaraq sürüyə sürüyə geriyə apardılar.

Bəxtiyar isə Bayıldan buraxmadıqları üçünmü, yaxut xüsusi nəzarət altında saxlanıldığı üçünmü və yaxut mənim nəyə qadir olduğumu yoxlamaq üçünmü məni görüşmək üçün Çentralnıya yox, Bayıl həbsxanasına çağırırdı. Zondan Bayıla getmək isə dustaq üçün çox çətin və hətta deyərdim ki, əlçatmaz bir işdir.

Ən yaxşı halda zonda yeni bir cinayət törətməlisən ki, sənə təzə cinayət işi açıb izolyatora (istintaq təcridxanasına, yəni Bayıla) göndərsinlər.

Həmin vaxt Fərəc Quliyevin başçılıq etdiyi və Heydər Əliyevə sui-qəsd ittihamı ilə tutulan dostlarımızın məhkə-

məsi gedirdi (əslində bu sui-qəsd məsələsi də çox müəmmalı bir iş idi. Belə ki, Sürət Hüseynov qiyam qaldırır və bu qiyam hərbi qüvvələr tərəfindən yatırılıb qan tökülməməsi üçün Heydər Əliyev Bakıya dəvət olunur. Az sonra Prezident Əbülfəz Elçibəy Kələkiyə gedir.

Heydər Əliyev Azərbaycan Respublikasının Milli Məclisinin sədri seçilir və Prezident səlahiyyətlərini həyata keçirir, Surət Hüseynov isə həmin vaxt baş nazir kimi fəaliyyətə başlayır. Heydər Əliyevə sui-qəsd demək, Sürət Hüseynovun aftomatik olaraq dövlətin başına keçirmək demək idi. Ona görə də bu sui-qəsd doğurdan da həyata keçirilmək istənilibsə çox axmaq hərəkət, yox, əgər iqtidardakılar tərəfindən yalandan quraşdırılıbsa, çox gedişli bir manevr kimi yaddaşlara həkk olundu).

Rəhmətlik dostum və ləyaqətli kişi İsaxan Aşurov da o prosesdə vəkil kimi fəaliyyət göstərirdi.İsaxan bəyi görüşə çağırıb nəyin bahasına olursa olsun mənim o məhkəməsi gedən cinayət işində iştirakım adıyla Bayıla getməyim lazım olduğunu bildirdim.İsaxan bəyin çox böyük zəhməti sayəsində dekabr ayının 28-də məni Bayıl türməsinə apardılar.

Mənim üçün artıq bir növ "doğma" sayılan "adminstrativ kamera" (qara dustaqlar o kameranı əvvəllər "mentavskoy və yaxut da "itlərin" kamerası adlandırırmışlar.

Hətta mən ilk dəfə 1993-cü ildə o kameraya gəldiyim vaxt Şuşa krıtısında nadzor işləmiş bir dustaq qara dustaqlarla heç bir əlaqə saxlamağın mümkün olmadığını, dustaqların onlara hər an zərər yetirmək istədiklərini və s

deyərək kameradakı keçmiş paqon daşımış dustaqları qorxu altında saxlayırmış

Buna görə də o kamera korpusda ancaq " üzdən iraqların" kamerasıyla əlaqə saxlayır, ancaq onlara yemək göndərir,korpusda fırlanan pul, ərzaq və yardım proqonlarını kameraya yaxın buraxmırmışlar.

Mən gələndə kim olduğumu bildikdən sonra sevinə-sevinə kameranın yuxarı başından asdıqları, sonunda " Qurd başı" düzəldilmiş təsbehi göstərəndə, bunun " Qurd başı" deyil "it başı" olduğunu, bunu göndərənlərin isə üzdən iraqların kamerası olduğunu və bu "it başını" göndərməklərinin də "siz itsiniz" anlamı daşıdığını başa saldım.

Mən o kameraya gələndən və əlalxüsus da Lotu Bəxtiyarla görüşəndən sonra "it" sözü "qurd" sözüylə əvəz olundu və bütün praqonlar "çerez" bizim kamera keçməyə başladı) olan 2-ci korpus 46 saylı kameraya yerləşdirildim.

Həmən dəqiqə də nadzoru çağırıb üzbəüz 57-ci kamerada saxlanan Lotu Bəxtiyara Bayıla gəldiyimi xəbər verməsini dedim.Bundan sonrası artıq mənlik deyildi.Bilirdim ki, Bəxtiyar özü görüşümüzü təşkil edəcək.

Ertəsi gün səhər proverkasından (gündə iki dəfə olmaqla səhər və axşam yoxlanışı) qabaq kameramızın qapısı açıldı və nadzor məni "adminstrasiya" adıyla (dustağa hara aparıldığı haqda nəzatçi mütləq xəbər verir) çağırdı.

Kameradan çıxanda isə 4-5 metr eni olan koridorda "vosmikoneçnik şapkada" (cinayət aləminin sovetlərdəki

beş guşəli ulduzun ziddinə olaraq özlərinə simvol kimi götürdükləri və indi bizim üç rəngli bayrağımızda və gerbimizdə milli simvolumuz kimi həkk olunan səkkiz güşəli ülduza və o formada tikilmiş şapkaya deyilir) bir nəfərin durduğunu gördüm.Yaxınlaşıb əl uzadaraq sadəcə "Bəxtiyar" deyə özünü təqdim etdi. Mən də Səyavuş deyərək əlini sıxdım.

Bir başa söhbətə keçərək: “Sözün düzü bu dava-dalaş məsələlərini mən də eşidib çox narahat olmuşdum, amma bu məsələləri kiminlə danışacağım barədə bir nəticəyə gələ bilmirdim. Çox sağ ol ki, sən özün bu məsələlərin həlli üçün qabağa çıxdın” dedi.

Sonra az qala mənim həbs olduğumdan bu günə kimi, haralarda olduğumu necə hərəkətlər etdiyimi, maloletkanı "damdan yendirdiyimi" (bunt eliyib türmənin damına çıxmışdılar, Bəxtiyar onu deyirdi) "pres verməyə” (döyülməyə) qoymadığımı, maloletkaya "əyin baş" aldırdığım qarışıq (uşaqların paltarları pis gündə idi. Dostum iş adamı rəhmətlik Arif Axundov yanıma gələndə dustaq uşaqlar üçün alt paltarı, ayaqqabı, dərs ləvazimatı, dəftər-qələm və s. alıb gətirməyini xahiş etmişdim. O da sağ olsun lazım olandan iki-üç qat artıqlaması ilə alıb gətirmişdi. İndi də Bəxtiyar mənim çoxdan yadımdan çıxmış o məsələni xatırladırdı) hər şeyi danışdı.

Maloletkadan 9-cu zona köçəndən sonra bizə verilən təzə “roba”ları(raboçaya odejda-dustaq formasını) və batinkaları Çentralnıya aparıb Maloletkaya göndərilmək üçün xəstəxanada polojeniyaya baxan Naxçıvan şəhərin-

dən Hicrana(sonralar bunt vaxtı Krıtıda görüşdük) və Ordubad rayonundan Əmirə verməyimi (bizi təzə zona köçürdəndən sonra təzə dustaq paltarları və batinkaları vermişdilər. Bizdə də heç kim bu paltar və ayaqqabıları geymir, evdən gətirilən qara köynək və ayaqqbllarla keçinirdik. Ona görə də qərara aldıq ki, bunları "Çentralnı balnisaya" (mərkəzi xəstəxanaya) aparıb ordan Maloletkaya göndərim. Bəxtiyarın bütün bunları sadalamağı təəccübümə səbəb olsa da bir tərəfdən də doğrusu verilən və dəyərləndirilən hərəkətlərə olan qiymət və diqqətdən məmnun olmuşdum) danışdı və mənə bütün bu "za obşi delo" və "udileniyalar" (müsbət mənada göndərilən və görülən işlər) üçün təşəkkürünü bildirdi.

Mən də qarşılıqlı olaraq öz minnətdarlığımı bildirərək; "Mən, erməni quldurları ilə  döyüşdə canımı qoydum, məni"qanunsuz silahlı dəstə yaratmaq" adıyla mükafat olaraq 4 illik həbsxanaya saldılar, sizə isə heç nə eləməmişəm mənə minnətdarlıq edirsiniz" dedim.

O gündən Bəxtiyarla  tez-tez görüşmələrimiz  başladı.

Siyasi dustaqlarla "qara" dustaqların məsələsində isə Bəxtiyarın çox maraqlı yanaşması var idi. Deyirdi: "Belə məsələ iki dəfə baş verib, bu isə üçüncüdür. Birinci Sovet hökuməti təzə qurulanda Djerzinskinin vaxtında olub (mən Soljeniçinin "Arxipelaq kulaq" kitabından bolşeviklərin Ağ qvardiyacı zabitləri həbs etmələrindən, zabitlərin özlərini türmədə çox "dastoynu" aparmalarından, "qara" dustaqların yığışıb bunlarla necə rəftar etməli olduqlarından, nəticədə bunlara "tranzit" adı vermələrindən və mu-

savatçıların necə siyasi dustaq olmalarından və s. danışdıqca Bəxtiyarın da bütün bunları əzbər bildiyini deməsə də gülümsəmələrindən anlayırdım).

Ikinci Beriyanın vaxtında olub ki, "obşi arestantlarla siyasi və paqon dustaqları" bir zona salıblar (bu söhbətdə SLON (Severniy Laqer Osoboqo Naznaçeniya) haqqında danışdım və şair, yazıçı və mütəfəkkirlərimizə verilən əzab və işgəncələr barədə söhbət etdik). Bir də indi. Bunlar hamısı yuxarıdakıların qərarı olsa da, zonda bu işləri qarışdıranlar "operlərdi" (əməliyyatçı zabitlər).

"Neujeli" bunların ağlı bir operin ağlıca yoxdu ki, operin "mutilasına" (ara qızışdırmasına) gedib bir-birləriylə döyüşürlər. Sən özünüzünkülərə xəbər göndər, mən də zonlara "proqon" (bildiriş) yolluyacam ki, oturub sroklarını çəksinlər. Adam ki, girdi qazamata oldu dustaq. "Volyadakı" həyatını içəriyə gətirməməlidir. Zonda hər kimsənin öz "povideniyasına" (davranışına) uyğun yeri var".

Mən məhkəməyə çıxanda jurnalist Natella Bayramovaya bu haqda müsahibə verdim. Amma Lotu Bəxtiyarla həbsxananın içində yox məhkəməyə aparılarkən "Varanokda" (dustaqları daşıyan maşın) görüşdüyümüzü dedim ki, sonra problem yaranmasın.Səhf etmirəmsə "Müxalifət" qəzeyində bu müsahibəm getdi (bu müsahibə məndə indi qalmayıb. Kimdə qalırsa xahiş edirəm kopyasını mənə göndərsin). Həmən müsahibə bütün izolyatorlarda Bayıl, Şüvəlan, Gəncə və Naxçıvan olmaq şərti ilə kəsilib kameraların çoxuna yapışdırılmışdı.Demək olar ki, yüz il bundan sonra belə Lotu Bəxtiyarın o proqonuna qarşı çı-

xılmayacaq,çünki ümumi dustaq və siyasi məhbus məsələləri o görüşümüzdən sonra əbədi olaraq həll oldu.

Sonra mən zona qayıtdım və Əfv komisiyasının sədri Iradə Həsənzadə, daha sonra isə deputat və baş prokururun əmisi Zahid Qaralov xüsusi göstərişlə yanıma gəldilər və mənim buraxılmağım üçün "Əfv ərizəsi "yazmığımı istədilər. Mən isə ərizəni yazmayacağımı deyəndən sonra yeni iş açdılar, 4 illik həbsimin üçdə biri tamamlanıb azadlığa çıxmağıma az qalmış yenidən təzə cinayət işiylə əlaqədar 8 il iş verilməyim üçün Bayıla aparıldım.

Həmin müddətdə Lotu Bəxtiyarla daha yaxın münasibətlərimiz oldu. Mənim vəkilim olan Inqlab Nəsirovu(sonralar Apelyasiya Məhkəməsinin sədri oldu) Bəxtiyar üçün də vəkil tutdurduq. Saatlarla vəkilin yanında görüşüb söhbət eliyir, koridorda təzə yazdığı qəzəlləri mənə oxuyur, gedəndə qəzəl yazdığı dəftəri kitab kimi çap elətdirmək üçün mənə verəcəyini deyirdi.

Mən mərdliyə məhkum olanam, möhkəmə məhkum,
Məhkum edə bilməz məni heç məhkəmə, məhkum.
Min şadlığı bir göz yaşına, nəşəni dərdə,
Yüz zövqi-səfanı edərəm bir qəmə məhkum.
Öz kölgəmin ardınca düşüb caniyə döndüm,
Kölgəm mənə hakimdi,mən öz kölgəmə məhkum.
Bəs pərdədə zildən oxuyub, zildə pəs oldum,
Bəmdən güc alan zil, yenə oldu bəmə məhkum.
Yox varlığa darlıq dedilər, bilmədilər ki,
Çox var olanı tale edibdir kəmə məhkum.

Görkəm ucalıb dünyada şəxsiyyəti ötmüş,
Şəxsiyyət olub gövdəli bir görkəmə məhkum.

Başqa bir qəzəlində yazırdı.

Səbr, ey dil,az olur pis güzəranın, yamanın,
Ki, dönüb yaxşılığa,çərxi dövr edən zamanın.
Biz də azadə gəzib, cəm olarıq, qəmdən iraq,
Çıxarıq seyrinə həm, guşeyi-cənnət cahanın.
Kim ki, mərddir bu onunçün yazılan qanundur,
Verə aləmdə gərək,zülmi-həyat imtahanın.
Dərk edə, məqsəd odur ki,hamı bu mənanı,
Şəkk edib qırmaya ümmidini axər gümanın.
Inşəallah verilər qiyməti çox düzlük ilə,
Yaşamış ömrünü mərdanə-təmiz hər adamın.
Nardaran pirinə, ey Bəxtiyar, oldun aşiq,
Ey,Həci,Novxanıdır,bil əzəl-axır məkanın.

Deməli biz karidorda üz-üzə dayanıb söhbət edəndə başqa kameralardakı məhbusları proqulkaya aparmalı olan nadzor bizim yanımızdan keçib dustaqları aparmağa cəsarət etmir, dustaqlar qarışıq arxası onlara tərəf olan Bəxtiyarın keçmək icazəsi verməsini gözləyirdilər. Bəxtiyar bunları görəndə əlindəki təsbehi ilə keçin işarəsi verdikdən sonra, dustaqlar əllərini sinələrinə qoyaraq az qala ikiqat əyilə-əyilə bizim yanımızdan keçərək Bəxtiyara salam verirdilər. Bu kimi məsələlər mənə çox təəccüblü

görünsə də,Bəxtiyar və digər dusraqlar üçün normal hal kimi qəbul olunurdu.

Bütün bunlar barədə sonrakı yazılarımda bildirəcəyəm.

Indi isə Lotu Bəxtiyarın gənclərə müraciətlə mənə dediyi bu cümləylə Bəxtiyar haqqlndakı bu yazımı bitirmək istəyirəm.

"Səyavuş, Maloletkayla yaxın əlaqələrin var, mənim adımdan onlara de ki, həbsxana fəxr eləməli yer deyil" (bu Lotu titulu daşıyan birinin həbsxana haqqında deyə biləcəyi çox mükəmməl bir kəlmədir. Türmə Lotunun evi sayılır və bu mənada o öz evinə pis deyə bilməz. Ona görə də belə bir cümlə qurmaq çox dərin və məntiqli ağılın məhsulu olsun gərək) Qoy getsinlər, elmlə, sənətlə, idmanla məşğul olsunlar. Türməyə can atmasınlar.

Hər zaman Lotu Bəxtiyarın bu sözlərini xatırlayanda türmələrdə dillər əzbəri olan Ağasəlimin türmə haqqındakı meyxanasının bir bəndi yadıma düşür.

Yaxşı oğlan odu ki,
Göygöldə, Nabranda ola!
Yanında ailəsi,
Yaxşı güzəranda ola.
Yoxsa ki, dustaq ola,
Türmədə, pünhanda ola.
Yaraşmır reşotkadan,
Heç sənə baxmaq Qaqaşım.
Cəhd elə olmayasan
Türmədə dustaq Qaqaşım.

Yaz ayları idi. Xəbər verdilər ki, Lotu Bəxtiyar çentralnıda ağır vəziyyətdədi. Çox çətin də olsa xəstəxanaya etap olunmağı bacardım. (bu işdə böyrəyimin birinin olmaması bəzən işimə yarayırdı). Mən xəstəxanada olanda isə Bəxtiyarın artıq aparata qoşulduğunu bildirdilər. Qara ciyər serrozundan bütün bədəni şişmiş və beyin pozuntularından kimsəni tanımaz hala düşmüşdü. Mən çentralnıya gedəndən bir neçə gün sonra dünyasını dəyişdi.

Lotu Bəxtiyar adıyla məhşur olan Bəxtiyar Ağababa oğlu Kərimov 1959- cu il martın 21- də Novruz Bayramı günü Novxanı kəndində anadan olmuşdu.

6 aprel 1998-ci ildə Məhkəmə Qərarları Icrası Baş idarəsinin Müalicə Əmək Müəssisəsində dünyasını dəyişdi.

Ruhuna salam olsun Batya!

PS. Həyatda başqa-başqa cinahlarda olsaq da, həbsxanada bir qıfıl altında cəza çəkdiyimiz Lotu Bəxtiyarla polis-oğru münasibətləri haqda çox söhbətlərimiz olub.

Qismət olsa gələcəkdə bu haqda yazacam, inşaallah. Atalar demişkən: "Düşmənin mərdi, dostun namərdindən daha şərəflidir".

***24 Haziran 2024-cü il***

## NAZİM HİKMƏT



Arxadaşlar!

Nazim Hikmətlə bir ruh yaxınlığımız var. Baxmıyaraq ki, o kommunist, Türkiyəlilərin dediyi kimi solçu, mən isə milliyətçi yəni sağçıyam. O, Araz çayı sahilində durub Türkiyəyə baxaraq oranı Sovetlər Birliyinin 16-cı respublikası kimi görmək istəyirdi. Mən isə Sovetlər Birliyini dağıdıb 14 respublikanın azad olması ilə kifayətlənmir, doğulduğum Qaraxanbəyli kəndinin ətəyindən axan Araz çayından o taya baxaraq Azərbaycanı birləşdirmək istəyirdim. Bunun üçün özüm kimilərini də ayağa qaldırıb Araz çayı boyundakı Sovet-Iran sərhəddini müəyyənləşdirən tikanlı məftilləri və sərhəd qurğularını da sökmüşdük.

Nazim Hikmət Türkiyədə həbsxanalarında cəza çəkmişdi, mən Azərbaycan həbxanalarında. Aramızda yaş fərqi 66 il idi. O, dünyasını dəyişəndən 5 il sonra mən düyaya gəlmişdim. Nazim Hikməti qiyabi 15 il həbsə məhkum etsələr də o, gizli yollarla Moskvaya getdiyindən həbsi reallaşmamışdı. Yenidən Türkiyəyə döndüyündə 1932-ci ildə türkiyəli kommunistləri üsyana çağıran "Gecə

gələn teleqram" şeir toplusuna görə həbs cəzasına məhkum edilmişdir. Bir il sonra aministiyaya düşsə də sonralar hər kitabı çap olunduqca həbs edilmişdir. Tez-tez həbs edilməyimizdə də bir oxşarlıq var. O, azadlığa çıxdıqdan sonra təkrar həbs edilirdi. Mən həbsxanada yata-yata yenidən həbs müddətim uzadılırdı. Belə faktları çox sayıb size yormaq istəmirəm.

Bir sözlə Nazim Hikmət əqidəcə çox uzaq, ruhca çox yaxın olduğum şairdir!

Beləcə içimdə hər zaman Nazim Hikmətə fərqli baxışım olub.

Əqidəmin ruhuma üstün gəldiyi vaxt onu satqın adlandırır, Türkiyəyə, vətəninə, el-obasına xəyanət edən adam kimi görürəm.

Ruhumun əqidəmə üstün gəldiyi vaxt isə incə təbiətli, həssas, insanpərvər bir şairlə üz-üzə qalıram.Ən çox da həbsxanada şeirlərini oxuduqca bu hissləri keçirirdim.

İstanbulu dinliyorum, gözlerim kapalı;
Önce hafiften bir rüzgâr esiyor,
Yavaş yavaş sallanıyor,
Yapraklar ağaçlarda.
Uzaklarda, çok uzaklarda,
Sucuların hiç durmayan çıngırakları,
İstanbulu dinliyorum, gözlerim kapalı.

İstanbulu dinliyorum, gözlerim kapalı;
Kuşlar geçiyor, derken,

Yükseklerden, sürü sürü, çığlık çığlık,
Ağlar çekiliyor dalyanlardan,
Bir kadının suya değiyor ayakları,
İstanbulu dinliyorum, gözlerim kapalı.

İstanbulu dinliyorum, gözlerim kapalı;
Serin serin Kapalıçarşı,
Cıvıl cıvıl Mahmutpaşa,
Güvercin dolu avlular,
Çekiç sesleri geliyor doklardan,
Güzelim bahar rüzgвrında ter kokuları,
Istanbulu dinliyorum, gözlerim kapalı.

Istanbulu dinliyorum, gözlerim kapalı;
Başımda eski вlemlerin sarhoşluğu,
Loş kayıkhaneleriyle bir yalı,
Dinmiş lodosların uğultusu içinde.
Istanbulu dinliyorum, gözlerim kapalı.

Istanbulu dinliyorum, gözlerim kapalı;
Bir yosma geçiyor kaldırımdan,
Küfürler, şarkılar, türküler, laf atmalar…
Bir şey düşüyor elinden yere;
Bir gül olmalı…
Istanbulu dinliyorum, gözlerim kapalı.

Istanbulu dinliyorum, gözlerim kapalı;
Bir kuş çırpınıyor eteklerinde,

Alnın sıcak mı, değil mi, bilmiyorum,
Dudakların ıslak mı, değil mi, bilmiyorum,
Beyaz bir ay doğuyor fıstıkların arkasından,
Kalbinin vuruşundan anlıyorum,
Istanbulu dinliyorum…



***Nazim Hikmətin şeirinin təsiri ilə həbsxanadan çıxandan sonra Istanbula gedərkən ilk ziyarət etdiyim yer Gülhanə parkı oldu.Amma orda ceviz ağacı görmədim.***

Bəlkə də məni hələ Sultan Mehmet Fatehi belə tanımadığım Sovet məktəblisi olduğum vaxtlar Istanbulu sevməyə bu şer sövq eləyib. Bu şeri oxuyanda hər zaman özümü Istanbulda hiss edirdim. Fikirləşirdim ki, yəqin Istanbul o qədər gözəldir ki, şair onu belə ürəkdən, içdən və səmimi qəlbdən vəsf eləyir.

Ben bir çeviz ağacıyım Gürhane parkında
Ne sen bunun farkındasın, ne polis farkında!
Yapraklarım kollarımdır, düz yüz bin kolum var
Yüz bin kolla tokunurum sana, Istanbula!
Yaprakların gözlərimdüz şaşarak bakarım
Yüz bin gözlə seyr ederem seni, Istanbulu
Ben bir ceviz ağacıyım Gürhane parkında,
Ne sen bunun farkındasın ne polis farkında!

Bu şeri ilk dəfə 1992-ci ilin may ayında Istanbulda olarkən, Gülhane parkına gedərək orda söyləmişəm. Həm də 3 may "Türklük günü" münasibəti ilə Baş Buğ Alparslan Türkeş bəyin dəvəti ilə getdiyim tədbirdən sonra, millətçi dostların şaşqınlıqla baxdığı bərəlmiş gözləri önündə "bir kommunist şairin" şerini bağıra-bağıra və göz yaşları içində duyğularımın cuşa gəldiyi bir halda söyləmişəm!

Ruhuna salam olsun şair!

Çünki sənin ruhuna vurğunam əqidənə yox!

İstanbulda olmaya-olmaya mənə Istanbulu sevdirən şair!

***3 Haziran 2024-cü il.***

## SİYASİ MƏHBUSLUQDAN İMTİNA ETDİM

Arxadaşlar!

ABŞ 40 nəfər Azərbaycanlıya sanksiya tətbuq edib. Bununla əlaqədar həbsxanada olduğum vaxt baş verən bir hadisə yadıma düşdü. Onu sizinlə bölüşmək istəyirəm.

İl 1999, yer Qobustan Qapalı Həbsxanası.

1993-cü ildə həbs olunub, 1994-cü ildə 4 il azadlıqdan məhrum olunmağıma baxmayaraq, "Ərizə yaz buraxsın" lozunqu ilə yanıma göndərilən "elçilər" başda millət vəkilləri Sirus Təbrizli, Zahid Qaralov, Asim Mollazadə, əfv komisiyasının sədri İradə Həzənzadə və b. gəlməkdə davam edirdi. Mən isə iki ayağımı bir başmağa dirəyərək əfv ərizəsi yazmaqdan imtina edirəm.

Hər gələn elçiyə etirazımın əvəzində isə ilk olaraq cəza aldığım 4 ilim yenidən başqa bir işlə birləşdirilib, 8 ilə çevrilir, sonra məhkəmənin qərarı ilə 2 il Qobustan Qapalı Həbsxanasına göndərilirəm. 2 ildən sonra isə "obşak" olduğum 9 saylı zona qaytarılıram.

Üstündən bir az keçir və yenidən Qobustana göndərilirəm. Bu dəfə isə 3 illik göndərilirəm. Qobustana göndərməklə ürəkləri soyumur və "guya 5 manat rüşvəf vermək" üstündə nazoru üzümə durdururlar və əlavə 3,5 il cəza alıram. Beləliklə də, cəza qatarının həyatımın üstündən "Bizim Cəbiş məllim" kinosunda deyildiyi kimi "takkatarakla elədən beləyə, belədən eləyə" keçdiyi vaxtda Beynalxalq İnsan Hüquqları Cəmiyyətlərinin hansınınsa núma-

yəndələri Qobustan Qapalı Həbsxanasına gələrək bizlərlə, yəni adı siyasi məhbus siyahısında olanlarla görüşəcəklərini bildirirlər.



***Həbsxanada olarkən görüşümüzə gələn əqidə yoldaşlarım. Soldan: Nehrəmli Abdulla (dustaq), Isa Sadıqov (dustaq), Nürəddin Müstafayev (qardaşım), Toma xanım, Novella xanım, mən, Gülnarə xanım, Yadigar Məmmədli (jurnalist)***

Sevincimizin həddi hüdudu yoxdur. Nəhayət ki, bizim də səsimizi eşidən, bizə də sahib çıxan olduğundan Avropa Demokratik İnstitutlarına tariflər yağdırır, ürəyimizdə atalarına rəhmətlər oxuyurduq. Ümid yerimiz hesab etdiyimiz avropalılar gəlir. Mən cəza çəkdiyim sançast adlandırılan 3-cü korpusun həyətindəki “besedkada” gözümüzün qabağında separatçı Əlikram Hümbətovla, Milli

Hökümətə qarşı çıxan Rəhim Qaziyevlə və mən yatdığım kamera-palatasının divar qonşuluğunda yatan "vətən xaini" Surət Hüseynovla görüşür və getməyə hazırlaşırlar.

Mən pəncərədən bunlara bizim də cəbhəçilər olaraq siyasi məhbus olduğumuzu və bu həbsxanada onlarla günahsız cəza çəkən silahdaşlarımızın olduğunu bildirirəm. Nəyə görə bizlərlə yox, separatçılarla,dövlətə qarşı çıxanlarla və vətən xainləriylə görüşdüklərini soruşuram. Əvəzində isə "biz lazım olanlarla görüşdük" cavabını alıram. Sanki qol-qanadım qırılır, güvəndiyim dağlara qar yağır və götürüb Beynalxalq İnsan Hüquqları Cəmiyyətinə aşağıdakı məktubu yazıram:

"Mən Mustafayev Səyavuş Firudin oğlu 6 il həbs həyatı yaşamağıma rəğmən, sizin məni vətən xainləri ilə bir siyahıda "Siyasi məhbus" elan etmənizə etiraz olaraq bu gündən sizin siyahınızla "Siyasi məhbus"adı daşımaqdan imtina edirəm. Ya mən və yüzlərlə həbsdə olan silahdaşlarım siyasi məhbus olmalıyıq, ya da dövlətə qarşı çıxan Rəhim, separatçılıq edən Əlikram və vətənə xəyanət edən Sürət kimilər. Mən vətən xainləri ilə bir sırada ola bilmərəm və hətta onlarla birlikdə bu siyahıyla azadlığa çıxmaqdan belə imtina edirəm!"

Bax, beləcə mən onların tərtib etdiyi siyahıda siyasi məhbus olmaqdan imtina etdim.

İndi də gələk sanksiyalara.

Amerika 40 nəfər Azərbaycanlıya qarşı sanksiya siyahısı tərtib edib və həmin siyahıda Hikmət Paşa Mirzəyev ilə Murtuzun oğlu Fuadı bir siyahıya salıb. Erməniyə qan

udduran Paşayla, haqsızlıq içində boğulan Fuad, sifarişlə cəza kəsən hakim və prokurorluq işçisi və b. bir tutulur.

Ümumi götürəndə mən rüşvətxorlara, cinayətkarlara qarşı verilən sanksiyaların əleyhinə deyiləm, amma qurunun oduna yanan yaşları çıxmaq şərti ilə.

Hikmət Paşa erməni tərəfdarı olan çoxlarının gözünə ox olub batsa da bizim qəhrəmanımız və qürur mənbəyimizdir. Ona verilən sanksiya bütün döyüşən əsgərlərimizə edilən hörmətsizlikdir. Ona görə də Qərb İnistutları Surəti mənimlə eyni siyahıda "Siyasi məhbus" gördükləri kimi, Amerika baş bilənləri də Hikmət Paşamızı erməni lobbisinin canfəşanlığı ilə Murtuzun oğlu Fuadla bir sanksiya siyahısına salır. Bu isə rusların bizi, Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasında adlandırdığı kimi, qərblilərin də bizi Səməd Vurğunun "Zəncinin arzuları" poemasındakı qəhrəmanı kimi görmələrindən irəli gəlir.

**3 Haziran 2024-cü il.**

## SON MƏHKƏMƏMDƏKİ SON SÖZÜM

Arxadaşlar!

Mənə görə narahat olduğunuz üçün hər birinizə təşəkkür edirəm.

Prokuror mənə 3 il 6 ay iş istədi. Mən isə son sözümdə belə dedim:

"Möhtərəm məhkəmə heyyəti. Prokuror mənə 3.5 il iş tələb etdi. Amma özü də bilmir niyə?

Əgər bu iş mənə Vətəni sevməyim üçün verilirsə, yaxşı bilirsiniz ki, bu çox aşağı bir cəzadır. Mənim vətən sevgimə görə prokuror gərək daha yüksək cəza istəyəydi. Çünki mən bu vətəni çox, həm də canımdan çox sevirəm. Mənim üçün həbsxana betonlarının altındakı torpaq da vətəndir. Çünki o torpağa mənim qucağımda şəhid olan 123 nəfərlə birlikdə minlərlə şəhidimin qanı tökülüb.

Mən bu vətən, bu torpaq, bu dövlətin Azadlığı üçün döyüşmüşəm. Qan tökmüşəm və qanım tökülüb. Hər an da son damla qanıma kimi döyüşməyə hazıram. Mənim ailəmdə şəhid Milli Qəhrəman var. Yadınızda saxlayın, mənim vətəni sevməyim cinayətdirsə, onda dünyanın ən qatı cinayətkarı mənəm..

Möhtərəm hakim. Mənim sizdən heç bir xahiş və təmənnam yoxdur ki, 21 iyunda mənə iş kəsməyin. Amma bir onu deyirəm ki, hökm verəcəyiniz anda vicdanınızı və qanunu uca tutun. Qanunu şah hesab edin, şahı qanun kimi qəbul etməyin.



***Həbsxanada ziyarətimə gəlmiş dostlarım. Soldan: Sabir Hüseyinov, Nəsimi (dustaq), Elşad Salayev, mən, qardaşım Nürəddin Mustafayev, Isa Sadıqov (dustaq), Fəhmin Hacıyev (dustaq), Ələsgər bəy, Əli Şamil, qarşıdakılar Fikrət Bağırov, Telman Siyablı.***

Avropa məhkəmələrində Azərbaycandan gedən şikayətlərə baxılır və 230 məhkəmə işi uduzulub. Nəticədə dövlətimiz həm hörmətdən düşüb, həm də kompensasiya ödənilib. 533 iş isə baxılmaq üzrədir.(Bu zaman hakim mənə müraciətlə "Cənab təqsirləndirilən şəxs, öz işinizdən danışın xahiş edirəm" dedi).



Möhtərəm hakim dediyim odur, elə höküm çıxarın ki, dövlətimiz Avropa məhkəmələri qarşısında utanc vəziyyətdə qalmasın.

Mən hesab edirəm ki, nə mənim nə də burda oturanların heç birinin əməlində cinayət tərkibi yoxdur və hamımıza bəraət verilməlidir. Belə bir aforizm var: Deyir " Məqsəd vasitəyə haqq qazandırır". Bu işdə də bizim məqsədimuz Orduya dəstək, səfərbərlik elan edilməsi və torpaqlarımızın azad edilməsi idi. Allaha şükür ordumuz 44 gün-

lük müharibədə bu tələb etdiklərimizi, yəni bizim istəklərimizi yerinə yetirdi. Çox təəssüf ki, sayənizdə biz o döyüşlərdə iştirak edə bilmədik.Hətta mən bu barədə Ali Baş Komandana mürüciət də etdim ki, bizə müharibəyə getməyimizə icazə versin.

Yürüş və mitinq isə bu məsələdə vasitə idi. Məqsədə çatmaq üçün isə istənilən vasitə məqbul sayılır. Həm də əgər Söz konusu vətəndirsə..

Yeganə xahişim odur ki, mənim hərbi formamı geri qaytarın.

Mən bir daha özümə və məhkum yoldaşlarımın hamısına bəraət tələb edirəm".

P.S Məhkəmə başlamamış çox ağır bir xəbər eşitdik. Məhkum yoldaşımız Seymur Əhmədovun 2 yaşlı oğlu Məmmədəmin rəhmətə gedib. Allah rəhmət eləsin. Valideyinlərinə səbr əta eləsin.

P.S.S Hər gün saatlarla məhkəmənin önündə gözləyən əsasən AXCP-çilərdən ibarət olan jurnalistlərə və digər qardaş-bacılara sonsuz təşəkkürümü bildirirəm.

***11 Haziran 2021-ci il.***

## VAQİF ƏHMƏDOV



Arxadaşlar!

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə əməkdaşlıq haqqında niyyət protokolu imzalandı. Bundan çıxış edərək, "Azərbaycanfilm" kinostudiyası şəhid rejissor Vaqif Əhmədov adına təqaüd təsis etdi.

Təşəbüsün əsas məqsədi peşəkar kino məktəbinin istedadlı davamçılarını aşkar etmək, iddialı tələbələrə dəstək olmaqdır. Təqaüdçülərin adlarını təqdim etmək ADMİU-nin elmi şurasına həvalə olundu.

Tanımayanlar üçün deyim ki,düşmənə əsir düşməmək üçün əlindəki qumbarayla özünü şəhid etsə də, bir neçə erməni faşistini gəbərdən qəhrəman şəhidimizdir Vaqif Əhmədov!

Vaqiflə bizim tanışlığımızın çox maraqlı tarixcəsi var.

Il-1988. Ay – dekabr. Gün- 4-dən 5- nə keçən gecə…

Yer - məşhur Bayıl türməsi.

Say- 10-15 nəfər arası.

Məkan- 3-cü korpus. Əbülfəz Elçibəy, Xəlil Rza, Tağı Xalisbəyli, Xudu Xuduyevin salındığı kamerayla üzbə-üz kamera (təəssüf ki kamera nömrəsini unutmuşam. Bizimlə bir kamerada olan Rauf abi Səlimbəyli yəqin ki, xatırlayar).

Noyabrın 17-də başlayan, Sovetlər Birliyinin rəhbərlərini lərzəyə salan Lenin meydanındakı mitinq dağıdılıb. Gecəylə bizi həbs edib Bayıla gətiriblər. Kamerada dəmir çarpayılarda heç bir döşək, yastıq, mələfə filan olmasa da 20 günə yaxın meydanda qaldığımızdan bizə bura çox rahat gəldi. Kameraya salınanda bir-birimizlə tanış olmadan yıxılıb yatdıq.

Səhər açılsa da heç kim yerindən qalxmırdı. Düşdüyümüz yerin ruhlarımızı əzən yükünün ağırlığına tab gətirmək üçün beyinlərimizi kökləyirdik.

Bu vaxt pəncərə tərəfdə necəsə özüylə meydandan gətirdiyi adyala bürünüb yatmış, sifət cizgiləriylə üzündən Türk oğlu Türk olduğunu, min nəfər qeyri millətin arasında olsa belə, bəlli edən "simpatiçni" (yaraşıqlı) bir oğlan ayağa durdu.

Olduğumuz yerə, fiziki vəziyyətimizə və psixoloji halımıza uyğun olmayan bir şəkildə və qəşəng bir tərzdə qollarını geniş açaraq gərnəşdi, dərindən və ədalı şəkildə ucadan bir əsnədi və yumruqlarını sinəsinə döyüb qapıya tərəf gəldi. Çox sərbəst şəkildə, heç kimi görmürmüş kimi sanki qolunda olmayan dəsmalı götürərək divardakı asılqandan asdı. Sonra Sovet vaxtı "umıvalnik" dediyimiz əl-üz yuyanın aşağıdakı simini yuxarı qaldırdı, sanki ovuclarını su ilə doldurdu və ufultu ilə suyu üzünə çırpıb yumağa başladı.

Daha sonra isə virtual sabun qabından sabun götürdü, əl-üzünü sabunladı və bu arada gözünü sabun acışdırırmış kimi, tez sabunu yerinə qoyub gözünü yuduqdan son-

ra rahat-rahat futlyardan diş fırçasını çıxardıb, üstünə diş məcunu sürtdü və sanki kameranın qapısına yox Maldiv adalarından okeana baxırmış kimi ləzzət ala-ala dişlərini yudu.

Ən sonda isə dəsmalını götürüb virtual yuyunmanın virtual qurulanmasını həyata keçirə-keçirə bizə tərəf gəldi və "Sabahınız xeyir tələbə məhbuslar. Səyavuş necəsən?"-dedi.

Kameradakıların hamısı dikəlib bu müəmmalı oğlanın elədiyi müəmmalı hərəkətlərə baxırdı. Birdən kimsə əl çaldı. Hamı ona qoşuldu. Gurultulu alqış kameranı sanki tamaşa salonuna döndərdi.

Sonra söhbətlərimizdən məlum oldu ki, bu müəmmalı və qeyri adi oğlanın adı Vaqifdir, Incəsənət institutunda o vaxt üçün ən "virtuoz" fakültə olan (elə indi də) rejissorluq fakültəsində oxuyur. Göstərdiyi bu hərəkətlərin adı isə "etüd"dü. O, Naxçıvan şəhərində, o vaxtkı 6 saylı məktəbin yanında yaşayır, məni də tələbə hərəkatımız olan "Yurd"dan tanıyır.

Həbsxanada olduğumuz müddətdə gündə bir saatlıq "proqulka" vaxtı hamımız əllərimizi dalımıza qoyub dairə şəkilində dövrə vururduq. Vaqif isə ortada şer deyirdi.

Gah Nəsimi olurdu, gah Babək, gah Əmir Teymur (o vaxt hamı Topal Teymur deyirdi, Vaqif isə Əmir Teymur deyirdi), gah da dərviş olurdu. Elə zatən də əməlli başlı dərviş idi.

O qədər şer bilirdi ki, həbsxanada olduğumuz bütün müddət ərzində bir şeri iki dəfə demədi. O vaxtdan etibarən Vaqif abiylə dostluğumuz başladı.

Çox unikal, talantlı, milli qeyrətli və mübariz bir insan olan Vaqif sonralar Naxçıvana gəldi, Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərini səhnələşdirdi. Rejissor kimi də artıq püxtələşir, incəsənət aləmində öz yerini tuturdu.

Amma dözə bilmirdi. Əsasən də Xocalı hadisəsini heç cür həzm edə bilmirdi.

Qarabağa getməmişdən əvvəl Naxçıvanda Böyük bağın çayçısında bizim Müdafiə Komitəsinin sədri, dostum Oktay abiylə birlikdə görüşdük. Oktayla da deyəsən rəssamlıq məktəbindən ya hardansa çoxdanın tanışı imişlər. Dedi artıq dözəmmirəm Qarabağa gedəcəm.

Oktayla mən çox çalışdıq ki, Qarabağa getməsin. Heç olmasa gəlsin burda Naxçıvanda bir yerdə vuruşaq. Dedi "yox mən Xocalıda döyüşə girib oranı azad etmək üçün Qarabağda döyüşməyə getməliyəm".

Və getdi…

Ailəsi Vaqifi, biz dostları qardaşımızı, döyüş yoldaşları komandirlərini, Azərbaycan incəsənəti isə Oskara qədər yüksələcək bir rejissor itirdi.

Ruhuna salam olsun əziz qardaşım.

P.S. Dünən oxudum ki, Incəsənət universitetində Vaqifin adına təqaüd təsis ediblər. Çox sevindim.

Ad günündə Bakı TV-də Vaqifə aid verliş də verdilər. Ailə üzvləri, tələbə yoldaşları və döyüş yoldaşları danışdı. Xəbərim olmayıb bilsəydim məmnuniyyətlə xatirələrimi bölüşərdim.

**5 Aralıq 2023-cü il.**

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

Dizayner: **Zahid Məmmədov**
Texniki redaktor: **Elnarə Malikqızı**

Çapa imzalanmış 05.12.2024
Şərti çap vərəqi 16,25. Sifariş № 90
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4